Xalqın qəzeti!

# Xalq qəzeti

№ 25 (30994) 10 fevral 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Azərbaycan–ABŞ: siyasi tərəfdaşlıq iqtisadi əməkdaşlıqla tamamlanır

## Prezident İlham Əliyev ABŞ Ticarət Palatasının nümayəndə heyətini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Mümayəndə heyətinə Palatanın Yaxın Şərq, Mərkəzi Asiya və Türkiyə üzrə vitse-prezidenti Cennifer Miel, həmçinin "Apple", "Ardea Energy Technologies Inc.", "Ericsson AB", "ExxonMobil", "Herbalife", "Illumina", "Meta", "Visa", "Wabtec", "Baker Hughes", bp, "Boeing Global", "Honeywell", "J.P.Morgan", "Lummus Technology", "Marriott", "Mastercard", "Shell International", "Azerbaijan Coca-Cola Bottlers" MMC və "Motorola Solutions" şirkətlərinin rəhbər şəxsləri daxildir.

Qonaqları salamlayan **Prezident İlham Əliyev** dedi: "Sabahınız xeyir, xoş gəlmisiniz. Sizi görmək çox xoşdur. Şadam ki, böyük nümayəndə heyəti ilə səfərə gəlmisiniz. Bir neçə ay bundan öncəki görüşümüzü xatırlayıram və məmnunam ki, siz dəvətimizi qəbul edərək ölkələrimiz arasında münasibətlərin çox fəal inkişaf etdiyi vacib bir vaxtda Azərbaycana səfərə gəlmisiniz.

Bildiyiniz kimi, biz hazırda ikitərəfli əlaqələrin çox ümidverici və fəal olan yeni mərhələsinə qədəm qoyuruq və əlbəttə, ABŞ Vitse-prezidentinin səfəri ərəfəsində sizin nümayəndə heyətinizin gəlişi də olduqca əhəmiyyətlidir. Çünki bizim təmaslarımızın bir hissəsi biznes, sərmayə, ticarət münasibətləri və strateji gündəliyimizin tərkib hissəsi olan bir sıra digər məsələlər üzərində cəmləşib.

Bilirəm ki, müxtəlif dövlət rəsmiləri ilə sizin çoxsaylı görüşləriniz nəzərdə tutulub. Əminəm ki, onlar sizin bütün suallarınızı cavablandıracaqlar. Düşünürəm ki, bu səfərin nəticəsində biz müxtəlif istiqamətlərdə daha fəal təmasların şahidi olacağıq. Onu da bilirəm ki, siz ABŞ iqtisadiyyatının müxtəlif seqmentlərini təmsil edirsiniz və bu, çox faydalı olacaq, çünki bu günə qədər iqtisadi əlaqələrimiz bizim görmək istədiyimiz səviyyədə deyil.

Bir daha xoş gəlmisiniz, sizə ölkəmizdə xoş vaxt keçirməyi arzulayıram. Bilirəm ki, mütləq əksəriyyətiniz üçün bu, ilk səfərdir və bu, Azərbaycan haqqında daha çox məlumat əldə etmək üçün yaxşı fürsətdir. Xoş gəlmisiniz".

**Kuş Çoksi:** Zati-aliləri, təşəkkür edirəm. Burada olmaq çox xoşdur. Biz BMT Baş Assambleyası çərçivəsində Sizinlə görüşdük və Siz bizi Azərbaycana dəvət etdiniz, böyük nümayəndə heyətinin gəlişini arzuladınız. ABŞ-dakı səfiriniz Xəzər İbrahim, İqtisadiyyat Nazirliyi, "AZPROMO" və ABŞ-ın burada fəaliyyət göstərən səfirliyindəki həmkarlarımızın dəstəyi ilə 31 şirkətin nümayəndəsi Azərbaycana gəlib. Bu səhər burada onlardan bəziləri iştirak edir, lakin nümayəndə heyətinin özü daha genişdir – 31 şirkətdən 60 nəfər nümayəndə. Yəni bu masada da böyük heyət var. Biz, həqiqətən də, burada olmağımızdan məmnunuq. Adətən biznes əlaqələri siyasi əlaqələrdən daha sürətli inkişaf edir. Ancaq burada bir az qeyri-adi olan odur ki, siyasi münasibətlər iqtisadi əlaqələri üstələyir. Buna baxmayaraq, şirkətlər sürətlə hərəkət edir və biz tezliklə lazımi səviyyəyə çıxacağıq. Bu, Sizin rəhbərliyiniz və hökumətinizin fəaliyyətinin nəticəsidir ki, burada iştirak edən nümayəndələr müxtəlif sahələri təmsil edirlər.

**Prezident İlham Əliyev**: Bəli, bunu görürəm.

**Kuş Çoksi:** Burada yalnız enerji deyil, texnologiya, qida məhsulları və nəqliyyat sahələri təmsil edilir. Bu fürsətə görə Zati-alinizə, sadəcə, təşəkkürümüzü bildirmək istəyirik.

*(ardı 2-ci səhifədə)*

## Zəfər seçkisi dünənə qiymətin, sabaha zəmanətin təntənəsi idi



Səhifə ⇨ 4

## Qarabağ: cəhənnəmdən cənnətə qayıdış

*Bu yolun üstündəki əsas maneə ermənilərin basdırdığı minalardır*

**Azərbaycanın BMT yanında daimi nümayəndəsi, səfir Tofiq Musayev BMT-nin Sosial İnkişaf Komissiyasının 64-cü sessiyası çərçivəsində keçirilən iclasda çıxış edib. Səfir müasir münaqişələrin insanlara və cəmiyyətlərə vurduğu sarsıdıcı təsirləri vurğulayıb. Onun sözlərinə görə, münaqişələr yalnız xəritədə sərhədləri dəyişmir, həm də insanların ümidlərini və gələcək perspektivlərini məhv edir.**

Səfir bildirib ki, münaqişələr yalnız xəritədə sərhədləri dəyişmir, həm də insanların ümidlərini və gələcək perspektivlərini məhv edir. O, kütləvi köçkünlük, dərin humanitar böhranlar və gələcək nəsillərin məhdudlaşan inkişaf imkanlarını Azərbaycanın onilliklər boyu yaşadığı təcrübə ilə əlaqələndirib: "Təəssüf ki, müharibənin əsl qiyməti yalnız sərhədlərdə ölçülmür. O, uşaqların həyatına təsir edir, ailələri yerlərindən didərgin salır, arzuları isə gələcəklə birlikdə məhv edir," – deyə səfir Musayev vurğulayıb.

*(ardı 4-cü səhifədə)*

## Azərbaycan regionda sabitliyin istinadgahıdır



Səhifə ⇨ 5

## İrəvan məhkəməsində "ölü diriltmə" tamaşası



Səhifə ⇨ 7

## Hərb və sülh arasında seçim



Səhifə ⇨ 7

## TRIPP layihəsi Orta Dəhlizə yeni nəfəs gətirəcək




Səhifə ⇨ 8

# Haqqın qaçılmaz divanı

*Erməni hərbi canilərinin Bakı "Nürnberq"i*

**Postmünaqişə dövründə dövlətlərin qarşısında duran əsas çağırışlardan biri silahlı qarşıdurmadan sonra ədalətin hansı mexanizmlərlə bərpa olunması məsələsidir. Azərbaycan nümunəsində bu sualın cavabı aydındır: güc yolu ilə deyil, hüquq vasitəsilə. Bakı Hərbi Məhkəməsində Ermənistan vətəndaşı olan, o cümlədən Qarabağda fəaliyyət göstərmiş keçmiş qondarma rejimin nümayəndələrinə qarşı aparılan məhkəmə prosesi göstərdi ki, Azərbaycan dövləti hərbi qələbəni hüquqi zəfərlə tamamlayan nadir presedentlərdən birini formalaşdırıb.**



Məhkəmə prosesləri bütövlükdə hüquqi prosedurların, sübut bazasının, cinayət tərkibinin və fərdi məsuliyyət prinsipinin üzərində quruldu. Cinayətkarın etnik mənsubiyyəti deyil, törətdiyi əməllər hüquqi qiymətləndirmənin mərkəzində dayandı. Bakı Hərbi Məhkəməsində aparılan məhkəmə prosesi zamanı üzə çıxan əsas məqamlardan biri dinc yaşayış məntəqələrinin raket zərbələrinə məqsədli şəkildə məruz qalmasının birbaşa etiraf olunması oldu. Bu etiraf hüquqi baxımdan müharibə cinayətlərinin ən vacib elementi hesab edilən cinayət niyyətinin – yəni əməlin şüurlu və planlı şəkildə törədilməsinin – açıq təsdiqidir. Beynəlxalq humanitar hüquqda məhz niyyət amili mülki əhaliyə qarşı yönəlmiş zorakılığın təsadüfi və ya "hərbi zərurət" adı altında izah olunmasının qarşısını alan əsas meyardır.

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan, ABŞ və Cənubi Qafqaz: Vensin səfərinin gözləntiləri

*Yaxud Bakı-Vaşinqton təmasları, regional sülh gündəmi və qarşılıqlı fayda*



**ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vensin Cənubi Qafqaz ölkələrinə - Azərbaycana və Ermənistana fevralın 9-11-i aralığında planlaşdırılan səfəri regionun siyasi həyatında son dərəcə böyük hadisədir. Fikrimizi əsaslandıran bir neçə məqam var. Şərti olaraq iki hissəyə ayırdığımız bu yazıda həmin məqamlardan söz açacaq, eyni zamanda, Birləşmiş Ştatların ali təmsilçisinin Azərbaycana gəlişi ilə bağlı bəzi nüansları diqqətə çatdıracağıq.**

Əlbəttə, cənab Vensin regiona səfərinə, ilk növbədə, ABŞ-ın öz maraqları prizmasından yanaşmaq lazımdır. Ölkənin vitse-prezidenti xarakter olaraq bu maraqların son dərəcə fəal təbliğatçısı, kifayət qədər rasional və praqmatik kursun tərəfdarıdır. Şübhəsiz, belə bir fiqurun Azərbaycana və Ermənistana gəlişi Vaşinqtonun regional sülh təşəbbüslərini dəstəkləməsi baxımından ciddi məsələdir. Deməli, Birləşmiş Ştatlar siyasətdə ardıcıllıq prinsipini nümayiş etdirir.

*(ardı 5-ci səhifədə)*

# Prezident İlham Əliyev ABŞ Ticarət Palatasının heyətini qəbul edib



**(əvvəli 1-ci səhifədə)**

Qonaqlar, ilk növbədə, qəbula görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər. Ölkəmizə səfər etməkdən məmnunluqlarını ifadə edən bir çox nüfuzlu şirkətin təmsilçiləri Azərbaycanla əməkdaşlığı genişləndirmək niyyətində olduqlarını dedilər. Onlar təmsil etdikləri şirkətlərin fəaliyyəti, həmçinin ölkəmizlə həyata keçirdikləri əməkdaşlıq barədə məlumat verdilər.

***

**Kuş Çoksi:** Zati-aliləri, çox sağ olun. Biz Sizi biznes icmasını təmsil edən daha da böyük nümayəndə heyəti ilə görüşmək üçün Vaşinqtona dəvət etmək istəyirik. Azərbaycana çox böyük maraq var. Hesab edirəm ki, hər şey iki il bundan əvvəl COP-dan başladı və COP çox uğurlu bir tədbir oldu və Sizin xatırlatdığınız kimi bu COP-da dünyanın ehtiyacı olan neftin və ənənəvi enerjinin və yeni enerji mənbələrinin önəmi qeyd olundu. Bu gün burada bütün sektorlardan - əsas sektorlardan, yaranmaqda olan sektorlarda fəaliyyət göstərən şirkətlərin nümayəndələri yığışıb. O vaxtdan bəri biz Azərbaycana çox böyük marağın olduğunun şahidiyik. Sizin nazirlər həmişə gələ bilərlər. Qarşılıqlı əlaqə üçün nə qədər çox imkan olsa, Azərbaycanda Amerika şirkətləri üçün mövcud olan fürsətlərin onlar tərəfindən qavranılması bir o qədər də çox olacaq. Gələn dəfə Siz Nyu-Yorkda olanda, - Sizin necə məşğul olduğunuzu bilirəm, lakin biz əvvəlcədən planlaşdıracağıq, - səfəriniz çərçivəsində bizim üçün dəyirmi masanın təşkilində yardımçı olmağı xahiş edəcəyik. Bəlkə Nyu-Yorka bir gün əvvəl gələ bilərsiniz, - hətta bu, bazar günü də ola bilər, - Sizin fikirlərinizi, şirkətlərlə bağlı fikirlərinizi öyrənmək istəyirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Bu dəvətə görə çox sağ olun. Bir daha bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirəm. Mən bizi ziyarət edən şirkətlərin siyahısına nəzər saldım və sizin qeydlərinizi nəzərə alaraq deyə bilərəm ki, bu şirkətlərin bir çoxu ilə bizim uzun illər ərzində səmərəli əməkdaşlığımız mövcuddur. Şirkətlərin bəziləri yenidir və bu da tamamilə təbiidir. Çünki birincisi, müstəqilliyinin erkən illərindən Azərbaycan beynəlxalq tərəfdaşlığa çox açıq idi və bir çox beynəlxalq şirkətlərlə, o cümlədən ABŞ şirkətləri ilə yaxşı təmaslar qurmuşdur. Ona görə də bu şirkətlərin adlarının mənə çox tanış gəlməsi olduqca təbiidir.

Digər tərəfdən, keçən ilin avqust ayında Vaşinqtonda mənim Prezident Trampla görüşümdən qaynaqlanan ABŞ-Azərbaycan münasibətlərinin fəal inkişaf etdiyi bu mərhələdə əməkdaşlıq etdiyimiz sahələrin diapazonunu genişləndirəcəyimiz də təbiidir. Keçən ilin avqust ayında biz Prezident Trampla Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə sənədi imzaladıq və burada xüsusi bəndlər var. O vaxtdan bəri mən ticarət, iqtisadiyyat, investisiyalar, enerji, süni intellekt, müdafiə sənayesində əməkdaşlıq və digər sahələri müzakirə etmək üçün Vaşinqtona hökuməti təmsil edən dörd nümayəndə heyətini göndərdim. Hökumət rəsmiləri arasında çoxsaylı təmaslar olmuşdur və mənim Prezident Trampla sonuncu görüşüm keçən ay Davosda oldu, baxmayaraq ki, onun qrafiki çox sıx idi və o, çox qısa müddətlik orada idi. Onun Azərbaycan Prezidenti ilə görüşməsi bir daha bizə və bütün regiona bu münasibətlərin bizim üçün necə də önəmli və onların necə də mehriban olduğunu nümayiş etdirir.

Beləliklə, enerji, ticarət, investisiyalardan ibarət olan ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, biz indi rəqəmsal transformasiya, süni intellektə aid çox vacib sahələr üzərində çalışırıq və ümid edirik ki, Amerika şirkətləri bizim əsas tərəfdaşlarımız olacaq. Artıq yaxşı təmaslarımız var və yeri gəlmişkən, siz bizim hökuməti təmsil edən nümayəndə heyətlərinin birinin səfəri zamanı bu barədə qeydlərinizi bildirdiniz. Rabitə, süni intellekt, data mərkəzlərinin yaradılması sahəsində fəaliyyət göstərən şirkətlərlə geniş bir görüş oldu. İndi bu, bizim üçün prioritet məsələlərdən biridir. Hesab edirəm ki, bizim çoxlu üstünlüklərimiz var.

Birincisi, coğrafi yerləşmə. İkincisi, çox asan olmayan dövrdə yaradılmış neft və qaz boru kəmərləri, dəmir yolları, elektrik kabel xətləri kimi mövcud kommunikasiya infrastrukturu. Sonra ən önəmli məsələlərdən biri bizim istifadə etmədiyimiz, istehlak etmədiyimiz və hələ ki, ixrac etmədiyimiz çoxlu elektrik enerjimiz var. Hələ ki, söhbət mövcud olan təqribən 2 giqavat elektrik enerjisinin istehsalından gedir. Azərbaycanın yerləşdiyi daha geniş regionda biz hər hansı növ enerji mənbələrinin idxalından asılılığı olmayan yeganə ölkəyik. Biz özümüzü neft, qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ilə təmin edirik və indicə qeyd etdiklərimin hamısını ixrac edirik. Beləliklə, bir çox ölkələr üçün çox faydalı olacaq artan ixracla yanaşı, bizim hədəfimiz məhz budur. Bu gün, yeri gəlmişkən, biz təbii qazı boru kəmərləri ilə 16 ölkəyə ixrac edirik və qazın boru kəməri ilə təchizatı nöqteyi-nəzərindən dünyada birinci yerdəyik. Lakin bununla yanaşı, biz süni intellekt və rəqəmsal transformasiya sahəsində tərəfdaşlarımızın olması üçün Amerika və digər ölkələrdən olan aparıcı şirkətləri cəlb etmək məqsədilə buradakı enerji potensialımızdan istifadə etmək istəyirik. Qazıntı yanacağına gəldikdə, - hansı ki, müəyyən siyasi gündəmə görə uzun illər ərzində ayrı-seçkiliyə məruz qalmışdır, - biz şadıq ki, hər bir digər sahədə olduğu kimi, Prezident Trampın siyasəti realist ssenariyə söykənir, populizmdən çox uzaqdır və real vəziyyətə əsaslanır. Dünya qazıntı yanacağı olmadan yaşaya bilməz və qazıntı yanacağı ehtiyatları zəngin olan ölkələr buna görə günahlandırılmamalıdır. Siz COP-u qeyd etdiniz, COP-a ev sahibliyi edən ölkənin rəhbəri olaraq mənim mesajlarımdan biri o idi ki, biz neft-qaza malik olduğumuza görə günahlandırılmamalıyıq.

Mən, həmçinin dedim ki, bir çox ölkələr COP keçirib və həmin ölkələr Azərbaycandan 10 dəfə çox neft və qaz istehsal edir, lakin onlar media hücumlarına məruz qalmayıblar. Mənim mesajım ondan ibarət idi ki, ölkələr karbohidrogen ixracından gələn gəlirləri necə istifadə etdiklərinə görə dəyərləndirilməlidirlər. Hər kəs görə bilər ki, Azərbaycanda sərvətin bölüşdürülməsi çox ədalətli şəkildə həyata keçirilir. İkincisi, onların iqlim məsələsinə töhfəsi nədən ibarətdir? Bizim isə azı 100 il müddətinə təkcə daxili istehlak üçün deyil, həm də ixrac üçün təbii qaz ehtiyatları ilə təmin olunduğumuz halda bərpaolunan enerjiyə investisiya yatırılması və investisiya cəlb olunması həqiqətən də məsuliyyətimizi nümayiş etdirir.

Söylədiyim kimi, 2 giqavat enerji artıq mövcuddur və imzalanmış müqavilələrə əsasən - anlaşma memorandumlarına deyil, müqavilələrə əsasən, 2032-ci ilə qədər biz əlavə 7-8 giqavat Günəş və külək enerjisinə sahib olacağıq. Qeyd etdiyim kimi, bütün bunlar artan iqtisadiyyat, inkişaf edən sənaye, xüsusilə bizim qlobal süni intellekt qovşaqlarından və məlumat mərkəzlərindən biri olmaq hədəfimiz şəraitində daxili istehlak üçün əlçatan olacaq. Üstəlik, bu, etibarlı elektrik və qaz təchizatı mənbələri çatışmazlığından və ya olmamasından əziyyət çəkən daha çox ölkələrə kömək edəcək. Üzərində işlədiyimiz layihələrdən biri də Azərbaycandan Avropaya Qara dəniz vasitəsilə kabel xəttinin, həmçinin Prezident Trampın irəli sürdüyü və onun adını daşıyan, Azərbaycanla Ermənistan arasında sülhə nail olunduqdan sonra reallaşması mümkün olan TRIPP layihəsi - Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu vasitəsilə ötürücü xətlərin, mövcud olanlardan əlavə, yeni ötürücü xətlərin çəkilməsidir.

Biz bağlantıları da diqqət mərkəzində saxladığımız mühüm sahələrdən biri hesab edirik. Nəqliyyat və logistika infrastrukturumuzu lazımi səviyyəyə çatdırmaq üçün indiyədək çox işlər görülüb. Hazırda bizim dəniz limanımızın yükaşırma qabiliyyəti 15 milyon tondur və onun genişləndirilməsi yükaşırma qabiliyyətini 25 milyon tona gətirib çatdıracaq. Dəmir yollarımız müasirləşdirilir. Ermənistan ərazisindən keçəcək və sonra Orta Dəhlizin daha bir davamına çevriləcək yeni dəmir yolu tikilir. Doqquz beynəlxalq hava limanı, regionda ən böyüklərdən biri, bəlkə də ən böyük olan yükdaşıma hava yolu şirkəti - bütün bunlar artıq bir üstünlükdür.

Xüsusilə Azərbaycanla Mərkəzi Asiya, Azərbaycanla Avropa arasında bağlantılara artan marağı da nəzərə alsaq, kəmərlərin inşasında təcrübəmizi diqqətə alsaq, biz bəlkə də ölkələri bir araya gətirən ölkələrdən biriyik və ya yeganə ölkəyik. Kəmər inşa etmək çətindir, məsrəflidir və bizim coğrafiyamızda dağlardan keçib, sonra lazım gələndə dənizin dibi ilə çəkmək həqiqətən də böyük çətinlikdir. Üstəlik, xüsusilə bir neçə ölkədən keçən, Xəzər dənizindən başlayıb İtaliyada bitən, uzunluğu 3500 kilometr olan kəmər inşa edilirsə, hər kəslə əlaqələriniz, yaxşı əlaqələriniz olmalıdır. Bu geniş regionda belə təcrübəyə ancaq biz malikik. İş onda deyil ki, mən Azərbaycan haqqında yaxşı sözlər deyirəm, bu reallıqdır.

Bir çox ölkələri birləşdirən layihələrdə diplomatiya, bacarıq, təcrübə və artıq nəticələr olmalıdır. Bizim vəziyyətimizdə biz bunların hamısına malikik. Mən əminəm ki, sizin missiyanızın nəticəsi tezliklə praktiki layihələrdə həyata keçəcək. Sözsüz ki, görüşəcəyiniz hökumət üzvləri bizim planlarımızın nədən ibarət olduğu, nələrin işlənmə mərhələsində olduğu barədə sizə daha ətraflı məlumat verəcəklər. Düşünürəm ki, bu cür missiyalar mütəmadi olaraq baş tutmalıdır. Yenidən Amerikaya səfər edəndə sizinlə görüşməyə hazıram. Həmçinin yenilənmiş məlumatları almaq və daha hansı işləri görə biləcəyimizə nəzər salmaq üçün sizdən buraya azı ildə bir dəfə gəlməyinizi xahiş edirəm.

***

bp şirkətinin Amerika üzrə kommunikasiya və xarici əlaqələr üzrə baş vitse-prezidenti Meri Strit ölkəmizlə bp arasında uzun illərdir davam edən uğurlu tərəfdaşlığı qeyd etdi. O, Azərbaycanda müşahidə etdikləri müsbət investisiya mühitinə toxundu, yerli kadrların hazırlanması məsələsini diqqətə çatdırdı. "Söhbət təkcə müsbət investisiya mühitindən deyil, həm də işçi qüvvəsindən gedir. Buna görə təşəkkür edirəm", - deyən qonaq ölkəmizlə güclü tərəfdaşlığı davam etdirmək niyyətində olduqlarını bildirdi.

***

**Prezident İlham Əliyev** də öz növbəsində Azərbaycanla bp arasında əməkdaşlığı vurğulayaraq dedi: "Təşəkkür edirəm. Sizin də qeyd etdiyiniz kimi, biz də 30 ildən artıq davam edən tərəfdaşlığı yüksək qiymətləndiririk. Bu, ölkənin transformasiyasında mühüm rol oynadı. Çünki bp və Azərbaycan 1994-cü ildə birgə fəaliyyətə başlayanda Azərbaycan ciddi problemləri olan ölkə idi. Həmin dövrdə bizim Ermənistanın təcavüzü nəticəsində etnik təmizləməyə məruz qalaraq didərgin salınmış bir milyon evsiz insanımız var idi. Büdcəmizdə vəsait sıfır idi. Elektrik enerjisi kəsintilərimiz var idi, elektrik enerjisi çatışmırdı, hətta neft hasilatı sürətlə azalırdı və uğur qazanmaq perspektivi çox aşağı idi. Beynəlxalq neft şirkətlərindən, əsasən bp və başqalarından investisiyalar cəlb olunması bizim həyatda qalmağımız və dövlət qurmağımız üçün yeganə yol idi. Beləliklə, bp və digər şirkətlərin bizə etimadı mühüm rol oynadı, biz bunu heç vaxt unutmayacağıq. Həmin vaxtdan bəri 30 ildən çox müddətdə heç bir narazılıq və ya heç bir hüquqi məsələ olmayıb. Beləliklə, bu, ev sahibi ölkə ilə aparıcı enerji şirkəti arasında əməkdaşlığın yaxşı nümunəsidir.

İndi əməkdaşlıq bərpaolunan enerjiyə transformasiya olunur. 2020-ci ilədək işğal altında olan Cəbrayıl şəhərində bp 240 meqavatlıq Günəş enerji stansiyasının yaradılmasında iştirak edir. Səngəçalda ən böyük neft-qaz terminalının karbonsuzlaşdırılması da bp tərəfindən yaşıl gündəliyə böyük töhfədir. Çoxlu başqa planlar da var, mövcud və yeni layihələr var, buraya qaz hasilatının artırılması da daxildir. Ümidvarıq ki, bu il dərinsulu "Azəri-Çıraq-Günəşli" layihəsində bunun şahidi olacağıq. Həmçinin neft hasilatının sabitləşdirilməsi bizim üçün əhəmiyyət kəsb edir. Biz çox səmərəli şəkildə işlədiyimiz və işləməyə davam etdiyimiz bütün enerji şirkətləri ilə yaxşı əlaqələr qurmuşuq. Düşünürəm ki, məhz buna görə neft hasilatının obyektiv səbəblərdən aşağı düşməsinə baxmayaraq, Azərbaycana investisiya yatırmağa maraq hələ də çox yüksəkdir.

Mən "Exxon"un nümayəndələrini görürəm. O da Azərbaycanda investisiya layihələrinə qoşulan ilk şirkətlərdən biridir, hazırda yeni layihələr üzərində işləyir. Ümidvaram ki, yaxşı nəticələr əldə olunacaq. Ötən ilin avqustunda Vaşinqtona səfərim zamanı çox ümidverici və çox cəlbedici layihə ilə bağlı Anlaşma Memorandumunu imzaladıq. Əgər uğurlu olarsa, ümidvarıq ki, bu, bizə neft sənayemizi inkişaf etdirmək üçün əlavə imkanlar yaradacaq, eyni zamanda, həmişə olduğu kimi, neft satışından əldə etdiyimiz vəsaiti qeyri-neft iqtisadiyyatına investisiya yatırmaq üçün bizə əlavə imkan verəcək.

Yeri gəlmişkən, iqtisadiyyatı şaxələndirmək bizim qarşımıza qoyduğumuz hədəflərdən biridir. Biz yaxşı nəticələr görürük. Mən indicə bu ilin yanvarının statistikasına baxdım, bizim qeyri-neft və qaz sənayemiz demək olar ki, 8 faiz artıb. Bu, həmin şaxələndirmə sayəsində mümkün olub. Beləliklə, ənənəvi enerji mənbələri ilə bağlı müqavilələr və əməkdaşlıq bizə vəsait toplamaq və yenidən investisiya yatırmaq imkanı verir".

***

"Visa" şirkətinin baş vitse-prezidenti, MDB və Cənubi və Şərqi Avropa regionu üzrə meneceri **Kristina Doros** artıq 30 ildir ki, yerli banklarla səmərəli əməkdaşlıq həyata keçirdiklərini bildirdi. O vurğuladı ki, təmsil etdiyi şirkət Azərbaycanda qabaqcıl, təhlükəsiz və inklüziv ödəniş sisteminin inkişafı ilə bağlı layihələr həyata keçirir. Kristina Doros "Azərbaycan 2030" Strategiyası çərçivəsində milli prioritetlər üzərində işlə bağlı Azərbaycan hökuməti ilə əməkdaşlıq və tərəfdaşlığa görə minnətdarlığını ifadə etdi.

***

"Visa" şirkətinə əməkdaşlığa görə təşəkkür edən və əlaqələrin perspektivinə toxunan **Prezident İlham Əliyev** dedi: "Mən "Visa" ilə çox məhsuldar əməkdaşlıq barədə hökumət qurumlarımızdan məlumat almışam və biz bundan məmnunuq. Əlbəttə ki, siz burada müxtəlif tərəfdaşlarla – İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və bir çox digər təşkilatlarla işləyirsiniz. Gündəliyimiz, planlarımız və burada görülən işlər barədə məlumatınız var. Biz birmənalı olaraq, müasirləşməni davam etdirmək, insanların gündəlik həyatını daha rahat etmək üçün gələn illərdə "Visa" ilə sıx işləyəcəyik. Çox sağ olun".

Yekunda çıxış edən **Prezident İlham Əliyev** Azərbaycanda yaradılmış əlverişli investisiya mühitindən bəhs etdi, ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı roldan danışaraq dedi: "Bizimlə olduğunuza görə bir daha təşəkkür edirəm. Mən şirkətlərin siyahısına baxdım və dediyim kimi, bizimlə uzun illər çalışan şirkətləri gördüm. Onlar, həmçinin bunu öz çıxışlarında qeyd etdilər. Məsələn, "Apple", "Baker Hughes", "Boeing", bp, "Coca-Cola", "Ericsson", "Exxon", "J.P. Morgan", "Honeywell", "Marriott", "Mastercard", "Visa" və mənim üçün bəzi digər yeni adlar da var. Beləliklə, düşünürəm ki, mövcud əməkdaşlığı artırmaq üçün yaxşı tərkib var. Ölkəmizə ilk dəfə səfər edən şirkətlər üçün isə Azərbaycanda işgüzar fəaliyyət aparmaq üçün bu görüş yaxşı istinaddır. Ümumiyyətlə, ölkəmizdə çox müsbət biznes mühiti mövcuddur. Biz nəhəng sərmayələri cəlb etmişik. Əgər ölkənin ölçüsünə və əhalinin sayına baxsanız, son iki onillik ərzində 350 milyardlıq sərmayə həqiqətən çox böyük rəqəmdir. Hamımızın bildiyi kimi, sərmayələr istənilən ölkənin inkişafında əsas aparıcı qüvvədir. Biz və qanunvericiliyimiz hər zaman xarici sərmayələrə açıq olub. O cümlədən 30 il əvvəl imzalanmış pay bölgüsü sazişlərinə gəldikdə, heç bir söz belə dəyişməyib.

Bilirəm ki, belə hal dünyanın hər yerində olmur. Bəzən siz danışıqlar aparmaq, müəyyən güzəştlərə getmək və sonra isə şərtlərə yenidən baxmaq istəyirsiniz. Burada heç zaman elə hal olmayıb, çünki biz tam əminik ki, xüsusi olaraq, dediyim kimi, 1990-cı illərin əvvəlində yoxsul vəziyyətdə olmuş ölkəyə etimad qurulmalı idi. Siz etimadı illər boyu qurmalısınız və yalnız bir səhv addım həmin etimadı poza bilər. Bir sözlə, biz həmin səhv addımı atmamışıq. Əksinə, bu gün, bizimlə işləyən şirkətlərin sayı artır. Beynəlxalq əlaqələrimizin coğrafiyası da genişlənir. Bir çox ölkələrlə imzalanmış strateji tərəfdaşlıq sənədləri, sazişlər və bəyannamələr var. Ölkələrdən bəziləri bir-biri ilə yaxşı münasibətdə deyil. Lakin mən hər zaman demişəm ki, Azərbaycan heç vaxt toqquşma yeri olmayacaq, əməkdaşlıq məkanı olacaq.

Hər kəs üçün kifayət qədər imkan olacaq və əlbəttə, ölkənin inkişaf gündəliyi göstərir ki, biz düz yoldayıq. Bu gün dediyim kimi, Birləşmiş Ştatlarla münasibətlər yeni, tamamilə əla dövrə qədəm qoyur. Biz çox həvəsliyik və şirkətlərimiz arasında birbaşa əlaqələri qurmaq üçün həmin böyük fürsətdən istifadə etmək istəyirik.

Azərbaycan bir çox ölkənin enerji təhlükəsizliyində mühüm rol oynayır. Onlardan 10-u Avropa İttifaqının üzvü, 11-i isə eyni zamanda NATO-nun üzvüdür. Həmin ölkələr üçün hazırda Azərbaycan heç zaman görünmədiyi qədər daha mühüm tərəfdaşa çevrilir. Biz bütün öhdəliklərimizi yerinə yetiririk və siyasi gündəliyi heç zaman biznes ilə qarışdırmırıq və bu, bizim üçün qlobal enerji bazarında beynəlxalq fəaliyyətimizi genişləndirmək üçün yaxşı fürsətdir. Artıq müzakirə etdiyimiz daşımalar layihələri region üçün böyük imkanlar yaradır. Çünki biz 30 il ərzində Ermənistanın təcavüzünə və işğalına məruz qalma faktına baxmayaraq, Azərbaycan məhz ərazilərinin azad olunması, güc və siyasət vasitəsilə ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdikdən sonra birinci addım atdı və 2025-ci il avqustun 8-də Prezident Trampın köməyi ilə sülh quruldu.

Hazırda biz Ermənistana bütün tranzit yüklərə məhdudiyyətləri aradan qaldırmışıq. Çünki Ermənistanın etibarlı daşımalar, əlaqə marşrutları yoxdur və beləliklə, Azərbaycan tranziti onlar üçün çox əhəmiyyətlidir. Biz əməkdaşlığın ilk elementlərini qurmaq üçün Ermənistana neft məhsullarını təchiz etməyə başladıq.

İqtisadi vəziyyətimizə gəldikdə, o sabitdir. Xarici borc həcmi çox aşağıdır, ÜDM-in 6,1 faizini təşkil edir. Bu, ola bilsin, dünyada ən aşağı göstəricilərdən biridir. Biz, həmçinin maliyyə ehtiyatlarını yığırıq və hər il onları artırırıq ki, iqtisadiyyat sabit qalsın. S&P kimi aparıcı reytinq təşkilatları kredit reytinqimizi sərmayə və müsbət səviyyəsinə qaldırıb. Bu isə islahatların təzahürüdür. Biz demoqrafik baxımdan müsbət dinamikanı müşahidə edirik. Əhali artır, ola bilsin 10 il əvvəl olduğu kimi deyil. Lakin biz eyni mənzərəni regionun digər ölkələrində də görürük. Bununla belə, demoqrafik vəziyyət müsbətdir. Yoxsulluq səviyyəsi təxminən 5 faizdir. Düşünürəm ki, bu da yaxşı nəticədir. Görünür ki, iqtisadi inkişaf və sosial müdafiə Azərbaycanda yan-yana gedir və bütün bunlar siyasi sabitliyi, proqnozlaşdırmanı, iqtisadi sabitliyi və imkanları əsaslandırır. Bir sözlə, bu gün biz əsas diqqəti qlobal tendensiyalarla ayaqlaşmaq, xüsusən də rəqəmsal transformasiyada olmaq, süni zəka, məlumat mərkəzləri sahələrində irəliyə doğru addım atmağa yönəldirik.

Bir çox işlər artıq görülüb. Bəlkə də bu görünmür və ya hələ ki, görünməli deyil, lakin çox hazırlıq işləri görülüb və ən böyük gözlədiyimiz nəticə Amerika şirkətləri ilə strateji tərəfdaş kimi işləməkdir, çünki onlar bu sahədə liderdir. Yeri gəlmişkən, Prezident Trampla imzaladığımız sənəddə və imzalanmasını planlaşdırdığımız Strateji Tərəfdaşlıq Xartiyasında süni intellekt və ona aid bütün məsələlər barədə xüsusi müddəa var. Əlbəttə, biz görülmüş və planlaşdırdığımız işlər barədə çox danışa bilərik. Lakin düşünürəm ki, siz və xüsusən də ilk dəfə səfər edənlər hər şeyi öz gözünüzlə görsəniz daha yaxşı olar.

Əlbəttə, hökumət rəsmiləri ilə, işgüzar dairələrlə görüşmək, ölkəni hiss etmək imkanınız olacaq. Nəhayət mehmanxana işi ilə bağlı son söz söyləyim. Çox şadıq ki, "Marriott" Azərbaycanda nəinki paytaxtda, o cümlədən regionlarda öz fəaliyyətini genişləndirəcək. Ümid edirəm ki, regionlarda fəaliyyətiniz artacaq. Birləşmiş Ştatların digər mehmanxana şəbəkəsi və digər tərəflər də ölkədə var. Potensial hələ də böyükdür, çünki Azərbaycana səfər edən xarici vətəndaşların sayı ildən-ilə artır. Yalnız bir dövr var idi. COVID və ondan sonrakı dövrdə tənəzzül yaşandı. İndi isə həmin sahə bərpa olunub. Mehmanxanalarda tutum, həmçinin müvafiq səviyyədədir. Azərbaycanın dövri əsaslarla ev sahibliyi etdiyi böyük beynəlxalq tədbirlər, həmçinin əlavə turistlər cəlb edir. Bir sözlə, tövsiyəm odur ki, Bakıda və rayonlarda imkanları araşdırmaq lazımdır. Siz xizək mərkəzini qeyd etdiniz. Oranı inkişaf etdirmək üçün böyük planlar var. Bu gün o, idman üçün artıq geniş və çox rahat məkana çevrilib. Yeri gəlmişkən, biz martda orada ilk beynəlxalq tədbiri təşkil edəcəyik. Beləliklə, mehmanxana biznesinin Azərbaycanda böyük potensialı var. Ümid edirəm, Amerikanın mehmanxana sənayesinin bir çox digər şəbəkələri, filialları Azərbaycana gələcək və görəcək ki, bu, biznes və sərmayə üçün yaxşı məkandır".

***AZƏRTAC***

# Prezident İlham Əliyevin ABŞ-ın Əsas Yəhudi Təşkilatlarının heyəti ilə görüşü





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Betsi Berns Kornun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Söhbət zamanı Prezident İlham Əliyevlə ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının nümayəndələrinin əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Betsi Berns Korn Azərbaycanın strateji əhəmiyyətini, həmçinin ABŞ və İsraillə yaxşı əlaqələrini nəzərə alaraq əməkdaşlığın genişləndirilməsi baxımından məsələlərin müzakirəsi üçün böyük nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlməkdən məmnunluğunu ifadə etdi.

Betsi Berns Korn ötən ilin avqustunda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. O, bu məsələdə Azərbaycan Prezidentinin nümayiş etdirdiyi liderliyi və ABŞ Prezidentinin göstərdiyi səyləri xüsusi vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, nailiyyətlərin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın roluna toxundu. Azərbaycan və Ermənistan tərəfinin artıq sülh şəraitində yaşamağa öyrəşdiklərini deyən Prezident İlham Əliyev bölgədə sülh və sabitliyin təmin edilməsinin regionun inkişafına mühüm töhfə verəcəyini vurğulayaraq, TRIPP və digər bağlantı layihələrinin regional əməkdaşlığın genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Donald Trampın hakimiyyətə gəlməsindən sonra Azərbaycan-ABŞ əlaqələrinin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı son 6 ayda ABŞ Prezidenti ilə bir neçə dəfə görüşməsini ikitərəfli münasibətlərimizin tarixində ilk nümunə olduğunu dedi.

Görüşdə Azərbaycanda tarixən tolerant mühitin hökm sürdüyü qeyd edildi, digər xalqların nümayəndələrinə olduğu kimi yəhudilərə də göstərilən dövlət qayğısına toxunuldu.

Söhbət zamanı Azərbaycan-ABŞ əlaqələrinin inkişafından məmnunluq bildirildi, Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransı ilə ölkəmiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, onların Azərbaycan-ABŞ və Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin genişlənməsində rolu vurğulandı.

## “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il dekabrın 4-də Riqa şəhərində imzalanmış “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Latviya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 fevral 2026-cı il**

## Azərbaycanın ABŞ və İsraillə münasibətlərinin mövcud vəziyyətinin müzakirəsi

**Fevralın 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Amerikanın Əsas Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının ölkəmizdə səfərdə olan nümayəndə heyətini qəbul edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı Azərbaycan-ABŞ, eləcə də Azərbaycan-İsrail münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri, ABŞ-da fəaliyyət göstərən yəhudi təşkilatları ilə əməkdaşlıq məsələləri, eləcə də regional vəziyyət müzakirə olunub.

Görüşdə xüsusilə 8 avqust Vaşinqton Zirvə Görüşü nəticəsində bölgəmizdə son inkişaf, Azərbaycan-Ermənistan normallaşma prosesi, regional bağlantılar və TRIPP marşrutunun reallaşması səyləri, postmünaqişə dövründə həyata keçirilən tədbirlər barədə geniş məlumat verilib.



Azərbaycanda mövcud olan dinlərarası harmoniya, tolerantlıq və multikulturalizm ənənələri, əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda İslam dini ilə yanaşı, xristian, yəhudi və digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq şəraitində yaşadıqları məmnunluqla vurğulanıb. Ölkəmizdə uzun əsrlər boyu sülh və əmin-amanlıq içərisində yaşayan yəhudi icmasının mövcudluğunun Azərbaycan və İsrail arasındakı güclü tərəfdaşlıq əlaqələrinin inkişafına əlavə güc verdiyi bildirilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Sizi nüfuzlu “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu təşəbbüs konstruktiv siyasətin və dözümlülüyün təşviqi yolu ilə davamlı sülhə və sabitliyə nail olmaq üçün ardıcıl səylərinizin, güclü iradənizin tanınmasının daha bir təsdiqidir.

Biz Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında Sülh Sazişinin imzalanmasını iki dövlət arasında dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsi, həmçinin Qafqaz regionunda və onun hüdudlarından kənarda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi prosesində mühüm amil hesab edirik.

Tacikistan sülhsevər ölkə olaraq bu önəmli, konstruktiv və tarixi nailiyyəti bir daha alqışlayır və bütün mübahisələrin, münaqişələrin yalnız siyasi-diplomatik üsullarla həllinə sadiqliyini vurğulayır.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və uğurlar, dost Azərbaycan xalqına isə yeni nailiyyətlər, davamlı sülh və bundan sonra da tərəqqi arzulayıram.

Ən xoş arzularla,

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

## “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

*Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1109 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365; 2025, № 2, maddə 106) 1-ci maddəsində “2026-cı” sözləri “2027-ci” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 fevral 2026-cı il**

## T.Y.Budaqovun Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Tahir Yaqub oğlu Budaqov Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 fevral 2026-cı il**

## T.Y.Budaqovun Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tahir Yaqub oğlu Budaqov Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 fevral 2026-cı il**

## C.H.Musayevin Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Cabbar Hafiz oğlu Musayev Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 fevral 2026-cı il**

## Əmək pensiyalarının indeksləşdirilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci, 29.1-ci və 29.1-1-ci maddələrinə uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, 2026-cı il yanvarın 1-nə 2025-ci il üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müəyyən etdiyi:

1.1. orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2026-cı il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsinin, qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçılarına münasibətdə – həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləğinin və 2023-cü il yanvarın 1-dən əmək pensiyalarının tərkibinə daxil edilən maddi yardımların;

1.2. istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində 2026-cı il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Sərəncam 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 fevral 2026-cı il**

# Zəfər seçkisi dünənə qiymətin, sabaha zəmanətin təntənəsi idi

## *Xalq 2024-cü ilin fevralında milli tariximizin parlaq səhifəsini yaratmışdı*

**“Bizim sözümüz də imzamız qədər dəyərlidir” - deyən, “nəyi nə zaman, necə etməyi hamıdan yaxşı bilən”, “biz kiməsə nümunə göstərilmək üçün deyil, xalqımızın maraqlarının təmin edilməsi və milli dövlətçiliyimizin mənafeləri naminə fəaliyyət göstəririk” sözlərini dəfələrlə təkrar edən Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildən bəri bir neçə siyasi nümunə formalaşdırmışdır. Həmin nümunələrdən biri, bəlkə də birincisi verdiyi vədlərin hamısının ləyaqətlə yerinə yetirilməsidir.**



**Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan – Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun, biz öz doğma torpaqlarımızı azad edəcəyik.**

*Prezident İlham Əliyevin sonuncu andiçmə mərasimindəki nitqindən*

**14 fevral 2024-cü il**

O, ölkə daxilində də bu işin öhdəsindən məharətlə gəlir, beynəlxalq aləmdə də. O, Qarabağ və Şərqi Zəngəzurdan olan məcburi köçkünlərlə görüşlərdə də öz ənənəsinə sadiqdir, BMT Baş Assambleyasının sessiyyaları başda olmaqla bütün beynəlxalq tribunalardakı çıxışlarında da. Təsadüfi deyil ki, bu gün dünyanın ən qüdrətli dövlət başçıları onu sözünə sədaqətli, əməkdaşlıqda səmimi, strateji tərəfdaşlıqda etibarlı lider kimi qəbul edirlər. Biz bu fikirləri Qərbin ən böyük güc mərkəzi olan Vaşinqtondan da eşitmişik, Şərqin ən öncül dövlətinin paytaxtı Pekindən də.

Bütün bunları nəzərə alan Azərbaycan xalqı və ölkəmizin vətəndaşı olan digər xalqların seçiciləri istənilən seçkidə məhz İlham Əliyevin qalib gəlməsini təmin etmək məqsədi ilə səsvermə məntəqələrinə gedirlər. 2003-cü ilin oktyabrında da belə idi, ondan sonrakı seçkilərin hamısında da. Doğrudur, seçicilər ilk illərdə ona səs verəndə bir hədəf olaraq ölkədə Heydər Əliyev siyasi kursunun davam etdirilməsini planlaşdırırdılar. Ancaq 2008-ci il seçkilərindən sonra ölkə əhalisinin ümdə hədəfi məhz “xalqın şəriksiz liderinin qələbəsini təmin etmək”dir.

O ki qaldı Azərbaycanda keçirilmiş 7 fevral 2024-cü il tarixli növbədənkənar prezident seçkilərinə, deyə bilərik ki, həmin seçkinin dövlət tərəfindən müəyyən olunmuş siyasi məqsədi səsvermənin işğaldan azad edilmiş bütün ərazilərimizdə keçirilməsi idi. Yəni dövlətimiz BMT tərəfindən tanınmış ərazilərimizin hər qarışında suverenliyimizin bərpasının təbliğini nəzərdə tuturdu. Təsadüfi deyil ki, ölkə ərazisində seçki və səsvermə haqqında danışanların hamısı 2024-cü ildəki həmin möhtəşəm siyasi aksiyanı “Zəfər seçkisi” adlandırır. Odur ki, xalq həmin seçkiyə, yuxarıda qeyd etdiyimiz kimi, 2003-cü ildən 2024-cü ilə qədər qazanılmış uğurlara qiymət vermək, qarşıdakı uğurlara isə zəmin yaratmaq məqsədi ilə getmişdi. Biz həmin gün seçki məntəqələrinə getdik, səs verdik və məqsədimizə nail olduq.

Ekspertlərin fikrincə, bu seçkinin təşkilinə 2016-cı ildə keçirilmiş Konstitusiya referendumu və 2018-ci ildə keçirilmiş prezident seçkiləri zəmin yaratmışdı. Xatırladaq ki, ölkəmizdə 2016-cı ildə keçirilmiş Konstitusiya referendumundan sonra qəbul olunan dəyişikliklərə əsasən Azərbaycan Prezidenti 7 il müddətinə seçilir. Onu da əlavə edək ki, 2024-cü il seçkiləri ölkəmizdə ümumilikdə doqquzuncu, növbədənkənar adlandırılan isə dördüncü prezident seçkisi idi. Həmin doqquzuncu və dördüncü ifadələri bizim üçün nə qədər önəmli olsa da, xüsusilə qeyd edəcəyimiz başqa bir məqam da var idi. Həmin seçkilər müstəqil Azərbaycanın bütün ərazilərində keçirilən ilk – rəqəmlə desək, 1-ci seçkilər idi.

Həmin seçkiləri əlli – altmış milyonluq soydaşlarımızın hamısı ona görə yüksək qiymətləndirir ki, biz o gün son iki yüz ildə başımıza gətirilən çoxsaylı bəlaların, yaşadığımız məşəqqətlərin əsas səbəbi olmuş işğal, terror, təxribat, separatçılıq kimi mənfur hallara birdəfəlik son qoyandan sona – qalib xalqın müzəffər liderinə səs vermişdik. Xalq həmin gün seçki məntəqəsinə gedərək iki əsr davam edən həmin mənfiliklərə birdəfəlik son qoyulmasına səs vermişdi.

Ən başlıcası, həmin seçkilərdən bir həftə sonra prezident kimi and içən dövlət başçısı demişdi ki, “İndi yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq!”

Bəs 2024-cü ilin fevralındakı seçkilərdən sonrakı dövrün “böyük nailiyyətləri” nədən ibarət oldu?

**Birinci,** Prezident İlham Əliyev dünyanın bütün güc mərkəzlərinin maraq dairəsində olan Cənubi Qafqaza sülh gətirilməsi istiqamətində olduqca uğurlu addımlar atdı və istəyinə nail oldu.

**İkinci,** rəsmi Bakı bir neçə qonşumuzun özü üçün “qırmızı xətt” adlandırdığı Zəngəzur dəhlizinin açılmasına tam və birmənalı olaraq zəmin yaratdı.

**Üçüncü,** bu zəmin Donald Tramp kimi məşhur siyasətçinin imzası, rəsmi Vaşinqtonun qətiyyəti ilə dəstəkləndi.

**Dördüncü,** Azərbaycan ərazisi Şərqdən Qərbə, Şimaldan Cənuba ( və əksinə) yük daşıyan beynəlxalq nəqliyyat arteriyalarının əsas mərkəzinə çevrildi. Doğrudur, bu coğrafi imkan əvvəllər də mövcud idi. Ancaq həmin layihələrin reallaşmasına badalaq gəlməyə çalışanlar da az deyildi. İndi isə Prezident İlham Əliyevin qətiyyəti bütün mənfilikləri neytrallaşdırıb.

Zəfər seçkimizin iki yaşı mübarək! Məmnunuq ki, 7 fevral 2024-cü il tarixi Azərbaycanın yeni reallıqlarının dünyanın hər yerində qəbul edilməsinə zəmin yaratmışdır. Əminik ki, qarşıdakı illərdə daha böyük uğurlara şahidlik edəcək, daha genişmiqyaslı layihə, plan və proqramların realladırılması sevincini yaşayacağıq.

Bayrağın həmişə uca olsun, AZƏRBAYCAN! Səsiniz həmişə kəsərli və yetərli olsun, Azərbaycan seçiciləri!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Qarabağ: cəhənnəmdən cənnətə qayıdış

*(əvvəli 1-ci səhifədə)*

Qeyd edək ki, uzun illər davam edən işğal dövrü Azərbaycanın sosial-iqtisadi həyatına sarsıdıcı zərbələr vurub, yüz minlərlə insanı məcburi köçkün vəziyyətinə salıb, şəhər və kəndləri xarabalığa çevirib. Musayevin çıxışı göstərdi ki, bu dağıntılar qarşısında dövlət yalnız məğlubiyyət hissi ilə dayanmaq məcburiyyətində deyil. Azərbaycan çətin imtahan qarşısında gələcəyə, sülhə və davamlı inkişafa yönəlmiş strateji yol xəritəsi qurub.

2020-ci ildən sonra işğaldan azad edilmiş torpaqlarda başlanan genişmiqyaslı bərpa və reabilitasiya proqramları, milli iradənin və həmrəyliyin təntənəsi səfirin çıxışında xüsusi vurğulanıb. Bu proses yalnız ərazi bütövlüyünün təminatı deyil, həm də illərdir tapdanan insan ləyaqətinin və sosial ədalətin bərpası yoludur.

Səfir bildirib ki, 2021–2025-ci illəri əhatə edən bərpa işlərinə Azərbaycan tamamilə öz daxili resursları hesabına 13,5 milyard ABŞ dollarından artıq vəsait ayırıb. Bu ilin dövlət büdcəsində Qarabağ və Şərqi Zəngəzurun bərpası üçün əlavə olaraq 3,5 milyard manat vəsait nəzərdə tutulub.

Ayrılan vəsaitlər yalnız dağıdılmış infrastrukturu bərpa etmək üçün deyil, həm də “ağıllı şəhər”, “ağıllı kənd” və “yaşıl enerji” zonası kimi müasir həyat məkanlarının yaradılmasına yönəlib. Bu yanaşma özündə sosial bərpa, ekoloji tarazlıq və texnoloji inkişafı birləşdirir. Artıq nəticələr görünür. Azad edilmiş ərazilərdə 70 minə yaxın insan yaşayır. 130 mindən çox insan dövlətin sistemli sosial dəstək proqramları ilə əhatə olunub. Yüzlərlə yeni iş yerləri yaradılır, sosial təminat genişləndirilir, təhsil və səhiyyə imkanları bərpa olunur. Bu tədbirlər insanların gələcəyə inamını artırıb.

Bərpa və yenidənqurma prosesi isə regionda uzunmüddətli sülh və sabitliyin möhkəmlənməsinə xidmət edir. İnsanların doğma torpaqlarına təhlükəsiz qayıtması, normal həyat və iqtisadi fəaliyyət imkanlarının yaradılması sosial gərginliyi aradan qaldırır və inkişaf üçün sağlam zəmin formalaşdırır.

* * *

Amma ciddi təhlükələr hələ də mövcuddur. Səfir çıxışında deyib ki, keçmiş işğal altındakı ərazilərdə basdırılmış təxminən 1,5 milyon mina və çoxsaylı partlamamış hərbi sursat var. Şübhəsiz ki, onlar insanların həyatına birbaşa təhlükə yaradır və bərpa prosesini ləngidir. Ermənistan tərəfindən dəqiq mina xəritələrinin təqdim olunmaması vəziyyəti daha da ağırlaşdırıb. Bu, yalnız hərbi risk deyil, həm də sülh prosesinə, regional əməkdaşlığa və mülki əhalinin təhlükəsizliyinə qarşı yönəlmiş sistemli təzyiqdir.

Aydındır ki, Azərbaycan mina problemini lokal çərçivədən çıxararaq qlobal hüquqi və humanitar məsələ kimi gündəmə gətirir. Bu kontekstdə səfir, həmçinin müharibə nəticəsində itkin düşmüş 4 mindən çox azərbaycanlının taleyinin naməlum qaldığını xatırladıb və əlavə edib: “Münaqişələrin ağır nəticələri davamlı milli səylərlə yanaşı beynəlxalq əməkdaşlıq və həmrəyliyi zəruri edir ki, heç kəs kənarda qalmasın”.

Bununla bağlı **politoloq Elməddin Behbud** XQ-yə bildirdi ki, səfirin BMT-nin Sosial İnkişaf Komissiyasındakı çıxışı beynəlxalq diplomatiya baxımından yüksək peşəkarlığın nümunəsidir: “Səfir yalnız Azərbaycanın dövlət mövqeyini təqdim etməklə kifayətlənmədi, eyni zamanda, müharibələrin yaratdığı sosial və humanitar fəsadları qlobal auditoriyanın diqqətinə çatdırdı. Faktlarla zəngin olan çıxışda statistik göstəricilər humanitar talelərlə, hüquqi arqumentlər isə beynəlxalq öhdəliklər və mənəvi məsuliyyətlə üzvi şəkildə birləşdirildi. Bu balans nitqin həm məzmun, həm də təsir baxımından yüksək effekt verməsini təmin etdi.



Musayevin tribundan çatdırdığı mesaj göstərdi ki, Azərbaycanın mövqeyi yalnız milli maraqlara yönəlmiş deyil, eyni zamanda, qlobal ictimaiyyət üçün nümunəvi modeldir. Sülh və təhlükəsizlik qarşılıqlı məsuliyyət, həmrəylik və insan amilinin mərkəzə qoyulması ilə mümkündür”.

E.Behbud qeyd etdi ki, Azərbaycan bu gün nümayiş etdirdiyi siyasi iradə və praktiki təcrübə ilə aydın mesaj verir ki, sülh, təhlükəsizlik və inklüziv inkişaf tək bir dövlətin gücü ilə təmin edilə bilməz: “Onlar yalnız qarşılıqlı əməkdaşlıq, beynəlxalq hüquqa hörmət və ortaq məsuliyyət anlayışı ilə möhkəmlənə bilər. Bu təcrübə həm də bütün dünya üçün nümunədir. Göstərir ki, postmünaqişə dövründə yenidənqurma və bərpa yalnız infrastrukturun tikintisi ilə ölçülmür, eyni zamanda, insan taleyinin, cəmiyyətin sosial toxumasının və ümumi rifahın bərpası ilə qiymətləndirilir. Azərbaycanın strategiyası sülh və inkişafı bir-birindən ayırmır, əksinə, onları bir-birinə bağlı, dayanıqlı və gələcəyə yönəlmiş prinsip kimi təqdim edir. Bu prinsip, həm yerli, həm də qlobal ictimaiyyət üçün aydın dərsdir: təhlükəsiz gələcək yalnız ortaq məsuliyyət və birgə hərəkət ilə mümkündür”.

Beləliklə, Azərbaycan postmünaqişə dövründə yalnız öz vətəndaşlarının təhlükəsizliyini təmin etməklə kifayətlənmir. Ölkə beynəlxalq həmrəylik, hüquqi məsuliyyət və humanitar prinsiplərə sadiqliyini açıq şəkildə nümayiş etdirərək dünya ictimaiyyətini konkret və əməli addımlar atmağa çağırır.

Minalardan təmizlənmiş ərazilərin yaradılması isə təkcə fiziki təhlükəsizlik deyil, həm də regional sabitliyin, iqtisadi inkişafın və davamlı sülhün əsas şərtidir. İnsanların doğma torpaqlarına qayıtması, kənd təsərrüfatı və biznes fəaliyyətinin bərpası, sosial və infrastruktur layihələrinin həyata keçirilməsi yalnız yerli əhəmiyyət daşımır. Bu, bölgədə harmoniyanın və beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə xidmət edən strateji addım, digər ölkələr üçün də təcrübədir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan–Birləşmiş Ərəb Əmirlikləri münasibətlərində yeni mərhələ



**Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) işgüzar səfəri çərçivəsində dövlətimizin başçısının Əbu-Dabidə BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla keçirdiyi görüş iki ölkə arasında formalaşmış strateji tərəfdaşlığın yeni mərhələyə yüksəldiyini nümayiş etdirir. Dövlət başçıları arasında keçirilən bu görüş regional və qlobal proseslər fonunda xüsusi önəm daşıyır. Cənubi Qafqaz, Yaxın Şərq və Avrasiya məkanında reallaşan transformasiyalar şəraitində Azərbaycan – BƏƏ əməkdaşlığı sabitlik və qarşılıqlı maraqlara əsaslanan uğurlu tərəfdaşlıq modeli kimi çıxış edir.**

Münasibətlərin dərinləşməsində dövlət başçılarının qarşılıqlı səfərləri və şəxsi dostluq münasibətləri mühüm rol oynayır. Azərbaycan – BƏƏ əlaqələrinin bugünkü səviyyəyə yüksəlməsi uzunmüddətli və məqsədyönlü diplomatik fəaliyyətin nəticəsidir. Son illərdə tərəflər arasında siyasi dialoq, iqtisadi əməkdaşlıq və təhlükəsizlik sahəsində münasibətlər ardıcıl şəkildə inkişaf etdirilərək yüksək səviyyəyə çatdırılıb.

Səfər çərçivəsində Azərbaycan və BƏƏ prezidentlərinin iştirakı ilə “Cənub Qaz Dəhlizi” QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alğı-satqı müqaviləsinə dair sənəd hər iki ölkənin müdafiə nazirlikləri arasında müdafiə əməkdaşlığına dair niyyət məktubu da imzalanıb. Bu sənədlər enerji və təhlükəsizlik sahələrində tərəfdaşlığın daha da möhkəmləndiyini göstərir.

Səfərin diqqətçəkən məqamlarından biri də Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında geniş tərkibdə keçirilmiş görüşdür. Görüşün neytral və eyni zamanda, nüfuzlu məkanda reallaşması Azərbaycanın dialoq prosesinə və sülh quruculuğuna verdiyi önəmin göstəricisi olmaqla yanaşı, iqtisadi əlaqələrin genişləndirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır. Ermənistanla keçirilən görüşlərin artıq siyasi normallaşma çərçivəsindən çıxaraq iqtisadi münasibətlərin formalaşdırılması mərhələsinə keçməsi regional əməkdaşlıq üçün yeni perspektivlər açır.

Azərbaycanın ikitərəfli ticarətə dair əldə olunmuş razılaşmalar çərçivəsində Ermənistana neft məhsulları ixrac etməsi, həmçinin üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların daşınmasında respublika ərazisindən tranzit kimi istifadəyə şərait yaratması əməkdaşlığın növbəti mərhələsi üçün mühüm siyasi və iqtisadi zəmin formalaşdırır. Tərəflərin iqtisadi əməkdaşlığın genişləndirilməsi imkanlarını araşdırmaq barədə razılığa gəlməsi isə sülhün möhkəmləndirilməsi yolu ilə iqtisadi inteqrasiyanın dərinləşməsinə xidmət edir.

İqtisadi əməkdaşlıq Azərbaycanın regional nəqliyyat qovşağı kimi mövqeyini gücləndirməklə bərabər, əlavə gəlir mənbələrinin formalaşmasına da töhfə verəcək. Enerji məhsullarının ixracı postmünaqişə dövründə iqtisadi təsir aləti kimi ön plana çıxır ki, bu da Azərbaycanın regional və beynəlxalq bazarlara çıxış strategiyasının mühüm tərkib hissəsi olaraq qiymətləndirilə bilər. Bununla yanaşı, siyasi sabitliyin təmin olunması regionun investisiya cəlbediciliyini artırır və Azərbaycanın iqtisadi mərkəz kimi mövqeyini daha da möhkəmləndirir.

Səfərin diqqətçəkən məqamlarından biri də Şeyx Zayed Fondunun təsis etdiyi və qlobal miqyasda humanist dəyərlərin təşviqinə xidmət edən “Zayed İnsan Qardaşlığı Mükafatı”nın 2026-cı il üzrə Azərbaycan Prezidentinə təqdim olunmasıdır. Mükafatın Qafqazda davam edən münaqişəyə son qoyulması istiqamətində göstərilən səylərə, dialoq və birgəyaşayış mədəniyyətinin təşviqinə görə verilməsi respublikamızın regional sülh prosesindəki rolunu bir daha təsdiqləyir. Mükafat komitəsi Prezident İlham Əliyevin regional və qlobal sülhün təmin olunmasına verdiyi töhfəni xüsusi vurğulayır. Keçmiş laureatlar sırasında Roma Papası və BMT-nin Baş katibi kimi nüfuzlu şəxslərin yer alması isə Prezident İlham Əliyevin beynəlxalq sülh və əməkdaşlıq müstəvisindəki nüfuzlu mövqeyini ön plana çıxarır.

Ümumilikdə, Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri Azərbaycan – BƏƏ münasibətlərinin yeni, strateji mərhələyə yüksəlməsindən xəbər verir. Səfər siyasi, iqtisadi, enerji və təhlükəsizlik sahələrində qarşılıqlı əməkdaşlığın daha da dərinləşməsinə, həmçinin ölkələrimiz arasında uzunmüddətli tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə güclü zəmin yaradır.

***Vilayət İSMAYILOV,***
***iqtisad elmləri doktoru, professor***

# Azərbaycan, ABŞ və Cənubi Qafqaz: Vensin səfərinin gözləntiləri

(əvvəli 1-ci səhifədə)

**İkincisi,** ABŞ-ın Cənubi Qafqazla bağlı sülh gündəliyi aydındır. Yəni Vens bölgəyə, əslində, aydın olan kurs naminə gəlsə də, onun səfəri yaşadığımız coğrafiyanın Birləşmiş Ştatlar üçün əlahiddəliyinin təsdiqidir. Nəzərə alaq ki, indiyədək sırf praktik anlamda belə bir hal yaşanmayıb. Deməli, bu baxımdan da səfərin əlamətdar səciyyə daşıdığı vurğulanmalıdır.

**Üçüncü məqam.** Cənab Vensin Cənubi Qafqaz ölkələrinə səfəri, bilavasitə, Azərbaycan və Ermənistan arasında sülh prosesini irəli aparmaq məqsədi daşıyır. Bir qədər konkretləşdirərək bildirək ki, Vensin səfəri ötən il avqustun 8-də Bakı və İrəvan arasında Vaşinqtonda Prezident Trampın şahidliyi ilə əldə olunmuş razılaşmaya dəstəyin davamıdır.

Haşiyə çıxaq ki, cənab Tramp dünyanın bir sıra münaqişəli zonalarında qan tökülməsinin qarşısını almağa müvəffəq olub. Hərçənd, iddia etmək olmaz ki, həmin zonalarda sülh sabit təbiətə malikdir. Yəni bunu demək hələlik tezdir. Cənubi Qafqaza gəldikdə isə müsbət mənada fərqli durum var və bu durumun Azərbaycan və Ermənistan liderləri arasında Birgə Bəyannamə məntiqi mövcuddur. Yəni regionda sülh mücərrədlikdən uzaqdır, obrazlı desək, üfüqdən boylanmır və məxsusi parametrlərə malikdir. Amma əldə olunmuş nailiyyətlərin qorunması vacibdir. Deməli, Vensin regiona səfəri ABŞ-ın barış mühitinin sabitliyini təmin etmək qətiyyətinin təcəssümü qismində də qiymətləndirilməlidir.

**Dördüncü məqam.** Bəli, Cənubi Qafqazda sülhün konkret parametrləri var və həmin parametrlər haqqında söz açdığımız Birgə Bəyannamədə əksini tapır. Buna görə də ABŞ vitse-prezidentinin səfəri zamanı regional sabitlik, iqtisadi əməkdaşlıq və ən əsası, bütün bunların rəhni sayılan "TRIPP marşrutu"nun müzakirə olunacağı birməmalıdır. O marşrut ki, Birgə Bəyannamənin 4-cü bəndi bilavasitə ona həsr olunub. Sənəddə bildirilir: "Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik".

Yeri gəlmişkən, sözügedən sənədin 3-cü bəndində, əslində, "Tramp marşrutu"nu, bir növ, ehkamlaşdıran məqam yer alır: "Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir".

Deməli, qarşıya qoyulmuş vəzifələrin icrası mütləqdir və buna görə ABŞ-ın Cənubi Qafqazda diplomatik fəallıq göstərməsi günün tələbidir. Ekspertlər də hesab edirlər ki, Vensin səfəri Vaşinqtonun bu fəallığı gücləndirməklə, bölgəni daha çox diqqətdə saxlamaq, enerji və iqtisadi əməkdaşlıq məsələlərində öz təsirini artırmaq niyyətindən qaynaqlanır.



**Beşinci məqam.** Vensin səfərinə, həmçinin, ABŞ-ın Cənubi Qafqazda Rusiya, Türkiyə və İran kimi region gücləri ilə, müəyyən mənada, balanslaşdırılmış siyasət yürütmə cəhdinin bir hissəsi kimi də yanaşılır. Amma aydındır ki, mövcud trayektoriyada kortəbiilik yolverilməzdir. Çünki Cənubi Qafqaz kifayət qədər həssas nöqtədir və bu platformada hansısa diktə cəhdləri sülh mühitinə xələl gətirə bilər. Hesab edirik ki, Vaşinqton administrasiyası durumun fərqindədir. Həm də ona görə ki, Azərbaycan tərəfindən ciddi şəkildə dəstəklənən "region region ölkələri üçündür" şüarı var.

Bəli, rəsmi Bakının bu şüar xüsusundakı prinsipial baxışına inamın və etimadın nəticəsidir ki, regional güclər "Tramp marşrutu" layihəsini hegemonluğun deyil, sülhün simgəsi olaraq təsəvvürə gətirirlər. Yəni Bakı mövcud düzəndə, xeyli dərəcədə, tənzimləyici rol oynamaqdadır. Bu rolun, eyni zamanda, Azərbaycan-ABŞ münasibətləri kimi bərabərtərəfliliyə əsaslanmış bazası var. İndi yazımızın ikinci bölümünə keçid alaq.

* * *

Nəzərə alaq ki, cənab Vensin ölkəmizə səfəri müstəqillik illərində ABŞ-dan Azərbaycana edilən ən yüksək səviyyəli səfərlərdən biri kimi tarixə düşəcək. Yəni indiyədək Birləşmiş Ştatların heç bir vitse-prezidenti ölkəmizdə olmayıb. Mahiyyətə gəlincə isə rəsmi Bakı Vensin respublikamıza gəlişini müsbət qarşılayır. Ölkəmiz bu qənaətdədir ki, onun səfəri Vaşinqtonun regional sülh prosesinə yeni impulsu olacaq. Bu yerdə bir məqamı da xüsusi vurğulayaq: Azərbaycan–ABŞ əməkdaşlığının müştərək sülh prioriteti Cənubi Qafqazın sərhədlərini aşan hadisədir və bu barədə sonda söz açacağıq.

Hələlik onu deyək ki, Azərbaycanın ABŞ-la münasibətlərinin məxsusi gündəliyi də var. Məlum olduğu kimi, ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu imzalandı. Sənəd təkcə texniki mexanizm deyil, habelə Bakı–Vaşinqton əlaqələrində yeni mərhələnin konturlarının göstəricisidir.

Strateji İşçi Qrupu tərəflərin münasibətləri epizodik dialoqdan çıxarıb, davamlı, strukturlaşdırılmış əməkdaşlıq müstəvisinə keçirmək niyyət və əzmlərinin nəticəsidir. Yəni belə bir mexanizm ölkələr arasında siyasi dialoqun müntəzəmliyini, uzunmüddətli strateji planlaşdırmanı təmin edir. Bu isə öz növbəsində qərarların koordinasiyalı şəkildə hazırlanmasını və qəbulunu rəhbər tutur. Hesab edirik ki, cənab Vensin ölkəmizə səfəri müştərək məsləhətləşmələr platformasının daha da güclənməsinə təkan verəcək.

Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması istiqamətində ötən il atılmış addım özlüyündə ABŞ-ın Azərbaycanın geostrateji rolunu tanımasıdır. Belə nəticəyə gəlmək mümkündür ki, ölkəmiz Birləşmiş Ştatlar üçün Cənubi Qafqazda stabilləşdirici aktordur və onun Avropa ilə Asiya arasında enerji və nəqliyyat qovşağı missiyası qəbul edilir. Deməli, eyni zamanda, Azərbaycanın regional təhlükəsizlikdə mühüm tərəfdaş obrazının konturları da Vaşinqton üçün prioritetdir. Şübhəsiz, ilk növbədə, Strateji İşçi Qrupunun özünün fəaliyyətə başlaması vacibdir. Eləcə də onun gündəliyində dayanan məsələlərin təsdiqlənməsi. Vensin səfəri bu istiqamətdə də irəliləyişlərə nail olunması üçün nikbinlik yaradır.

Onu da bildirək ki, Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanmasına dair ötən il Vaşinqtonda əldə edilmiş razılaşma Bakının regional məsələlərdə etibarlı tərəfdaş missiyasını gücləndirməklə yanaşı, Azərbaycanın xarici siyasətdə manevr imkanlarını artırır, ölkəmizin balans siyasətini gücləndirir, həmçinin, müxtəlif güc mərkəzləri ilə paralel və çevik əməkdaşlıq imkanlarını genişləndirir.

* * *

Sonda bir məqamı da vurğulayaq. Cənab Vensin Azərbaycana səfəri xüsusunda Bakı–Vaşinqton əlaqələrinin müasir xarakterindən söz açırıqsa, əlbəttə, Prezident Trampın şəxsi rolunu vurğulamalıyıq. Məlum olduğu kimi, Prezident İlham Əliyevlə Prezident Tramp arasında pozitiv münasibətlər mövcuddur və bu, Bakı–Vaşinqton münasibətlərinin hazırkı dinamikasını vurğulayan ən mühüm cəhətdir. Dövlət başçılarının istər ötən il avqustun 8-də Ağ Evdəki səmimi söhbətləri, istər Prezident İlham Əliyevin sentyabrın 23-də BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak üçün Nyu-Yorka səfəri gedişindəki təmasları, istərsə də oktyabrda Misirdə Yaxın Şərq Sülh Sammiti və bu ilin yanvarında Davos Ümumdünya İqtisadi Forumu çərçivəsindəki dialoqları bu baxımdan xüsusi vurğulanmalıdır. Əlbəttə, bu sıraya prezidentlərin telefon zəngləri və məktublaşmalarında ifadəsini tapmış səmimi ton da əlavə olunmalıdır. O ton ki, məğzində, eyni zamanda, haqqında söz açacağımızı bildirdiyimiz və sərhədləri Cənubi Qafqaz arealını aşan sülh dayanır. Söhbət bəşəri sülhdən və ona töhfədən gedir. Bəli, Azərbaycan Prezident Trampın Yaxın Şərq üzrə Sülh Şurası təşəbbüsünün fəal dəstəkçisi, qurumun təsisçi üzvü və şuranın Nizamnaməsinə tərəf ölkədir. Məlumdur ki, bununla əlaqadar Trampın dövlətimizin başçısına ünvanladığı dəvət məktubu və Azərbaycan liderinin həmin məktuba cavabı var. Hər iki məktub Bakı–Vaşinqton əməkdaşlığının bazasında dayanan başlıca amilin də məhz sülh olduğunu təsdiqləyir. Nəzərə alaq ki, Sülh Şurasına dəvət məktubunda "bizim səylərimiz nümunə göstərməyə hazır olan, yeni nəsillər üçün təhlükəsiz və çiçəklənən gələcəyə parlaq şəkildə sərmayə yatıranlara nəsib olan bir şərəfi - daimi sülhün qurulması kimi nəcib məsuliyyəti çiyinlərinə götürmək istəyən seçilmiş ölkələr qrupunu bir araya gətirəcəkdir. Yaxın gələcəkdə əksəriyyəti yüksək hörmətə sahib dünya liderləri olan möhtəşəm və etibarlı tərəfdaşlarımızı bir araya gətirəcəyik" kimi fikirlərlə xoş ovqat yaradan Prezident Trampa Prezident İlham Əliyevin cavabı belə olmuşdu: "Bu dəvəti Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarının qarşılıqlı hörmətə əsaslanan faydalı tərəfdaşlığının, həmçinin Azərbaycanın regional və qlobal miqyasda sülh və sabitliyin təşviqində rolunun tanınmasının rəmzi olaraq qəbul edirəm".

Göründüyü kimi, ABŞ-ın vitse-prezidenti cənab Vensin ölkəmizə səfəri Azərbaycan–Birləşmiş Ştatlar ikitərəfli münasibətlərinin zəngin gündəliyinin olduğu zaman kəsiyinə təsadüf edir. Bu zənginlik isə özlüyündə gələcək üçün mühüm bazadır. Əminik ki, cənab Vensin səyləri ilə Vaşinqton–Bakı əməkdaşlığı daha rəvan müstəviyə çıxacaq.

***XQ-nin analitik qrupu***

# Azərbaycan regionda sabitliyin istinadgahıdır

*İran–ABŞ münasibətlərində yumşalma qonşu ölkələrə nə verə bilər?*

**Qlobal güc mərkəzləri arasında yaşanan kəskin qarşıdurmalar, xüsusilə Yaxın Şərq və Cənubi Qafqaz regionunda cərəyan edən geosiyasi təlatümlər ənənəvi diplomatiya metodlarının yetərsiz qaldığını, daha praqmatik və regional reallıqlara əsaslanan yanaşmaların zəruriliyini diktə edir. Məhz belə dönəmdə, İran İslam Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında uzun illər davam edən, zaman-zaman hərbi toqquşma həddinə çatan gərginliyin aradan qaldırılması istiqamətində atılan addımlar Avrasiya məkanı üçün həlledici əhəmiyyət daşıyır.**

İran Prezidenti Məsud Pezeşkianın sosial şəbəkələr vasitəsilə bəyan etdiyi dialoq mesajları və rəsmi Tehranın sülh yolu ilə həll strategiyasına sadiqliyi regionda yeni nəfəs, siyasi iqlimin formalaşması ümidlərini artırır. Yaşanan proseslərin ən diqqətçəkən və əvvəlki illərdən fərqlənən tərəfi, bu dialoqun, sadəcə, Vaşinqton və Tehran arasında qapalı qapılar arxasında deyil, bilavasitə region dövlətlərinin, xüsusilə Azərbaycanın fəal iştirakı və dəstəyi ilə həyata keçirilməsidir.

İranın xarici işlər naziri Abbas Arakçının yerli mətbuata verdiyi açıqlama pərdəarxasında gedən nəhəng işin miqyasını ortaya qoyur. Nazir tərəfindən səsləndirilən və ABŞ-la İran arasında aparılan nüvə danışıqları ərəfəsində regionun 7 liderinin rəsmi Tehranla təmasda olması faktı diplomatiya tarixində nadir rast gəlinən həmrəylik nümunəsidir. Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Misir və Azərbaycan liderlərinin prosesə birbaşa müdaxiləsi, məsləhətləşmələr aparması və İranın müsbət cavab verməsini xahiş etməsi 2013-2015-ci illərdəki nüvə danışıqlarından fərqli mənzərə yaradır. Həmin dövrdə danışıqlar əsasən "P5+1" formatında, yəni qlobal güclərin inhisarında idisə, hazırkı mərhələdə regional mülkiyyət prinsipi ön plana çıxır. Bölgə ölkələri artıq kənar liderlərin diktəsini gözləmək niyyətində deyil. Onlar öz taleyüklü məsələlərini həll etmək iqtidarındadır. Azərbaycan Prezidenti İlham Əliyev ilə iranlı həmkarı Məsud Pezeşkian arasında baş tutan telefon danışığı rəsmi Bakının prosesdəki həlledici rolunu və diplomatik çəkisini nümayiş etdirir. İlham Əliyevin regiondakı vəziyyətdən narahatlığını ifadə etməsi və Azərbaycanın gərginliyin aradan qaldırılmasına töhfə verməyə hazır olduğunu bildirməsi Cənubi Qafqazın lider dövlətinin qlobal təhlükəsizlik sistemindəki məsuliyyətinin təzahürüdür. Dövlət başçısının rəsmi Bakının bu kimi məsələlərin danışıqlar və qarşılıqlı anlaşma yolu ilə həllini dəstəklədiyini vurğulaması Azərbaycanın xarici siyasət kursunun sülhməramlı mahiyyətini bir daha təsdiqləyir. Prezident Pezeşkianın Prezident İlham Əliyevə minnətdarlığı isə Tehranın Bakının vasitəçilik missiyasına və səmimiyyətinə duyduğu etimadın göstəricisidir.

* * *

Azərbaycanın İran və ABŞ münasibətlərində tutduğu mövqe, sadəcə coğrafi yaxınlıqla izah edilə bilməz. Rəsmi Bakı Qərblə Şərq arasında körpü rolunu oynayan, həm İslam dünyasının, həm də Avropa institutlarının tərkib hissəsi olan nadir ölkələrdəndir. Azərbaycanın İsraillə strateji tərəfdaşlığı, o cümlədən də İranla tarixi qonşuluq əlaqələrini eyni vaxtda idarə edə bilməsi İlham Əliyevin milli maraqlara əsaslanan müstəqil siyasət kursunun uğurudur. Məhz həmin unikal status Vaşinqton üçün Bakını əvəzolunmaz tərəfdaşa çevirir. ABŞ administrasiyası yaxşı anlayır ki, Tehranla birbaşa dialoqun qurulmasında etibar ediləcək, mesajları təhrifsiz çatdıracaq və prosesi sabotaj etməyəcək tərəfdaşa ehtiyac duyulur.

Proseslərin bundan sonrakı inkişaf ssenariləri region üçün böyük perspektivlər vəd edir. Birinci növbədə, İran–ABŞ gərginliyinin azalması Cənubi Qafqazda iqtisadi layihələrin reallaşmasına təkan verəcək. Şimal–Cənub Nəqliyyat Dəhlizinin əsas halqası olan Azərbaycan üçün İranın sanksiyalardan azad olması və ya ən azından iqtisadi blokadanın zəifləməsi tranzit gəlirlərinin artması və logistik imkanların genişlənməsi deməkdir. Rəsmi Bakı İran ərazisindən keçərək Naxçıvana və oradan Türkiyəyə uzanan kommunikasiya xətlərinin işə düşməsində maraqlıdır. Vaşinqton və Tehran arasında əldə olunacaq istənilən razılaşma bu layihələrin maliyyələşdirilməsi və texniki icrası qarşısındakı maneələri aradan qaldıracaq.



Qarşıdakı dövrdə Azərbaycanın rolu daha da aktivləşəcək. Nüvə danışıqlarının texniki detalları, monitorinq mexanizmləri və qarşılıqlı öhdəliklərin yerinə yetirilməsi prosesində tərəflər arasında etimad mühitinin qorunması üçün "təminatçı" və "müşahidəçi" qismində çıxış edən ölkələrə ehtiyac yaranacaq. Azərbaycan həm İranla, həm də ABŞ-la sahib olduğu işlək kommunikasiya kanalları sayəsində yarana biləcək anlaşılmazlıqların operativ həllində əvəzsiz rol oynaya bilər. Digər tərəfdən, İranın dünya iqtisadiyyatına reinteqrasiyası, Azərbaycanın enerji sektorunda yeni əməkdaşlıq formatlarını gündəmə gətirəcək. Xəzər dənizindəki yataqların birgə istismarı, qaz svop əməliyyatlarının genişləndirilmsi və elektrik enerjisi mübadiləsi sahəsində mövcud potensial siyasi maneələrin aradan qalxması ilə reallığa çevriləcək. Prezident Pezeşkianın "Nüvə silahlarının yayılmaması haqqında Müqavilə"yə istinad etməsi, rəsmi Bakının da maraqlarına tam uyğundur. Çünki, nüvə silahına malik qonşu Azərbaycan üçün arzuolunan ssenari deyil və regionda nüvə yarışının başlaması fəlakətli nəticələrə gətirib çıxara bilər. Buna görə də, ölkə başçısı İlham Əliyevin diplomatik səyləri həm də Azərbaycanın milli təhlükəsizliyinin uzunmüddətli təminatına xidmət edir.

Məsələnin digər vacib aspekti region ölkələrinin, xüsusilə "yeddilər qrupu"nun nümayiş etdirdiyi həmrəyliyin gələcək institusional formata çevrilmə ehtimalıdır. Bu proses Yaxın Şərq və Qafqazda kənar qüvvələrin təsirini minimuma endirəcək yeni təhlükəsizlik platformasının əsasıdır. Əgər qeyd edilən ölkələr, İran–ABŞ gərginliyini yumşalda bilirlərsə, deməli, gələcəkdə digər regional münaqişələrin həllində də oxşar mexanizmdən istifadə etmək mümkündür. Region ölkələrinin məsələdə ciddi iştirakı Tehranın artıq təhlükəsizliyi Ankara, Bakı, Ər-Riyad və İslamabadda axtardığını göstərir. Bu, paradiqma dəyişikliyidir. İlham Əliyevin illərdir apardığı "regionun problemləri region ölkələri tərəfindən həll olunmalıdır" siyasətinin əhəmiyyətini sübut edən növbəti hadisədir.

Bundan əlavə, ABŞ-ın regiona baxışında ciddi dəyişikliklər müşahidə olunur. Vaşinqton anlayır ki, İrana qarşı tətbiq edilən maksimum təzyiq siyasəti regional tərəfdaşların dəstəyi olmadan arzuolunan nəticəni vermir. Əksinə, təcrid olunmuş İran daha radikal addımlara əl atır. Bu səbəbdən, Ağ Ev Azərbaycan kimi praqmatik tərəfdaşların vasitəçiliyinə "yaşıl işıq" yandırır. Azərbaycanın İsraillə sıx əlaqələrə malik olması rəsmi Bakını Tehranın gözündə "şübhəli" etmək əvəzinə, paradoksal şəkildə daha dəyərli həmsöhbətə çevirir. Çünki Tehran bilir ki, Bakı vasitəsilə verilən mesajlar Təl-Əviv və Vaşinqtonda diqqətlə dinlənilir. Prezident İlham Əliyevin bu incə diplomatik balansı qoruması onun yüksək siyasi ustalıq və strateji səbr nümayiş etdirməsindən xəbər verir.

İran–ABŞ danışıqları prosesində dövlətimizn iştirakı müstəqil Azərbaycan dövlətinin beynəlxalq aləmdəki nüfuzunun zirvəsidir. Artıq dünya birliyi qəbul edir ki, Cənubi Qafqazda və Yaxın Şərqin şimal cinahında hər hansı ciddi siyasi proses Bakının rəyi və iştirakı olmadan həyata keçirilə bilməz. Əgər bu danışıqlar uğurla yekunlaşarsa, region yeni inkişaf mərhələsinə qədəm qoyacaq. Lakin mövcud əhval-ruhiyyə Pezeşkianın konstruktivliyi və region ölkələrinin, xüsusilə Azərbaycanın qətiyyətli dəstəyi nikbinlik üçün ciddi əsaslar yaradır. Rəsmi Bakı bu yolda öz üzərinə düşən missiyanı şərəflə yerinə yetirməyə davam edəcəkdir. Çünki sabit və firavan qonşuluq Azərbaycanın milli maraqlarının ali məqsədidir. Artıq dünya Cənubi Qafqaza "həll mərkəzi" kimi baxmağa məcburdur..

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Haqqın qaçılmaz divanı

(əvvəli 1-ci səhifədə)

Məhkəmə araşdırmaları göstərdi ki, dinc obyektlərə qarşı həyata keçirilən hücumlar sistemli və məqsədyönlü hərbi strategiyanın tərkib hissəsi olub. Strategiya beynəlxalq humanitar hüququn təməl prinsiplərinin kobud şəkildə pozulması üzərində qurulub. Mülki şəxslərlə döyüşçülər arasında fərqin qəsdən aradan qaldırılması, hərbi üstünlük anlayışı ilə mülki itkilər arasında proporsionallığın qorunmaması və beynəlxalq hüquqda toxunulmaz sayılan mülki ərazilərin bilərəkdən hədəfə çevrilməsi məhkəmə prosesində sübutlarla təsdiqləndi. Hüquqi sənədlər, şahid ifadələri və etiraflar bu pozuntuları siyasi polemika mövzusu olmaqdan çıxararaq normativ hüquqi reallığa çevirdi.



Məhkəmənin ən mühüm siyasi-hüquqi nəticələrindən biri ondan ibarətdir ki, Azərbaycan illər ərzində beynəlxalq platformalarda səsləndirdiyi iddiaları ilk dəfə milli məhkəmə mexanizmi vasitəsilə hüquqi hökm səviyyəsinə yüksəltdi. Deməli, müharibə cinayətləri ilə bağlı arqumentlər artıq məhkəmə qərarı ilə təsdiqlənmiş hüquqi faktlar kimi qəbul olunmalıdır. Bütün bunlar Azərbaycanın beynəlxalq hüquq müstəvisində mövqeyini keyfiyyətcə yeni mərhələyə daşıyır və münaqişənin hüquqi interpretasiyasına uzunmüddətli təsir göstərir.

* * *

Arayik Harutyunyan və digər təqsirləndirilən şəxslərə çıxarılan ömürlük həbs cəzası beynəlxalq hüququn selektiv tətbiqinə qarşı ciddi presedent yaradır. Uzun illər ərzində münaqişə zonalarında törədilən ağır cinayətlər "dondurulmuş münaqişə", "status-kvo" və ya "siyasi kompromis" anlayışları altında faktiki olaraq hüquqi cavabdehlikdən kənarda saxlanılırdı. Azərbaycan təcrübəsi açıq şəkildə nümayiş etdirdi ki, müharibə cinayətləri zaman amili ilə aktuallığını itirmir, siyasi razılaşmalar hüquqi məsuliyyəti ləğv etmir və heç bir qeyri-legitim qurum və ya xarici himayə fərdi cinayət məsuliyyətini sığortalaya bilmir.

Bakı Hərbi Məhkəməsinin qərarları gələcəyə yönəlik güclü hüquqi siqnaldır. Separatizm və silahlı zorakılıq bundan sonra uzunmüddətli hüquqi və siyasi nəticələrlə müşayiət olunacağını göstərən bu presedent postmünaqişə dövrünün əsas normativ çərçivələrindən birinə çevrilir. Bu prosesin açıq və hüquqi normalara tam uyğun formada aparılması mahiyyət etibarilə çoxqatlı siyasi mesaj daşıyan institusional davranış idi. Dövlət burada hüququ icra edən ali instansiya kimi çıxış etdi. Belə bir yanaşma ilk növbədə daxili auditoriya üçün fundamental əhəmiyyət kəsb edirdi. Cəmiyyətə açıq şəkildə nümayiş etdirildi ki, dövlət suverenliyinə qarşı yönəlmiş fəaliyyətlər, vətəndaşların həyatına və təhlükəsizliyinə təhdid yaradan cinayətlər zaman və şəraitdən asılı olmayaraq hüquqi qiymətini alır. İnsanlar görür ki, hüquq pozuntuları nə qədər mürəkkəb siyasi kontekstdə baş verməsindən asılı olmayaraq, nəticə etibarilə hüquqi məsuliyyətlə üzləşir. Daxili siyasi sabitlik baxımından da bu amil mühüm rol oynayır. Cəzasızlıq təəssüratının aradan qalxması radikalizmə və revanşist meyllərə qarşı preventiv mexanizm kimi çıxış edir. Dövlət açıq şəkildə göstərir ki, suverenlik və vətəndaş təhlükəsizliyi müzakirə predmeti deyil, hüquqla qorunan ali dəyərlərdir.

Eyni zamanda, bu məhkəmə prosesi regional və beynəlxalq müstəvidə də mühüm mesaj rolunu oynadı. Azərbaycan göstərdi ki, separatizmlə mübarizədə əsas dayağı, institusional hüquq sisteminin işləkliyidir. Çünki hərbi qələbə münaqişəni dayandıra bilər, lakin yalnız hüquqi mühakimə onun nəticələrini uzunmüddətli siyasi reallığa çevirir. Açıq məhkəmə prosesi ilə Azərbaycan beynəlxalq auditoriyaya sübut etdi ki, tətbiq olunan cəza siyasi iradənin deyil, hüquqi prosedurun məhsuludur.

Belə bir yanaşma separatizmin sosial-siyasi dayaqlarına birbaşa təsir göstərir. Separatçı ideologiyalar cəzasızlıq və himayə olunma illüziyası üzərində qurulur. Məhkəmə prosesinin şəffaflığı və hüquqi əsaslı hökm bu illüziyanı dağıdan əsas mexanizmə çevrildi. Proses regionda yeni normativ davranış modelinin formalaşmasına xidmət edir. Dövlətlərə və qeyri-dövlət aktorlarına açıq şəkildə mesaj verilir ki, zorakı separatizm nə qədər uzunmüddətli və mürəkkəb siyasi kontekstdə formalaşsa belə, sonda hüquqi mühakimədən yayınmaq imkanına malik deyil. Məhz bu baxımdan şəffaf məhkəmə prosesi Azərbaycanın postmünaqişə mərhələsində legitim aktor kimi mövqeyini möhkəmləndirən əsas sütunlardan birinə çevrilir.

* * *

Tarixi və siyasi təcrübə göstərir ki, ədalət həmişə dərhal bərpa olunmur, lakin hüquqi dövlətlərdə heç vaxt yoxa çıxmır. Zaman amili bəzən hüququn icrasını gecikdirsə də, onun legitimliyini zəiflətmir. Bakı Hərbi Məhkəməsinin çıxardığı hökm məhz bu reallığın institusional təsdiqinə çevrildi. Burada məsələ yalnız konkret şəxslərin cinayət məsuliyyətinə cəlb olunması ilə məhdudlaşmır; söhbət hüququn uzun müddət gücün kölgəsində saxlanılan bir sahədə yenidən hakim mövqeyə qayıtmasından gedir. Hüquq bu prosesdə silahın yaratdığı reallığı normativ çərçivəyə salan ali instansiya kimi çıxış etdi.

Məhkəmələr dövlətin öz tarixi haqlılığını hüquqi mexanizmlərlə təsdiqlədiyini göstərdi. Məhz bu səbəbdən proses daxili auditoriya üçün təkcə ədalət hissinin bərpası deyil, eyni zamanda, dövlətçilik şüurunun möhkəmləndirilməsi funksiyasını daşıyır. Dövlətin gücü burada hüquq sisteminin işləkliyində və prinsipiallığında ölçülür. Dost dövlətlər üçün bu yanaşma müasir və məsuliyyətli dövlət modelinin nümunəsidir; çünki güc hüquqla məhdudlaşanda legitimliyə çevrilir. Dost dövlətlər dedikdə ilk növbədə beynəlxalq hüququn aliliyini, suverenlik prinsipini və dövlətlərin daxili işlərinə müdaxilə edilməməsini əsas norma kimi qəbul edən aktorlar nəzərdə tutulur. Məhz bu dövlətlər üçün Azərbaycanın nümayiş etdirdiyi yanaşma xüsusi əhəmiyyət kəsb edir.

Eyni zamanda, bu proses qarşı tərəf üçün açıq və birmənalı dərs xarakteri daşıyır. Heç bir xarici himayə, heç bir geosiyasi manipulyasiya və ya uzun illər formalaşdırılmış saxta legitimlik insanlıq əleyhinə cinayətləri hüquqi məsuliyyətdən kənarda saxlaya bilməz. Hüquq siyasi proseslərdən asılı olmayan ali prinsip kimi çıxış edir. Bunlar isə təbii ki, separatizm və silahlı zorakılıq ideologiyasının ən zəif nöqtəsinə – cəzasızlıq mifinə – həlledici zərbə vurur.

Son olaraq qeyd edək ki, Azərbaycanın həyata keçirdiyi bu hüquqi proses bölgədə formalaşan yeni reallığın əsas sütunlarından birinə çevrilir. Mövcud reallıqda qələbə hərbi üstünlük və ya diplomatik balansla ölçülmür. Qələbə hüquqi, mənəvi və institusional müstəvidə möhkəmləndikdə dayanıqlı xarakter alır. Separatizm üzərində əldə



olunan nəticə də məhz bu kontekstdə tamlıq qazanır: silahla dayandırılan proses hüquqla yekunlaşdırılır. Haqqın zəfəri buna görə geciksə də, qaçılmaz olur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**Dünən Azərbaycan Kibertəhlükəsizlik Mərkəzində 6-cı dalğanın məzun günü keçirilib. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) İnformasiya Təhlükəsizliyi Departamentinin müdiri Şahmar Hacıyəhyayev mətbuata açıqlamasında bildirib ki, mərkəzdə müxtəlif istiqamətlər üzrə "red", "blue" və "purple team" adlandırılan ixtisasartırma təlimlərini başa vuran məzunlar artıq əmək bazarına inteqrasiya olunurlar. Onun sözlərinə görə, son 3 il ərzində Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi tərəfindən 480–500 arası kibertəhlükəsizlik üzrə mütəxəssis hazırlanaraq əmək bazarına çıxarılıb. Eyni zamanda, dayanıqlı kibertəhlükəsizlik ekosisteminin formalaşdırılması, insan kapitalının güclü şəkildə yetişdirilməsi və yerli kibermәhsulların inkişafı istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyətlər həyata keçirilir.**

# Milli kibertəhlükəsizliyin etibarlı kadr təminatı

Şahmar Hacıyəhyayev qeyd edib ki, mərkəzin məzunlarının təxminən 86 faizi artıq əmək bazarında fəaliyyət göstərir. Bununla yanaşı, təxminən 200 rəhbər şəxs üçün kiberdayanıqlılıq, kibermaarifləndirmə və kiberqiymətləndirmə təlimləri təşkil olunub ki, bu da qərarverici şəxslərin öz qurumlarında rəqəmsal texnologiyaları düzgün və təhlükəsiz şəkildə tətbiq etməsinə imkan yaradır. O vurğulayıb ki, Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi növbəti üç il ərzində də strateji fəaliyyətini həm daxili, həm də xarici tərəfdaşlarla əməkdaşlıq çərçivəsində davam etdirəcək, insan kapitalının inkişafı və milli kibermәhsulların bazarda tətbiqi istiqamətində yeni layihələr həyata keçiriləcək.









Tədbirdə çıxış edən İsrailin "Technion" Universitetinin Davamlı Təhsil Mərkəzinin direktoru Moti Yeger bildirib ki, son üç il ərzində 300-dən artıq mütəxəssis hazırlayan Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi ölkənin kibertəhlükəsizlik potensialının gücləndirilməsində mühüm dayağa çevrilib. Onun fikrincə, müasir dövrdə kibertəhlükəsizlik artıq yalnız texniki peşə deyil, eyni zamanda kritik infrastrukturun qorunması, ictimai etimadın təmin edilməsi və innovasiyaların cəmiyyətin rifahına xidmət etməsi baxımından böyük məsuliyyət daşıyır. Moti Yeger vurğulayıb ki, süni intellekt və rəqəmsal sistemlərin sürətlə inkişaf etdiyi bir dövrdə kibertəhlükəsizlik milli təhlükəsizlik və ictimai etimad üçün strateji əhəmiyyət kəsb edir.

İsrailin Azərbaycandakı səfiri Ronen Kraus vurğulayıb ki, Azərbaycan və İsrail arasında həyata keçirilən bu birgə təşəbbüs kibertəhlükəsizliyin artıq yalnız texniki sahə olmadığını açıq şəkildə nümayiş etdirir. Onun sözlərinə görə, kibertəhlükəsizlik bu gün milli təhlükəsizlik, iqtisadi dayanıqlılıq və texnoloji inkişaf üçün strateji dayağa çevrilib. Səfir qeyd edib ki, müasir dövrdə kibertəhlükəsizlik infrastrukturu ilə yanaşı, ən vacib məsələlərdən biri də yüksəksəviyyəli insan kapitalının formalaşdırılmasıdır. Yüzlərlə mütəxəssisin hazırlanması və onların dövlət və özəl sektorda mühüm mövqelərdə fəaliyyət göstərməsi əhəmiyyətli nailiyyət kimi dəyərləndirilib. Ronen Kraus 6-cı dalğanın məzunlarını təbrik edərək bildirib ki, onlar intizam, davamlılıq və intellektual cəsarət tələb edən çətin bir yolu uğurla başa vurublar. "Siz sürətlə dəyişən və ictimaiyyət üçün çox vaxt görünməyən, lakin həyati əhəmiyyət daşıyan bir sahəni seçmisiniz", - səfir vurğulayıb.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov isə diqqətə çatdırıb ki, indiyədək 120 nəfər dövlət və özəl sektorda ixtisasartırma proqramlarında iştirak edib, 53 qurumda kibermaarifləndirmə təlimləri təşkil olunub və 7 mindən çox şəxs kibergigiyena üzrə biliklərini artırıb. Onun sözlərinə görə, Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin fəaliyyəti milli ekosistemin inkişafına və yüksəkixtisaslı insan kapitalının formalaşmasına mühüm töhfə verir. Təlim proqramlarını başa vuran mütəxəssislər artıq işlə təmin olunub və real layihələrdə iştirak edirlər.

Samir Məmmədov bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair Strategiyası" bu sahədə fəaliyyətin strateji planlaşdırılmasını və mərhələli şəkildə icrasını nəzərdə tutur. Strategiya çərçivəsində kibertəhlükəsizlik üzrə peşəkar mütəxəssislərin hazırlanması və cəmiyyətin yüksəkixtisaslı kadrlarla təmin edilməsi istiqamətində mühüm işlər davam etdirilir. Nazir müavini əlavə edib ki, yüksəkixtisaslı insan kapitalının yetişdirilməsi prosesi qlobal beynəlxalq İT şirkətlərinin ölkəyə cəlb edilməsi ilə paralel şəkildə həyata keçirilir və məqsəd yalnız həmin şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsi deyil, eyni zamanda, yerli insan kapitalının inkişafına real və davamlı töhfə verməkdir.

Beləliklə, Azərbaycan Kibertəhlükəsizlik Mərkəzində 6-cı məzun buraxılışı ölkənin rəqəmsal təhlükəsizlik strategiyasının artıq praktik mərhələyə keçdiyini göstərən mühüm hadisə kimi qiymətləndirilə bilər. Son illər kiberməkanda artan risklər, hibrid təhdidlərin intensivləşməsi və süni intellekt əsaslı texnologiyaların sürətli yayılması fonunda Azərbaycan kibertəhlükəsizliyi artıq sırf texniki sahə kimi deyil, milli təhlükəsizlik və iqtisadi dayanıqlılığın ayrılmaz elementi kimi formalaşdırır. Mərkəzin 6-cı məzun buraxılışı isə göstərir ki, kibertəhlükəsizlik Azərbaycanda artıq sistemli, strateji və beynəlxalq tərəfdaşlıqlara əsaslanan dövlət siyasətinə çevrilib.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Vensin səfərinin qarşısına atılan kötük

## *İrəvandakı və xaricdəki hay şousunun məqsədi nədir?*

**"Artsax sevdalıları" ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vensin Ermənistana səfəri xüsusunda özlərinin vay-şivən ritorikalarını yenidən işə salıblar. Onlar dünən paytaxt İrəvanın Respublika meydanında, Xarici İşlər Nazirliyinin keçmiş binasının qarşısında Bakıda qanunsuz saxlanıldıqlarını iddia etdikləri erməni əsilli şəxslərin azad olunmaları tələbi ilə mitinq keçiriblər. Göründüyü kimi, Ermənistandakı revanşist və şovinist kəsim özünün köhnə şakərindədir. Amma məsələ təkcə bu deyil.**

Sözügedən kəsim yaxşı bilir ki, cənab Vens İrəvanla yanaşı, Bakıda da olacaq. Ona görə də ABŞ rəsmisinin ölkəmizin rəhbərliyinə təzyiq göstərəcəyinə ümid bəsləyirlər. Bu, öz yerində. Digər tərəfdən, o da məlumdur ki, Ermənistandan kənarda da "Artsax sevdalıları" var. Məsələn, Amerika Erməni Milli Komitəsi (ANCA). Bu qurum ötən həftə bəyanat yayaraq, Birləşmiş Ştatların vitse-prezidentini Azərbaycandakı "erməni girovlarla" görüşməyə və bu şəxslərin dərhal azad olunmalarını tələb etməyə çağırıb. Hərçənd, ANCA-çıların başqa tələbləri də var.

Bəli, məsələ təkcə Bakıda həbsxana həyatı yaşayan ermənilərin azadlığa çıxmaları tələbinin səslənməsində deyil. Bunu ANCA-nın bəyanatından da görmək mümkündür. Heç şübhəsiz, dünən İrəvanda mitinq düzənləyənlərin də məramları başqadır. Bu başıpozuq kütlənin təmsilçiləri Vensin regiona səfəri xüsusunda, əslində, separatçılığı təbliğ etməyə girişiblər. Onlar özlərinin çürük təfəkkürlərini işə salaraq, "etnik təmizləmə" şousuna start veriblər və Qarabağı könüllü tərk etmiş erməni əsilli şəxslərin yenidən bölgəyə qayıtmaları məsələsini qaldırıblar.

Məlumdur ki, bu məsələ adi sayıla bilməz. Onun irəli sürülməsi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhələndirmək məqsədi daşıyır. Üstəlik, Vensin səfəri xüsusunda vay-şivən qaldıranlar Qarabağın "minilliklərə söykənən erməni xristian irsi abidələrinin dağıdılmasının dayandırılması" tələbini irəli sürürlər. Bütün bunlardan sonra Bakıda "erməni məhbusların" mövcudluğunun, guya, Azərbaycan və Ermənistan liderlərinin ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə ötən il avqustun 8-də imzaladıqları Birgə Bəyannaməyə zidd olduğunun vurğulanması isə aşkar həyasızlıqdır. İndi isə bir başqa məqama diqqət yetirək.

Aydındır ki, cənab Vensin Ermənistana və Azərbaycana səfəri, ümumən, Cənubi Qafqazda sülh gündəliyini irəli aparmaq məramına söykənir. Sülhün bəlli parametrləri var və onlar həm haqqında söz açdığımız Birgə Bəyannamədə, həm də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda parafladıqları sülh müqaviləsinin mətnində əksini tapır. Yəni başıpozuqların qaldırdıqları "xüsuslar" sülh gündəliyinə qətiyyən uyğun deyil.

Bəli, İrəvanda mitinq təşkil etmək istəyənlər də, onların xaricdəki dəstəkçiləri də reallığın fərqindədirlər. Ayının min oyunu isə bir armudun başındadır. "Ayılar", ümumən, sülhü pozmağa, Vensin bölgəyə səfəri ilə barış gündəmini irəliyə doğru aparmaq istəklərinə demarş yolu tutur, elə təsəvvür formalaşdırmağa çalışırlar ki, Bakı ilə İrəvan arasında normal münasibətlər mümkünsüzdür. Əslində, bu yanaşma ABŞ-ın hazırkı administrasiyasının regional gündəminə zərbə vurmağa hesablanıb.

Birmənalı şəkildə deyə bilərik ki, nə ANCA-çılar, nə də onların Ermənistandakı tərəfdarları Vensin kimlərinsə azad olunmaları üçün təşəbbüs göstərməsini istəmirlər. Başıpozuq revanşistlər üçün ən uyğun variant məhbus kimi qələmə verdikləri şəxslərin həbsxanada qalmaları, hətta orada çürümələridir. Onlar həbsxanada qalmalı və çürüməlidirlər ki, Azərbaycan və Ermənistan arasında düşmənçilik gündəmi saxlanılsın.

Bəli, Ermənistandakı başıpozuqlar və onların dəstəkçiləri üçün beynəlxalq hüquq, qanunların aliliyi anlayışı yoxdur. Bu tipajlar Vensin səfəri xüsusunda vay-şivən qaldırmaqla, həm də Azərbaycan rəhbərliyinin, belə demək mümkünsə, humanizm pəncərəsini bağlayacağına ümid bəsləyirlər. Tam aydındır ki, onlar bir müddət əvvəl rəsmi Bakının 4 erməni əsilli şəxsi İrəvana təhvil verməsini bədbinliklə qarşıladılar. Onlar, həmçinin, prosesin davamlı xarakter ala və digər şəxslərə də şamil oluna biləcəyindən əndişələnirlər.

Digər tərəfdən, Azərbaycan rəhbərliyi kimlərinsə təzyiq cəhdlərindən çəkinən deyil. Başıpozuqlar isə qəsdən xoşagəlməz durum formalaşdırırlar ki, ölkəmiz daha qətiyyətli davransın. Amma rəsmi Bakı hər bir halda qətiyyətli və prinsipialdır. O cümlədən, erməni əsilli şəxslərə qarşı. O şəxslərə ki, ərazilərimizdə çoxsaylı cinayətlərdə ittiham ediliblər və barələrində məhkəmə hökmləri çıxarılıb. Bu hökmlər qanunidir, beynəlxalq hüquq normalarına tam uyğundur. Azərbaycanın humanizminə sığınmağın yolu isə kimlərdənsə mədət ummaqda deyil. Qara-qışqırıq, vay-şivən qaldırmaq da mənasız və səmərəsizdir. Ümumən, Azərbaycanla təzyiq dilində danışmağın fayda vermədiyi beynəlxalq müstəvidə, demək olar, hər kəsə yaxşı məlumdur.

***Ə.RÜSTƏMOV***
***XQ***

## Ruben Vardanyanın məhkəməsi bu gün davam etdiriləcək

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə iclası fevralın 10-da davam etdiriləcək.**

Bu barədə AZƏRTAC-a Bakı Hərbi Məhkəməsindən məlumat verilib.

Qeyd edək ki, R.Vardanyanın 2025-ci il dekabrın 30-na təyin olunmuş məhkəmə prosesi qeyri-müəyyən müddətədək təxirə salınmışdı. Buna səbəb həmin cinayət işi üzrə hakimlər Zeynal Ağayevin sədrliyi ilə Anar Rzayevdən və Camal Ramazanovdan ibarət məhkəmə heyətinin (ehtiyat hakim Günel Səmədova) digər iş (15 nəfər Ermənistan vətəndaşının barəsində cinayət işi) üzrə məhkəmə iclasında müşavirəyə getməsi idi.

***XQ***

# Hərb və sülh arasında seçim



## II MƏQALƏ

### Azərbaycan: yeni geosiyasi əlaqələr

Qlobal əlaqələrin yeni formalarının meydana gəldiyinə əmin olan siyasi dairələr bağlanan müqavilələrdə də bu prosesin əksini tapdığından bəhs edirlər. Yeni əlaqələr çeşidində praqmatiklik, mütəhərriklik və situativliyi ayarıca vurğulayırlar. Bu faktorların hər birinin özünəxas siyasi və geosiyasi anlamı vardır.

Praqmatiklik hər bir dövlətin və ya dövlətlər qrupunun milli maraqlardan çıxışı edərək əməkdaşlığa istiqamətlənmiş fəaliyyətini nəzərdə tutur. Bu zaman başqa dövlətlərin milli maraqlarına qarşı çıxmamaq əsas şərtlərdən biri hesab olunur.

Mütəhərriklik sürətlə dəyişən qlobal mühitə adaptasiyanı milli maraqlara uyğun reallaşdırmağa işarədir. Özlüyündə bu proses çox mürəkkəbdir. Çoxlu sayda faktoru qarşılıqlı əlaqədə nəzərə almaq lazım gəlir. Bu anlamda mütəhərriklik həm də çevik diplomatiyanı ehtiva edir. Əgər diplomatik mütəhərriklik müxtəlif istiqamətlərdə eyni dərəcədə reaksiya vermək qabiliyyətini nəzərdə tutursa, çeviklik bu prosesin sürətinə (və ya reallaşma tezliyinə) aiddir.

Nəhayət, situativlik regiondan və konkret dövlətin identikliyindən asılı olaraq əhəmiyyətli sayılan sfera üzrə əməkdaşlığa aid müqavilələrin imzalanmasını nəzərdə tutur ki, bu da vəziyyətin dəyişməsi ilə yeni məzmunda sazişləri stimullaşdıra bilər. Situativlik diplomatiyada kontekstə uyğun müsbət nəticəverici fəaliyyətlə bağlıdır. Hər bir əhəmiyyətli geosiyasi situasiyada uğura hesablanmış addımlar atılmalıdır. Lakin mövcud situasiya üçün tətbiq edilən fəaliyyət üsulları statikləşdirilməməli, yeni vəziyyətlərə uyğun yeniləşmə potensialı saxlanmalıdır. Eyni zamanda, situasiyalar bir-biri ilə milli maraqlar zəminində daxili bağlantılara malik olmalıdırlar.

Deməli, yeni geosiyasi əlaqələrin fəlsəfəsində konkret məqsədyönlü müqavilələr daha səmərəli hesab olunurlar.

### Dövlətin gücü və güc balansı

Vurğulanan dinamika konseptual səviyyədə 2 mühüm geosiyasi faktorun daha da aktuallaşması fonunda özünü göstərir. Onlardan biri "dövlətin gücü", digəri isə "güc balansı şəbəkəsi" anlayışlarıdır. Azərbaycanın əməkdaşlıq və təhlükəsizliyin təmini üzərində sülhsevər dövlət identikliyi üçün bu iki anlayış ayrıca əhəmiyyət daşıyır. Çünki hər ikisi "infrastruktur diplomatiyası" adlanan fenomenin mühüm faktorları sırasındadırlar. Azərbaycanın orta güc kimi formalaşmasında bu parametrlərin rolu xüsusidir. Məsələnin bu aspekti üzərində dayanaq.

### İnfrastruktur diplomatiyası

İndi bu anlayış analitiklər tərəfindən tez-tez işlədilir. Ümumi anlamı ölkənin xarici siyasətinin başlıca məqsədinin dövlətin müxtəlif sferalar üzrə infrastruktur yaratması xəttiylə bağlılığından qaynaqlanır. Müasir geosiyasətdə bu kontekstdə əsas olaraq Çin və Qərbin infrastruktur diplomatiya nümunəsindən danışırlar. Çin üçün bu "Bir kəmər, bir yol" layihəsi, Qərb üçün isə "Quad"la (Quad - ABŞ, Yaponiya, Hindistan, Avstraliya "dördlüyü") əlaqəli təhlil edilir. Lakin onlarla yanaşı, orta güc ranqında olan dövlətlərin də özünəməxsus infrastruktur diplomatiyası nümunələri mövcuddur. Azərbaycan bu məsələdə xüsusi diqqətə layiq təcrübəyə malik dövlət halına gəlmişdir. Bu bağlılıqda Prezident İlham Əliyevin "biz əsasən infrastruktur layihələrinə sərmayə yatırmışıq" fikri daha dərin qatlarda məna çalarlarına malik siyasi tezis təsiri bağışlayır.

2026-cı ilin yanvarında Davos Forumunda suallara cavabı zamanı dövlət başçısı vurğulamışdır: "Azərbaycana gəldikdə, bir daha qeyd edirəm ki, bizim coğrafi mövqeyimiz çox əlverişlidir. Bundan əlavə, biz müasir infrastrukturun yaradılmasına çoxlu investisiya yatırmışıq. İkincisi, qeyd etdiyiniz kimi, bizim nəsil çox gəncdir. Bizim əlavə və çox kreativ əmək ehtiyatlarımız var. Əlbəttə ki, biz təbii ehtiyatlarla – neft və qazla zənginik, bu da bizim üçün enerji təhlükəsizliyi yaradır. Ona görə də bizim qonşu ölkələr və çox sayda tərəfdaşlarımızla münasibətlərimiz qarşılıqlı maraqlara əsaslanır".

Deməli, infrastrukturun yaradılması birbaşa siyasi və diplomatik strateji mənaya malikdir. Burada yeni infrastruktur şəbəkəsinin formalaşdırılması əməkdaşlıq və qarşılıqlı faydalılıq əsasında milli təhlükəsizliyi təmin edir.

Bu faktorlar dövlətin beynəlxalq miqyasda fəaliyyətinə yeni fəlsəfi çalar qazandırır. Onu Azərbaycan Prezidenti aşağıdakı kimi ifadə etmişdir: "Bundan əlavə, biz bu və ya digər beynəlxalq qurumda təmsilçiliyimizlə bağlı hər bir məsələyə praqmatik yanaşırıq. Bu, bizə nə verəcək? Əgər, bu, bizə daha çox iqtisadi stimul, biznes üçün daha çox imkanlar, daha çox sabitlik və daha çox təhlükəsizlik verəcəksə, əlbəttə ki, biz bunu nəzərə alırıq. Biz bir sıra beynəlxalq institutların üzvüyük".

Bu fikirlərdə infrastruktur diplomatiyasının dövlətə verdiyi töhfələrin bir qismi ifadə edilmişdir. Onlardan görünür ki, müstəqil inkişaf əməkdaşlıq, qarşılıqlı faydalılıq, təhlükəsizlik, sabitlik və yeni əmək ehtiyatları faktorları ilə fərqli dinamika alır. Məsələ bununla məhdudlaşmır. Çünki infrastruktur diplomatiyası dövləti regionlararası və qlobal miqyaslarda anlamları olan yeni səviyyəyə çıxarır. Bu miqyasın isə öz aparıcı faktorları mövcuddur.

### Şəbəkələr balansı və güc

Praqmatik, mütəhərrik və situativ qlobal əlaqələr dövlətlərarası münasibətlərdə "bloklararası mübarizə" modelindən "şəbəkələr balansı" nümunəsinə keçid imkanı yaradır. İnfrastruktur diplomatiyası bu keçidin əsas mexanizmidir. Onun başlıca əlaməti gücün şəbəkə, tərəfdaşlıq və etibarlılıq vasitəsiylə formalaşması ilə əlaqəlidir. Bununla dövlətlərarası münasibətlərin ənənəvi ierarxiyasının "sərhədləri pozulur". Meydana yeni formalar və münasibətlər qaydaları çıxır. Onlar öz növbəsində orta güclər arasında tərəfdaşlıq "xəritəsi"ni yeniləşdirir. O cümlədən, bir-biri ilə "örtüşən tərəfdaşlıq modelləri" formalaşır. Bu proseslərdə iştirak edən dövlətin gücü vurğulanan tendensiyaların ortaq proyeksiyası olaraq əmələ gəlir.

Mürəkkəb mənzərədir, lakin "şəbəkələrin balansı" anlayışı onu izah edə bilir. İnfrastrukturlar fərqli regionlara aid olsalar da, onları birləşdirən ortaq geosiyasi və siyasi dəyər olmalıdır.

Məsələn, Azərbaycanın təşəbbüsü ilə Mərkəzi Asiyada, Cənubi Qafqazda, Yaxın Şərqdə və Avropada yaradılan infrastrukturlar "nöqtəvi" xarakter daşımırlar – onların hər biri digəri ilə "ana geosiyasi və əməkdaşlıq şərti" ilə bağlanırlar. Məsələnin də başlıca mahiyyəti bu məqamla bağlıdır.

Azərbaycan nümunəsində həmin şərt milli maraqlar, əməkdaşlıq, təhlükəsizlik, qarşılıqlı faydalılığın infrastrukturda ifadə olunan substantiv (əyaniləşmiş, konkret predmetik) və funksional aspektlərinin regionlararası miqyasda geosiyasi effekt verməsində ifadə olunur. Diplomatiyanın gücü bu məqamda özünü göstərir. Yəni infrastruktur şəbəkələri arasında geosiyasi müstəvidə daxili və dərin əlaqələrin praktiki fayda verməsini məhz diplomatiya təmin edir.

Çünki bu prosesdə şəbəkələr balansı üçün "layiqli və əsaslı etimad" məsələsi ilk sıraya çıxır. İnfrastrukturun yaradılmasında iştirak edən dövlətlər arasında tam əsaslı qarşılıqlı etimad və etibarlılıq mühiti formalaşırsa, münasibətlər şəbəkəsində sinerji əmələ gəlir. Sinerjinin əmələ gəlməsində şəbəkələrin balansı mühüm rol oynayır. Bununla davamlı sülh yaratmağa yetərli olan gücün formalaşmasının çox vacib bir aspekti aydınlaşır. Həmin aspekt çərçivəsində iki keyfiyyəti vurğulamaq lazımdır.

Birincisi, dövlətin öz regionunda praktiki olaraq milli təhlükəsizliklə əməkdaşlıq, tərəfdaşlıq və infrastruktur şəbəkəsini uyğunlaşdırmaq qabiliyyəti mütləq gərəkdir. Bunun praktiki nümunəsi Azərbaycan Prezidentinin aşağıdakı fikirlərində dolğun ifadə olunmuşdur. Dövlət başçısı demişdir: "Ölkə olaraq biz hər zaman diqqətimizi regional gündəliyimizə yönəldirik. Biz regionda istədiyimizə nail ola bilmiriksə, qlobal məqsədlərdən söhbət gedə bilməz. Ancaq bu gün biz paralel şəkildə gedən Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə yaxınlaşmasından bəhs edirik. Bu, mütləq paralel şəkildə və eyni vaxtda Türkiyə ilə Ermənistan və Azərbaycan ilə Ermənistan arasında diplomatik münasibətlərin qurulması ilə nəticələnəcək. Bununla da biz geniş coğrafi ərazidə, Avrasiyanın bir hissəsində bağlantı, enerji təhlükəsizliyi, sülh və sabitlik baxımından olduqca əhəmiyyətli addım atırıq. Bu, uzun illər davam edən müharibələrin əməkdaşlığa və tərəfdaşlığa çevrilməsinin nümunəsidir".

Regional miqyasda infrastrukturun yaradılması enerji təhlükəsizliyini, sülhü və sabitliyi təmin etməyə yönəldilmişdir ki, bir tərəfdən regional əməkdaşlıq və tərəfdaşlığa, digər tərəfdən isə Cənubi Qafqazı geosiyasi aspektdə bütövlükdə Avrasiyanın bir hissəsinə çevirməyə töhfədir. İnfrastrukturun substantiv gerçəklik kimi geosiyasi funksionallıq kəsb etməsi nümunəsi bundan ibarətdir.

İkincisi, dövlətin həmin sinerjini davamlı olaraq formalaşdırmaq üçün kifayət qədər təbii potensialı olmalıdır. Azərbaycan üçün bu funksiyanı yerinə yetirən faktoru ölkə rəhbəri dəqiq ifadə etmişdir: "Yenə də nə Cənubi Qafqazda, nə Orta Asiyada, nə yaxın qonşuluqda bizim qədər sərbəst enerji gücü ola biləcək ikinci ölkə yoxdur. Çünki bəzi ölkələr elektrikə çevirmək üçün xaricdən təbii qaz alır, bəzi ölkələr xaricdən elektrik enerjisi alır, çünki özləri üçün çatmır. Biz isə həm enerji satırıq, həm ixrac edirik - həm qaz, həm neft, həm neft məhsulları, həm neft-kimya məhsulları, həm də əsas xammal olan təbii qaz gübrələri. Yəni bizdə bütün sikl tam formalaşıb: həm daxili istehlak, həm ixrac".

Aydındır ki, dövlətin müasir anlamda real birləşdirici və sülhyaradıcı gücünün baza faktoru və ya stimulverici parametri olmalıdır. Çünki sülhyaradıcı və birləşdirici güc olmaq birdəfəlik aksiya deyildir. O, davamlı və həmişə təsirli olmalıdır. Azərbaycan üçün bu rolu ifadə edən əsas faktor sərbəst enerji gücüdür. Bu elə bir gücdür ki, yalnız ölkənin daxili potensialına aiddir və bu keyfiyyətdə həm substantiv, həm də funksional aktuallaşma özəlliyinə malikdir. Azərbaycan Prezidentinin gətirdiyi faktlar fonunda bir müqayisə aparaq.

Mərkəzi Asiya və Cənubi Qafqazda Azərbaycandan başqa özünəyetərli enerji imkanlarına malik ikinci dövlət yoxdur. Azərbaycan həm karbohidratlarla özünü təmin edir, həm də elektrik enerjisi ilə. Bunlarla yanaşı, günəş və külək enerjisi imkanalrına da malikdir. Buradan belə nəticə alınır ki, Azərbaycanda enerji təminatı o dərəcədə "sərbəstdir" ki, özünü tam təmin edə bilir. Eyni zamanda, Azərbaycan enerji növlərinin kompleks potensial gücündən istifadə edərək enerji ixracını da həyata keçirir. Bu iki aspektin cəmi Azərbaycanda sərbəst enerji gücünün kifayət qədər böyük olduğunu göstərir.

Sərbəst enerji gücünün sistemli və davamlı olaraq geosiyasi əməkdaşlıqda səmərə verməsi üçün uyğun infrastruktur yaradılmalıdır. Ölkə rəhbərliyi həm bu infrastrukturu yaradır, həm də onu geosiyasi əməkdaşlıq kontekstində funksionallaşdırır.

Beləliklə, Azərbaycanın sülhsevər dövlət identikliyinin təməlində orta güc kimi özəllikləri dayanır. Bu, dövlətin davamlı və dayanıqlı sülhsevər xarici siyasət yeritməsinə geniş imkanlar yaradır.

Azərbaycan dövlət olaraq sülhsevər mahiyyətlidir. Bu, bütövlükdə Avrasiyada yeni nümunədir. Artıq ekspertlər də bu faktı vurğulayırlar. Rumıniyalı ekspert T.Marin Azərbaycanın xarici siyasətinin böyük güclər arasında uğurla manevr etmək imkanı yaratdığını deyir. Bununla rəsmi Bakı regional və qlobal proseslərdə etibarlı tərəfdaş kimi nüfuz sahibidir. O cümlədən, indi aydındır ki, Azərbaycan Orta Dəhliz vasitəsi ilə Asiya ilə Avropa arasında ən etibarlı ölkə olaraq qəbul edilir. Bu fikrin arxasında məhz Azərbaycan Prezidentinin uğurla şəbəkələr balansını yaratmaq məharətinə malik olması gerçəkliyi dayanır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# İrəvan məhkəməsində "ölü diriltmə" tamaşası

*Yaxud separatçıların "bəlkə də qaytardılar" xülyası*

**İrəvan şəhəri üzrə ümumi yurisdiksiyalı mülki məhkəmə Azərbaycanın vaxtilə işğal altında olan torpaqlarındakı qondarma separatçı xunta rejiminin sonuncu başçısı Samvel Şahramanyanın 2023-cü il sentyabrın 28-də rejimin buraxılmasına dair imzaladığı fərmanın etibarsız olduğunu və bu sənədin "güc tətbiqi və ya güc tətbiqi hədəsi altında" imzalandığını tanıyıb. Bu barədə keçmiş qondarma qurumun "Ermənistandakı nümayəndəliyi" adlanan separatizm yuvasında jurnalistlərə açıqlamasında vəkil Roman Yeritsyan məlumat verib.**

Vəkil xatırladıb ki, daha əvvəl hakim Aşot Ovannisyanın sədrliyi ilə eyni məhkəmə S.Şahramanyanın Ermənistanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə və 9-cu siniflər üçün "Ermənistan tarixi" dərsliyinin müəllifi Njde Ovsepyana qarşı qaldırdığı iddianı rədd etsə də, qərarda mühüm hüquqi nəticələr əksini tapıb. Yeritsyanın sözlərinə görə, bundan əlavə məhkəmə iddiaçı S.Şahramanyanın şərəf və ləyaqətinin pozulmadığını bildirsə də, dərslikdə təqdim olunan məlumatların natamam olduğunu etiraf edib: "Beləliklə, məhkəmə iddiaçının narahatlığının qanuni və əsaslı olduğunu tanıyıb. Məhkəmə, həmçinin Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə dərslikdə məlumatların daha dolğun təqdim edilməsinin vacibliyini göstərib". O bildirib ki, dərslikdə heç olmasa "fərman"ın tam mətni, onun hansı şəraitdə, hansı motivlərlə qəbul edildiyi, güc və ya güc hədəsinin olub-olmaması, bu hədənin nədən ibarət olduğu, ən əsası isə həmin "fərman"ın Ermənistanda sonradan ləğv edildiyi əksini tapa bilərdi.



Yeritsyan iddia edib ki, məhkəmənin istifadə etdiyi formullar onların qismən də olsa "ədalətə nail olduqlarını" göstərir. "Bu baxımdan iddianın rədd edilməsinin Şahramanyanın məğlubiyyəti kimi təqdim olunması doğru olmazdı. Əksinə, o, istədiyi nəticəyə nail olub. Məhkəmə aktı fərmanın etibarsızlığını təsdiqləyib və dərslikdə məlumatın natamam verildiyini qeyd edib", – deyə vəkil bildirib.

Eyni zamanda, Yeritsyan istisna etməyib ki, cavabdeh tərəf məhkəmənin nəticələrindən apellyasiya şikayəti verə, iddiaçı tərəf isə qərardan şikayət edə bilər. Onun sözlərinə görə, onlar hökmün tam qüvvəyə minməsini gözləyirlər və bundan sonra Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə rəsmi müraciət edərək, məhkəmənin qəbul etdiyi mövqelərin, xüsusən də dərslikdə məlumatların tam şəkildə əks olunmasının nəzərə alınmasını xahiş edəcəklər.

Qeyd edək ki, özlərini ekspert adlandıran bəzi şəxslər "Ermənistan tarixi" dərsliyinin XIX əsrin sonundan XXI əsrin əvvəllərinədək olan dövrü əhatə edən yeni nəşrində keçmiş Qarabağ münaqişəsi ilə bağlı bir sıra qeyri-dəqiqliklər və yanlış ifadələr aşkarladıqlarını iddia ediblər. Bundan sonra, S.Şahramanyanın vəkilləri 2025-ci il sentyabr ayının əvvəlində onun adından Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə və digər məsul şəxslərə qarşı məhkəmədə iddia qaldırıblar. İddia 2020-ci ilin payızından 2023-cü ilin payızınadək Qarabağ ətrafında baş verən hadisələrlə bağlı dərslikdə yer alan "böhtan xarakterli" ifadələrlə əlaqədar qaldırılıb. Xüsusilə, dərslikdə "Samvel Şahramanyan "dqr"-in buraxılması haqqında fərman imzalayıb" və ya "Şahramanyan "dqr"i təslim edən şəxsdir" kimi formullar tənqid olunub. Yeritsyanın sözlərinə görə, Ermənistan hakimiyyəti bu yolla "dqr"in itirilməsi ilə bağlı məsuliyyəti onun "rəhbərliyi"nin üzərinə atmağa çalışır.

Məhkəmənin qərarı ilk baxışdan sırf hüquqi müstəvidə təqdim olunsa da, mahiyyət etibarilə Ermənistanda separatçı və revanşist dairələrin yenidən fəallaşmasının növbəti əlaməti kimi qiymətləndirilə bilər. Çünki məhkəmə qərarının məhz indi gündəmə gətirilməsi və bunun "dqr"ın Ermənistandakı nümayəndəliyi" adlandırılan mənfur hücrədə xüsusi vurğu ilə ictimailəşdirilməsi təsadüfi görünmür. Söhbət Azərbaycanın vaxtilə işğal altında olan ərazilərində mövcud olmuş qanunsuz rejimin özünü buraxması ilə bağlı addımdan gedir. Bu məsələ beynəlxalq hüquq baxımından çoxdan bağlanmış səhifədir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, separatçı rejim tarixə qovuşub.

Diqqəti cəlb edən məqamlardan biri də odur ki, məhkəmə faktiki olaraq Ermənistan cəmiyyətinə yönəlmiş bir mesaj verir. Bu mesaj ondan ibarətdir ki, separatçı rejimin son rəhbərliyi, guya, öz iradəsi ilə deyil, təzyiq altında qərar verib. Bu isə revanşist çevrələrin uzun müddətdir səsləndirdiyi tezislərlə üst-üstə düşür. Məqsəd aydındır: antiterror tədbirlərinin səbəblərini reallıqla deyil, yenə də miflərlə izah etmək və gələcəkdə yeni iddialar üçün zəmin yaratmaq.

Vəkilin açıqlamalarında dərslik məsələsinin xüsusi qabardılması da diqqətdən yayınmamalıdır. Tarix dərslikləri üzərindən aparılan mübahisələr əslində gənc nəslin şüurunda keçmişlə bağlı hansı tezislərin formalaşdırılacağı uğrunda gedən mübarizənin tərkib hissəsidir. Məsələnin digər tərəfi ondan ibarətdir ki, bu tip qərarlar Ermənistanın rəsmi şəkildə bəyan etdiyi sülh ritorikası ilə uyğun gəlmir. Bir tərəfdən Azərbaycanla münasibətlərin normallaşdırılmasından, regionda kommunikasiyaların açılmasından danışılır, digər tərəfdən isə daxildə separatçı keçmişi yenidən gündəmə gətirən addımlar atılır. Bu ziddiyyətli davranış regionda etimad mühitinin formalaşmasına xidmət etmir. Sadə desək, sülhə gedən yol keçmişin xəyalları ilə deyil, mövcud reallıqların qəbul edilməsi ilə mümkündür. Revanşist dairələrin fəallaşması hansısa dairələrə qısa müddətli daxili siyasi dividendlər gətirə bilər, amma uzunmüddətli perspektivdə bu yanaşma Ermənistanı yeni risklərlə üz-üzə qoyur. Bu baxımdan, İrəvanda baş verən son hadisə sülh gündəliyinə töhfə verməkdən daha çox, keçmişlə hesablaşmaqdan yayınmaq cəhdi kimi görünür. Regionun gələcəyi isə belə yanaşmalar üzərində deyil, qarşılıqlı öhdəliklərə və beynəlxalq hüququn tanınmasına əsaslanan real sülh üzərində qurula bilər.

**"Qafqaz Tarixi" Mərkəzinin rəhbəri, siyasi şərhçi Rizvan Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, bu məsələdə bizi daha çox Ermənistan məhkəməsinin istifadə etdiyi anlayışlar sistemi maraqlandırır. Onun sözlərinə görə, bu baxımdan revanşistlərin vəkili ilə razılaşmamaq çətindir: "Ermənistan məhkəməsi həqiqətən də qondarma separatçı rejimin ləğvi ilə bağlı qərarı legitim saymır və bunu onunla əsaslandırır ki, sözügedən fərman guya güc tətbiqi və ya güc tətbiqi hədəsi altında imzalanıb. Əgər bu güc tətbiqi dedikdə Azərbaycanın Silahlı Qüvvələrinin 2023-cü il sentyabrın 19–20-də Qarabağın "boz zona" adlandırılan ərazilərində keçirdiyi antiterror tədbirləri nəzərdə tutulursa, deməli, Ermənistan məhkəməsi bu əməliyyatın legitimliyini şübhə altına alır. Bu isə avtomatik olaraq Azərbaycanın Qarabağ üzərində suveren hüququnun inkarı, ölkəmizin ərazi bütövlüyünün tanınmaması anlamına gəlir". Ekspert qeyd etdi ki, məhkəmə tamamilə fərqli hüquqi arqumentlərə istinad edə bilərdi: "Məsələn, Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması faktına, o cümlədən 2022-ci il Praqa bəyanatına, baş nazir Nikol Paşinyanın bu mövzuda səsləndirdiyi şifahi açıqlamalara, ən əsası isə Vaşinqtonda qəbul edilmiş Birgə Bəyannaməyə diqqət çəkilə bilərdi. Həmin sənəddə Alma-Ata Bəyannaməsinə istinad edilir və eyni zamanda, Vaşinqtonda paraflanmış sülh sazişi layihəsi mövcuddur. Ümumiyyətlə, məhkəmə qondarma rejimin ləğvinin qanuniliyi məsələsinə toxunmaya da bilərdi, çünki iddia ərizəsi bunu nəzərdə tutmurdu".

R.Hüseynov onu da bildirdi ki, Ermənistan məhkəməsi bir tərəfdən ölkənin Konstitusiyasına əsaslanır və burada Qarabağ faktiki olaraq Ermənistanın bir hissəsi kimi təqdim olunur. Digər tərəfdən isə məhkəmə hər fürsətdə əsas qanundakı bu müddəaya sədaqətini nümayiş etdirməyə çalışır. Baş verənlər bir daha göstərir ki, Ermənistan Konstitusiyasına dəyişikliklərin edilməsi zə ruridir.

***Səxavət HƏMİD***
***XQ***

# TRIPP layihəsi Orta Dəhlizə yeni nəfəs gətirəcək

*Zəngəzur yolu ilə 2040-cı ilədək 865 min TEU yük daşınacaq*




**Avrasiyanın ən mühüm nəqliyyat bağlantılarından biri olan Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə (Orta Dəhliz) maraq hər keçən gün artır. Bunun əsas səbəbi odur ki, bu marşrut digər tranzit yolları ilə müqayisədə daha qısa və daha təhlükəsizdir. Xüsusilə Rusiya–Ukrayna müharibəsi və İran ətrafında yaranan gərginliklər fonunda Orta Dəhliz qlobal güclərin də diqqət mərkəzindədir.**

Məhz bu geosiyasi reallıq Orta Dəhlizin əhəmiyyətini daha da artırdığı kimi, Azərbaycanın regional logistika xəritəsində rolunu da ön plana çıxarır. Belə ki, Azərbaycanın Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi qlobal təchizat zəncirləri baxımından, o cümlədən "Bir kəmər, bir yol" təşəbbüsü və Orta Dəhliz çərçivəsində xüsusi əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, ötən il Orta Dəhliz üzrə yükdaşımalar 11 faiz, Şimal–Cənub dəhlizi üzrə isə yük həcmi 12 faiz artıb.

Bu artımın arxasında dayanan əsas amillərdən biri isə ölkədə aparılan iri infrastruktur modernləşdirmə layihələridir. Məsələn, Bakı–Tbilisi–Qars dəmir yolunun modernləşdirilməsindən sonra xəttin illik daşıma qabiliyyəti 5 milyon tona çatdırılıb. Bununla yanaşı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükötürmə gücünün 25 milyon tona qədər artırılması hədəflənir.

Nəticə etibarilə, logistika imkanlarının genişlənməsi artıq konkret göstəricilərdə də öz əksini tapır. Belə ki, 2025-ci ildə Bakı Limanında konteyner daşımalarının həcmi illik müqayisədə 40 faiz artaraq 107 min TEU həddini keçib. Paralel olaraq, mütəxəssislər Zəngəzur dəhlizinin (TRIPP) 2040-cı ilədək 865 min TEU-yadək yük axını yaratmaq potensialına malik olduğunu bildirirlər. Bu dəhliz eyni zamanda Avropa ilə Mərkəzi Asiya arasında etibarlı quru əlaqəsinin formalaşmasına imkan verə bilər.

Göründüyü kimi, Orta Dəhlizin mövqelərini gücləndirən əsas amillərdən biri də məhz Zəngəzur dəhlizinin (TRIPP) gələcəkdə istifadəyə verilməsi perspektividir. Bu kontekstdə Aİ tərəfindən maliyyələşdirilən meta-tədqiqatda qeyd olunur ki, Aİ-nin Qara dəniz regionuna strateji yanaşmasına görə bu region və ona qonşu ölkələr Avropanı Türkiyə, Cənubi Qafqaz və Mərkəzi Asiya ilə birləşdirən əsas nəqliyyat qapısı kimi qiymətləndirilir.

Digər tərəfdən, həmin tədqiqatda vurğulanır ki, Aİ üçün Türkiyə, Şərq Tərəfdaşlığı ölkələri, Cənubi Qafqaz və Mərkəzi Asiya ilə nəqliyyat əlaqələrinin inkişafı xammal və malların daha sürətli, etibarlı tədarükünü təmin edə və Avrasiya üzrə yeni bazarlara çıxışı genişləndirə bilər. Bu baxımdan Şimal Dəhlizinin etibarlılığının azalması və Cənub marşrutunun daha ləng inkişafı fonunda Transxəzər nəqliyyat dəhlizi Avropa ilə Asiya arasında daha dayanıqlı, şaxələndirilmiş və geosiyasi baxımdan təhlükəsiz alternativ kimi ön plana çıxır. Bundan əlavə, regionda yük axınının artması və 8 avqust tarixli Ermənistan–Azərbaycan razılaşması Transxəzər dəhlizinin perspektivlərini daha da gücləndirir.

Xatırladaq ki, 2025-ci ilin avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan ABŞ Prezidentinin iştirakı ilə Birgə Bəyannamə imzalayıblar. Sözügedən sənəddə regional əlaqələrin bərpası çərçivəsində Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə verilməsi nəzərdə tutulur.

Məhz bu səbəbdən, Orta Dəhlizin ən mühüm seqmentlərindən biri kimi Zəngəzur dəhlizi xüsusi əhəmiyyət daşıyır. Dəhliz şübhəsiz ki, ilk növbədə regionun inkişafına mühüm töhfə verəcək. Bu layihə bölgədə yeni əməkdaşlıq formatlarının formalaşmasına, eyni zamanda sülhün və davamlı tərəqqinin möhkəmlənməsinə xidmət edəcək.

Eyni zamanda, dəhliz boyunca inşa ediləcək dəmir yolu və avtomobil yolu infrastrukturu Azərbaycanın ərazisində Şərq–Qərb və Şimal–Cənub nəqliyyat marşrutlarına birbaşa inteqrasiya olunacaq. Azərbaycanın Xəzər dənizində yaratdığı ən böyük limanın imkanları, eləcə də işğaldan azad edilmiş ərazilərdə inşa edilən üç beynəlxalq hava limanı nəzərə alındıqda, belə nəticəyə gəlmək mümkündür ki, Zəngəzur dəhlizi beynəlxalq daşımalar üçün ən cəlbedici marşrutlardan birinə çevriləcək.

Beləliklə, bu proses Azərbaycanın gələcəkdə etibarlı tranzit ölkə kimi mövqeyini daha da gücləndirəcək və ölkəyə daha böyük həcmdə tranzit gəlirləri qazandıracaq. Bununla yanaşı, Zəngəzur dəhlizinin açılması məsələsində region ölkələrinin maraqları ilə Qərbin strateji yanaşması bir çox məqamda üst-üstə düşür.

Yeri gəlmişkən, hazırda Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında Zəngəzur dəhlizinin Trans-Avropa Nəqliyyat Şəbəkəsinə (TEN-T) daxil edilməsi məsələsi də gündəmin əsas mövzularından biridir. Bu istiqamətdə tərəflər arasında qarşılıqlı fikir mübadiləsi aparılır. Belə ki, ötən ay Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Avropa Komissiyasının Qonşuluq və Genişlənmə Danışıqları üzrə Baş direktoru Gert Yan Kupman ilə görüş keçirib. Görüş zamanı Naxçıvanın nəqliyyat infrastrukturunun inkişafı və bu istiqamətdə texniki-iqtisadi əsaslandırmanın hazırlanmasına başlanması müzakirə edilib.

Bununla yanaşı, süni intellekt və kibertəhlükəsizlik sahələrində insan resurslarının gücləndirilməsi, Aİ şirkətlərinin ölkəmizdə fəaliyyəti barədə fikir mübadiləsi aparılıb, Azərbaycanın Aİ-nin "Horizon Europe" proqramı çərçivəsində layihələrdə iştirak imkanları nəzərdən keçirilib. Eyni zamanda, görüşdə Orta Dəhlizin potensialının artırılması və rəqəmsallaşdırılması, eləcə də aviasiya, dəniz nəqliyyatı, süni intellekt və kibertəhlükəsizlik sahələrində Aİ ilə əməkdaşlıq imkanları da müzakirə olunub.

***Musa BAĞIRLI***
***XQ***

**Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti Babək Hüseynovun və "GL Group"un baş icraçı direktoru və Məşvərət Şurasının sədri Asif Zeynalovun iştirakı ilə rəhbər komitənin növbəti iclası keçirilib. Müzakirədə quruda yerləşən "Kürsəngi", "Qarabağlı", "Buzovna-Maştağa" və "Qala" və "Zirə" neft-qaz yataqlarında bu il üçün planlaşdırılan əməliyyat və investisiya istiqamətləri müəyyənləşdirilib, müqavilə sahələrində görülmüş işlərə nəzər salınıb.**

# Köhnə yataqların neft-qaz ehtiyatları tükənməyib

İki qurum arasında strateji əməkdaşlığın daha da genişləndirilməsi, istehsalat səmərəliliyinin artırılması və birgə layihələrin davamlı inkişafının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edən iclasda "Kürsəngi" və "Qarabağlı" neft yataqlarında fəaliyyət göstərən "Salyan Oil Ltd" əməliyyat şirkətinin, eləcə də "Buzovna-Maştağa", "Qala" və "Zirə" neft



yataqlarında fəaliyyət göstərən "Taghiyev Operating Company" MMC-nin 2025-ci il üzrə iş proqramı və büdcənin icrası, eləcə də cari il üçün təqdim edilmiş iş proqramı və büdcəsi müzakirə edilib.

Sonra iclas iştirakçıları "Salyan Oil Ltd" əməliyyat şirkətinin "Qarabağlı" yatağında yerləşən 6-cı sahəyə, "Kürsəngi" yatağında yeni istismara verilmiş neft quyusuna, həmçinin hazırda qazma işləri aparılan quyuya baxış keçiriblər.

Qeyd edək ki, "GL Group" Azərbaycanın Salyan rayonunda "Kürsəngi" və "Qarabağlı", Abşeron yarımadasında "Buzovna-Maştağa", "Qala" və "Zirə" də daxil olmaqla 5 neft və qaz yatağında əməliyyatlar aparır. Şirkətlər qrupunun portfelinə "Salyan Oil Limited" və "Taghiyev Operating Company" əməliyyat şirkətləri, həmçinin neft-qaz sənayesində texniki xidmətlər göstərən "GL Technical Services" şirkəti daxildir. "GL Group" 2024-cü ildə ilk beynəlxalq layihəsinə imza ataraq Türkiyənin Trakya hövzəsində yüksək perspektivli qaz yatağında 100 faiz pay sahibi olan Kanadanın "Gazelle Energy Limited" şirkətinin 25 faiz payını satın alıb.

Yeri gəlmişkən, Azərbaycanın quru ərazisinin Kür çökəkliyində yerləşən "Kürsəngi" və "Qarabağlı" neft yataqları ötən əsri 60-cı illərindən istismar edilir. Sözügedən yataqların daxil olduğu blokun reabilitasiyası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü ilə bağlı saziş 1998-ci il dekabrın 15-də SOCAR, "Frontera Resorses" və "Delta/Hess" Ltd. şirkətləri arasında imzalanıb. "Kürsəngi" və "Qarabağlı" neft yataqlarında işləri həyata keçirmək üçün "Salyan Oil Ltd." əməliyyat şirkəti yaradılıb. 2002-ci ilin mart ayından "Frontera Resorses" və "Delta/Hess" Ltd. şirkətlərinin saziş paylarını Çin Milli Neft Korporasiyası alıb.

450 kvadratkilometr ərazini əhatə edən müqavilə sahəsində işlənmə dövründə 808 quyu qazılıb. Həmin quyuların 494 quyu "Kürsəngi", 314-ü isə "Qarabağlı" yataqlarında yerləşir.

***XQ***

# "Qızıl ədviyyat"ın tarixi dəyəri

*Bəs bu gün daha çox zəfəran yetişdirilməsinə nə mane olur?*

**Mətbəximizin "qızıl" ədviyyatı sayılan zəfəran hər zaman böyük zəhmətlə hasilə gəldiyi kimi, yüksək də dəyər daşıyıb. Təsadüfi deyil ki, bəzən zəfəran qızıldan da baha olub.**

Zəfəran yalnız özünəməxsus dadı və rəngi ilə deyil, həm də istehsal prosesinin mürəkkəbliyi, məhsuldarlığın son dərəcə aşağı olması və məhdud təklif səbəbindən dünyanın ən bahalı ədviyyatlarından biri hesab olunur.

Beynəlxalq ərzaq nəşrlərinin məlumatına görə, 450 qram zəfəran əldə etmək üçün, təxminən, 75 min zəfəran çiçəyi tələb olunur. Hər çiçəkdən isə yalnız 3 incə sap əldə edilir. İlk baxışda cazibədar qırmızı rəng kimi görünən zəfəran, əslində, minlərlə çiçəyin zəhmətlə toplanmış nəticəsidir. Məhz bu səbəbdən zəfəranın topdan



satış qiyməti dünya bazarında kiloqramla 2–5 min dollar arasında dəyişir və pərakəndə satışda bu rəqəm daha da yüksəlir.

Zəfəranın bahalığının əsas səbəblərindən biri məhsuldarlığın son dərəcə aşağı olmasıdır. Bu bitki yalnız payız mövsümündə – əsasən oktyabrın sonu və noyabrın əvvəllərində cəmi iki həftəlik qısa yığım dövründə toplanır. Əkin aparıldıqdan sonra isə ilk məhsulu əldə etmək üçün 2–3 il gözləmək tələb olunur.

Qızıl ədviyyatın istehsalında əl əməyinin payı da olduqca böyükdür. Çiçəklər səhər tezdən, hələ açılmamış halda toplanır, narıncı saplar bir-bir əl ilə ayrılır və xüsusi temperatur rejimində qurudulur. Bu prosesdə hər hansı mexaniki üsuldan istifadə mümkün deyil. Nəticədə zəfəran istehsalı yüksək diqqət, səbir və dəqiqlik tələb edən bir sahəyə çevrilir.

Onun yetişdirilməsi iqlim və torpaq baxımından da həssasdır. Bitkinin soğanları artıq nəmliyi sevmir; həddindən artıq yağış çürüməyə, su azlığı isə zəif çiçəklənməyə səbəb olur. Abşeronun iqlim şəraiti zəfəran üçün uyğun sayılsa da, son illər iqlim dəyişiklikləri bu sahəyə də təsirsiz ötüşmür. Payız yağışlarının qeyri-sabitliyi məhsuldarlığa birbaşa təsir göstərir.

Torpaq problemi də aktuallığını qoruyur. Abşeron ərazisində intensiv tikinti işləri yeraltı suların səviyyəsini dəyişir, bəzi sahələrdə torpağın su ilə yüklənməsi zəfəran soğanlarının zədələnməsinə gətirib çıxarır. Bundan əlavə, zəfəran kimyəvi gübrələrə qarşı həssas bitki olduğundan onun becərilməsi ekoloji cəhətdən daha diqqətli yanaşma tələb edir.

Azərbaycanda zəfəran qiymətləri bu məhsulun necə böyük zəhmət və məhdud istehsal hesabına əldə olunduğunu açıq şəkildə göstərir. Bu gün bazarda keyfiyyətli yerli zəfəranın 1 qramı adətən 35–50 manat aralığında təklif olunur, daha ucuz məhsullar isə çox vaxt keyfiyyət və mənşə baxımından suallar doğurur. Qiymət fərqi zəfəranın təmizliyi, yığım üsulu və qurudulma texnologiyası ilə birbaşa bağlıdır. Məhz buna görə zəfəran təkcə mətbəx ədviyyatı kimi deyil, yüksək dəyərli kənd təsərrüfatı və ixrac potensialı olan strateji məhsul kimi qiymətləndirilir.

Bu gün Azərbaycanda zəfərançılığın yenidən dirçəldilməsi istiqamətində müəyyən addımlar atılır. Zəfəran ənənəvi olaraq Abşeron yarımadasında yetişdirilsə də, hazırda dövlət bu sahəyə marağın artırılmasını prioritet hesab edir. Yaxın illərdə zəfəran istehsalının genişləndirilməsi ilə bağlı xüsusi proqramların hazırlanması nəzərdə tutulur. Dünya zəfəran bazarında dominant mövqeyə malik ölkələrlə müqayisədə Azərbaycan zəfəranı keyfiyyət göstəricilərinə görə geri qalmır. Hazırda ölkədə zəfəran əkin sahələri məhduddur.

Sovet dövründə yüzlərlə hektar ərazidə zəfəran becərildiyi halda, bu gün əsas əkin sahələri Abşeronun ayrı-ayrı qəsəbələri ilə məhdudlaşır. Bununla belə, gələcəkdə sahələrin genişləndirilməsi və fermerlərə dəstək mexanizmlərinin tətbiqi planlaşdırılır. Zəfəranın dərman sənayesində, qida istehsalında və kosmetika sahəsində geniş istifadə imkanları onun iqtisadi dəyərini daha da artırır.

Özəl sektor da bu prosesdən kənarda qalmır. Yerli istehsalçılar zəfəran əsasında yeni məhsullar – qida, kosmetik və sağlamlıq vasitələri hazırlayaraq xarici bazarlara çıxış əldə edirlər. Bu cür təşəbbüslər zəfəranın yalnız ədviyyat kimi deyil, yüksək dəyərli ixrac məhsulu kimi formalaşmasına şərait yaradır.

***XQ***

# BVF-nin ölkəmizlə bağlı nikbin proqnozu

**Beynəlxalq Valyuta Fondu (BVF) 2026-cı ildə Azərbaycanın qeyri-neft iqtisadiyyatında, təqribən, 4 faizə yaxın artım olacağını proqnozlaşdırır. Qurumun məlumatına əsasən, bu il ölkəmizdə ümumi iqtisadi artımın, təxminən, 2,5 faiz olacağı və növbəti illərdə də bu səviyyə ətrafında qalacağı gözlənilir.**



Qeyd olunub ki, bu bərpa 2025-ci ildə müşahidə olunan daha zəif artımdan sonra iqtisadiyyatın tədricən normallaşmasını əks etdirir. Xüsusilə neft sektorunda istehsalın azalmasının 2026-cı ildə cəmi 0,5 faiz olacağı gözlənilir ki, bu da ümumi iqtisadi artıma mənfi təsirin məhdud qalacağını göstərir. Qeyri-neft iqtisadiyyatında artımın 3,7 faiz səviyyəsinə yüksəlməsi əlverişli baza effektləri və neft qiymətlərinin yüksək səviyyədə qalacağı fərziyyəsi fonunda mümkün olacaq.

Yeri gəlmişkən, BVF-dən bildiriblər ki, Orta Dəhliz və "yaşıl enerji dəhlizləri"nin inkişafı Azərbaycanın iqtisadi artım potensialını artırmaq üçün mühüm imkanlar yaradır. Bu baxımdan əlaqəliliyin genişləndirilməsi və yeni nəqliyyat marşrutlarının formalaşması Azərbaycanın ixracın diversifikasiyası gündəliyini irəlilətməsi və özəl sektorun iqtisadiyyatda iştirakını gücləndirməsi baxımından əhəmiyyətlidir. Fondun qiymətləndirməsinə görə, bu imkanlardan tam yararlanmaq üçün Azərbaycan zəruri islahatların həyata keçirilməsini davam etdirməlidir. BVF dövlət müəssisələrinin fəaliyyətinin və idarəetməsinin yax-




şılaşdırılmasının, dövlətin iqtisadiyyatda rolunun tədricən azaldılmasının, antikorrupsiya tədbirlərinin gücləndirilməsinin və kapital bazarlarının dərinləşdirilməsinin vacibliyini vurğulayıb.

***XQ***

# Pensiyaçılara şad xəbər

## *Yaşlı nəsil növbəti ödənişi artırılmış məbləğlə alacaq*

**Prezident İlham Əliyevin “Əmək pensiyalarının indeksləşdirilməsi haqqında” 9 fevral 2026-cı il tarixli sərəncamı Azərbaycanda sosial siyasətin ardıcıl və sistemli xarakter daşıdığını bir daha təsdiqləyir. Bu sənəd pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, onların maddi rifahının yaxşılaşdırılması və sosial təminatın dayanıqlılığının artırılması istiqamətində növbəti mühüm addım kimi qiymətləndirilir.**

Sərəncama əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2026-cı il yanvarın 1-dək təyin edilmiş bütün pensiyalar Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumatlara uyğun olaraq, 2025-ci il üzrə orta aylıq əməkhaqqının illik artım tempinə uyğun şəkildə indeksləşdirilir. Beləliklə, 2026-cı il yanvarın 1-dən etibarən pensiyalar 9,3 faiz artırılır. Bu artım pensiyaçıların gəlirlərinin inflyasiya və əməkhaqqı artımı fonunda real dəyərinin qorunmasına xidmət edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin açıqlamasına görə, pensiyaların artırılması prosesi vətəndaşların müraciətinə və əlavə sənəd təqdim etməsinə ehtiyac olmadan, elektron informasiya sistemləri vasitəsilə avtomatik şəkildə həyata keçirilir. Pensiyalara yanvar ayı üzrə edilən artımlar fevral ayının pensiyası ilə birlikdə ödəniləcək. Bu isə pensiyaçıların artıq fevral ayından etibarən yeni məbləğdə pensiya almaları ilə yanaşı, yanvar ayına aid artım məbləğini də əldə etmələri deməkdir.

Pensiyaların indeksləşdirilərək artırılması bütün kateqoriyalardan olan pensiyaçıları – mülki şəxslərlə yanaşı, hərbi qulluqçuları, hüquq-mühafizə orqanlarının əməkdaşlarını və digər xüsusi statuslu şəxsləri də əhatə edir.

Ümumilikdə bu artım 1,1 milyon pensiyaçıya şamil olunur və bunun üçün dövlət büdcəsindən illik əlavə 640 milyon manat vəsait ayrılıb. Bu fakt dövlətin sosial öhdəliklərinə sadiqliyini və vətəndaşların sosial rifahını prioritet kimi qəbul etdiyini göstərir.

Sərəncama uyğun olaraq, sığortaolunanların fərdi hesablarında 2026-cı il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalları da indeksləşdirilir. Belə ki, pensiya kapitalları ötən il üzrə istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq 5,6 faiz artırılır. Bu mexanizm sosial sığorta sistemində iştirak edən şəxslərin gələcək pensiya hüquqlarının qorunmasına və onların uzunmüddətli sosial təminatının möhkəmləndirilməsinə xidmət edir. Eyni zamanda, bu yanaşma göstərir ki, pensiya kapitallarının artımı yalnız əməkhaqlarından edilən sosial sığorta ayırmaları hesabına deyil, dövlətin fəal sosial siyasəti çərçivəsində də dəstəklənir.




Xatırladaq ki, pensiyaların indeksləşdirilərək artırılması Azərbaycanda hər il dövlət başçısının sərəncamları əsasında həyata keçirilən davamlı sosial siyasətin tərkib hissəsidir. Pensiyaların əvvəlki ilin orta aylıq əməkhaqqı artımına uyğun indeksləşdirilməsi pensiyaçıların maddi rifahının yüksəldilməsi və onların həyat şəraitinin yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Son illərin statistik göstəriciləri göstərir ki, ölkədə orta aylıq əməkhaqqının davamlı artımı pensiyaların indeksləşdirilməsi səviyyəsinə də müsbət təsir göstərib. Belə ki, 2023-cü ildə pensiyaların artım tempi 14,7 faiz, 2024-cü ildə isə 11,2 faiz təşkil edib. Bu dinamika sosial siyasətin real nəticələr verdiyini və pensiyaçıların həyat səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl layihələrin həyata keçirilməsini nümayiş etdirir.

Yeri gəlmişkən, 2023-cü ildən etibarən pensiya artımları sahəsində vahid indeksasiya metodunun tətbiqi sosial təminat sistemində daha ədalətli və şəffaf mexanizmin formalaşmasına şərait yaradıb. Bu metod bütün kateqoriyalardan olan pensiyaçıların pensiyalarının vahid yanaşma ilə artırılmasına imkan verir və sosial ədalət prinsipinin daha dolğun şəkildə reallaşmasına xidmət edir.

Pensiyaların indeksləşdirilməsi prosesinin tam elektronlaşdırılması isə sosial sahədə rəqəmsal transformasiyanın mühüm elementidir. Elektron sistemin tətbiqi pensiyaçıların əlavə prosedurlarla üzləşmədən, avtomatik şəkildə artımlardan faydalanmasını gerçəkləşdirir, eyni zamanda, prosesin operativliyini və şəffaflığını artırır. Bu yanaşma dövlətin sosial siyasətində müasir idarəetmə modelinin formalaşdığını göstərir.

Pensiya sahəsində aparılan islahatlar, ümumilikdə, sosial ödənişlərin və sosial layihələrin geniş əhatəliyi ilə müşayiət olunur. Son illərdə minimum əməkhaqqının və minimum pensiyanın dəfələrlə artırılması, şəhid ailələri və müharibə iştirakçıları üçün sosial paketlərin genişləndirilməsi, ünvanlı dövlət sosial yardımının həcminin yüksəldilməsi, əlilliyi olan şəxslərin sosial təminatının gücləndirilməsi, çoxuşaqlı ailələrə verilən müavinətlərin artırılması, tələbələr və gənclər üçün təqaüd proqramlarının genişləndirilməsi sosial siyasətin əsas istiqamətləri sırasında yer alır.

Bununla yanaşı, DOST mərkəzləri vasitəsilə sosial xidmətlərin vahid pəncərə prinsipi əsasında göstərilməsi, sosial ödənişlərin elektronlaşdırılması, məşğulluq proqramlarının genişləndirilməsi, özünüməşğulluq layihələri, aktiv əmək bazarı tədbirləri və peşə hazırlığı proqramları sosial layihələrin institusional əsaslarını möhkəmləndirib. Dövlət tərəfindən həyata keçirilən sosial mənzil layihələri, ipoteka mexanizmlərinin təkmilləşdirilməsi, regionlarda sosial infrastrukturun – məktəblərin, xəstəxanaların, uşaq bağçalarının və sosial xidmət müəssisələrinin tikintisi və yenidən qurulması da sosial rifahın yüksəldilməsinə yönələn kompleks siyasətin tərkib hissəsidir.

Aparılan islahatlar nəticəsində pensiya ödənişləri üzrə ayrılan vəsaitlərin həcmi davamlı şəkildə artıb. Ümumilikdə pensiyalar üzrə illik vəsait 2018-ci ildən bəri, təxminən, 2 dəfə yüksəlib. Bu artım dövlətin sosial siyasətinin strateji prioritet olduğunu və pensiyaçıların rifahının daim diqqət mərkəzində saxlanıldığını göstərir.

Ümumilikdə demək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial islahatlar yalnız iqtisadi inkişafı deyil, eyni zamanda, sosial ədalətin möhkəmləndirilməsini, sosial risklərin azaldılmasını və əhalinin həyat səviyyəsinin yüksəldilməsini hədəfləyir. Pensiyaların indeksləşdirilərək artırılması bu siyasətin mühüm tərkib hissəsi olmaqla yanaşı, dövlət-vətəndaş münasibətlərində sosial məsuliyyət prinsipinin əyani təzahürüdür. Bu istiqamətdə atılan addımlar ölkədə sosial rifahın davamlı artımını gerçəkləşdirməklə yanaşı, uzunmüddətli sosial-iqtisadi inkişaf üçün möhkəm əsaslar formalaşdırır.

***Vaqif BİNYATOĞLU***
***XQ***

*Biz deməsək...*

# İşbazların mənzil bazarı fırıldaqları

## *Ev-eşik sahibi olmaq istəyənlərin taleyi ilə oynayanlar kimlərdir?*



**Azərbaycanda minlərlə ailə üçün mənzil almaq daimi ünvan sahibi olmaq uğrunda mübarizəyə çevrilib. Bu qərar illərlə yığılan vəsaitin, kredit öhdəliklərinin və gələcək planların əsasında verilir. Lakin son illər tikinti sektorunda baş verən dələduzluq halları, xüsusilə eyni mənzilin bir neçə şəxsə satılması, tikinti öhdəliklərinin yerinə yetirilməməsi, xəbərdarlıq edilmədən söküntülərin aparılması vətəndaşların bu sektora olan inamını ciddi şəkildə sarsıdır.**

Konkret faktlar isə sistemli problemin əyani göstəricisidir. Məsələn, redaksiyamıza müraciət edən vətəndaş Rəna Əsgərova Xətai rayonunun Nəcəfqulu Rəfiyev küçəsində yerləşən özünə məxsus qeyri-yaşayış sahəsinin tikinti şirkəti tərəfindən dağıdıldığını bildirir. O, söküntü zamanı ona əvvəlcədən xəbərdarlıq, yaxud hər hansı rəsmi müraciət olunmadığını iddia edir. Şikayətçinin vəkili Raman Abışov isə ötən il dekabrın 2-də sözügedən qeyri-yaşayış sahəsinin sökülməsi nəticəsində yaranan uçqun zamanı obyektin daxilində olan əşyaların da yararsız vəziyyətə salındığını və bununla bağlı Xətai Rayon Məhkəməsinə müraciət ünvanlandığını diqqətə çatdırır.

Paytaxtın Nərimanov rayonunun bir qrup sakini isə bildirir ki, onların Qarabağ, 39 ünvanında yaşadıqları evləri “EZ Residence” şirkəti söküb. Adıçəkilən şirkət həmin ərazidə tikiləcək binadan onların mənzillə təminatı ilə bağlı müqavilə imzalayıb. Lakin artıq 5 ildir ki, verilən vəd söz olaraq qalıb. Düzdür, indiyədək kirayə pulları gecikdirilmə ilə olsa da ödənilib. Ancaq mənzil öhdəliyi hər gün, hər ay bir bəhanə ilə uzadılıb. Sonda isə həmin sakinlərə belə tezliklə ev veriləcəyinin mümkünsüzlüyü bildirilib.

Yaxud başqa bir fakt. Rövşən Quluzadə “İnşaat konstruksiyaları” şirkəti ilə 85 min manatlıq müqavilə bağlayaraq, maliyyə arayışı əsasında mənzil aldığını və bunun üstündən, təxminən, bir ay ötəndən sonra geri qayıdıb orada başqa bir ailənin yaşadığını deyir. Şirkətin rəhbəri isə işçilərinin onun razılığı olmadan saxta sənədlə həmin evin başqa bir şəxsə satıldığını vurğulamaqla özünü günahsız sayır. Şikayətçi R.Quluzadə aylardır ki, gününün məhkəmələrdə keçdiyini, üzləşdiyi ədalətsizliyə qarşı mübarizədə haqqın qalib gələcəyinə artıq inamının sarsıldığını vurğulayır.

Bütün bunlar ölkədə mənzil dələduzları tərəfindən yüzlərlə ailənin mənzil almaq istəyinin üstündən xətt çəkildiyini, illərlə yığılan vəsaitin və gələcək planların risklə üzləşdiyini deməyə əsas verir. Tikinti şirkətləri isə bu haqlı narazılığı çox vaxt parlaq reklamlarla, cazibədar endirimlərlə və “tezliklə çıxarış veriləcək” vədləri ilə ört-basdır etməyə çalışır. Ona görə də mənzil bazarında bu gün əsas sual qiymət yox, hüquqi təminatdır. Təcrübə isə həm də onu göstərir ki, tikinti sektorunda problemlər bina hazır olandan, pul tam ödəniləndən sonra üzə çıxır. Alıcı isə həmin vaxt artıq, necə deyərlər, zəif, gücsüz tərəfə çevrilir.

Sadalanan faktlar ayrı-ayrı təsadüfi hadisələr deyil. Bu hallar sistem xarakteri daşıyır və bir neçə mühüm problemi üzə çıxarır:

***– tikinti şirkətlərinin satış prosesinə nəzarətsiz səlahiyyətə malik olması;***

***– elektron reyestr və vahid satış platformasının yaradılmaması;***

***– qabaqcadan mülkiyyət qeydiyyatı mexanizminin tətbiq edilməməsi;***

***– alıcıların hüquqi savadlılıq səviyyəsinin aşağı olması.***

Yuxarıda qeyd etdiyimiz kimi, bu vəziyyətdə vətəndaş faktiki olaraq zəif tərəfə çevrilir. Çünki pul ödənildikdən sonra hüquqi müdafiə mexanizmi daha mürəkkəb və uzunmüddətli proses olaraq müşahidə edilir. Bu məqamda belə bir sual da ortaya çıxır: Hüquqi mexanizm mövcuddursa, bəs niyə tətbiq olunmur? Ekspertlər tərəfindən isə bu suala cavab olaraq bildirilir ki, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunun 17-ci maddəsi tikintisi başa çatmamış daşınmaz əmlak üzərində mülkiyyət hüququnun qabaqcadan dövlət qeydiyyatına alınmasına imkan verir. Bu norma, əslində, mənzil bazarında mühüm təhlükəsizlik mexanizmidir.

Hüquqşünasların da vurğuladığı kimi, əgər tikinti şirkətinin sənədləri qaydasındadırsa, torpaq sahəsi hüquqi cəhətdən təmizdirsə, layihə təsdiqlənibsə, o zaman şirkət binanın inşası prosesində belə mənzilə çıxarış təqdim edə bilər. Lakin bu, reallaşdırılmırsa, deməli, sənədlərin tam qaydaya salınmaması, eyni zamanda, mənzilin bir neçə nəfərə satılması riskinin mövcudluğu da ehtimal olunur. Beləliklə, problem qanunun olmamasında deyil, tətbiq mexanizminin sistemli şəkildə icra edilməməsi ilə bağlıdır.

Onu da xatırladaq ki, respublikada tikintiyə icazə mexanizmi mövcuddur. Belə ki, layihə təsdiqlənir, torpaq sənədləri yoxlanılır, şəhərsalma tələbləri müəyyən edilir. Lakin satış prosesi tikinti şirkətinin səlahiyyətində qalır. Bu isə risk yaradır. Başqa sözlə, şirkət rəhbəri möhür və imza səlahiyyətində tam sərbəstdir, amma elektron satış reyestri yoxdur. Buna görə də mənzilin neçə nəfərə satıldığını təkcə şirkətin özü bilir. Əslində isə tikintiyə dövlət nəzarəti varsa, satışa da eyni mexanizm tətbiq edilməlidir.

**Əmlak məsələləri üzrə ekspert Qabil Əhmədov** vətəndaşların mənzil alarkən aldadılması, eyni mənzilin bir neçə nəfərə satılması barədə söhbətində qeyd edir ki, vətəndaş istədiyi halda aidiyyatı qurumlara alacağı mənzilin sahibi, bina ilə bağlı daha ətraflı məlumat əldə etməsi üçün sorğu göndərə, məsələn, bina ilə bağlı məhkəmə hallarının, şikayətlərin olub-olmadığını öyrənə və bu məsələlərlə bağlı məlumat ala bilər. Yaxşı olar ki, tikinti sektorunda fəaliyyət göstərən bu cür MTK-lardan mənzil alan şəxs alqı-satqı prosedurunda birinci dəfə iştirak edirsə, o, hər hansı bir hüquqşünasa, vəkilə də müraciət etməlidir. Çünki sənədləşmələrin yoxlanılması və lazımi sualların tikinti şirkəti rəhbərinə verilməsi proseduru hüquqşünaslar, eləcə də vəkillər tərəfindən dolğun cavablandırıla bilər.

Q.Əhmədovun sözlərinə görə, vəkilin tikinti şirkətindən bina ilə bağlı tam rəsmi məlumatları əldə etməsinə səlahiyyəti çatır. Bəzən vətəndaş bu sənədlərin nə olduğunu müəyyənləşdirməkdə çətinlik çəkir və yaxud tələb edə bilmir. Buna görə də mənzil almaq istəyində olan şəxs maksimum bazar araşdırması aparmalı, yəni həmin şirkətin adını istənilən internet resurslarında axtarmalı və müəyyən məlumat əldə etməyə çalışmalıdır. Həmçinin ətrafdakı alqı-satqı ofislərindən də bina ilə bağlı maraqlana bilər. Təəssüflər olsun ki, hər hansı bir bina ilə bağlı tam məlumat əldə etmək üçün başqa bir metod nəzərə çarpmır.

Ekspert vurğulayır ki, burada günahkar təkcə MTK rəhbərləri deyil, həmçinin onlara bu şansı yaradan müəyyən qurumlardır. Yəni bir bina inşa olunan zaman aidiyyatı üzrə bütün dövlət qurumlarından təsdiqlənən sənədlər toplanılır. Daha sonra tikintiyə icazə verilir. Yəni bir şirkət bu qədər sənəd toplayırsa, təbii ki, onun satışına da nəzarət olunmalıdır. Amma satış səlahiyyəti tikinti şirkətinin üzərində olmamalıdır. Satış prosesinə şirkətlərin özləri məsul olduğuna görə vətəndaşların aldadılması hallarına rast gəlinir. Dünya praktikasına diqqət yetirsək, hər ölkədə bina inşa edən şirkətlər barədə məlumatlar müxtəlif mənbələrdən əldə edilir. Bəzilərində isə vətəndaş bələdiyyədən məlumat ala bilir.

Bəs çıxış yolu nədir? Ekspertlərin fikrincə, öncədən mülkiyyət qeydiyyatının məcburiləşdirilməsi zəruridir. Tikintisi başa çatmamış mənzillərin satışı yalnız dövlət reyestrində qabaqcadan qeydiyyat aparıldıqdan sonra mümkün olmalıdır. Bundan savayı, elektron vahid satış platforması yaradılmalı, başqa sözlə, mənzil tikintisi istiqamətində fəaliyyət göstərən bütün MTK və MMC-lərin satışları vahid dövlət platforması üzərindən aparılmalıdır. Hər bir mənzil üzrə sistem avtomatik bloklama tətbiq etməlidir.

Əlbəttə, bu məsələdə bank nəzarətli elektron sistemin qurulmasına da önəm verilməli, alıcının ödədiyi vəsait tikinti başa çatana qədər bank hesabında saxlanılmalıdır. Tikinti şirkətləri üçün sığorta mexanizminin yaradılmasına da üstünlük verilməlidir. Bu, reallaşarsa şirkət müflis olduqda və ya öhdəliyi yerinə yetirilmədikdə zərərçəkmiş vətəndaşın kompensasiyası gerçəkləşdirilə bilər.

### Xarici ölkələrdə belə məsələlər necə həll olunur?

Rusiyada son illər tikinti sektorunda dələduzluq hallarının qarşısını almaq üçün “esktron hesabları” sistemi tətbiq edilir. Bu modelə əsasən, alıcı tərəfindən mənzil üçün ödəniləcək vəsait tikinti şirkətinə yox, birbaşa bankdakı xüsusi hesaba yatırılır. Həmin vəsait yalnız bina istismara qəbul edildikdən sonra şirkətin hesabına köçürülür. Layihə yarımçıq saxlanıldığı təqdirdə, vəsait alıcıya geri qaytarılır. Bu model vasitəsilə tikinti şirkətləri maliyyə intizamına məcbur edilir və eyni mənzilin bir neçə şəxsə satılmasının qarşısı alınır.

Türkiyədə isə bu məsələ dövlət reyestri və notariat nəzarəti ilə diqqətdə saxlanılır. Qardaş ölkədə daşınmaz əmlak əməliyyatları yalnız dövlətin Torpaq Kadastr və Reyestr Sistemində rəsmiləşdirilir. Satış notariat və dövlət reyestri üzərindən aparılır. Tikintisi davam edən layihələrdə isə paylı mülkiyyət qeydiyyatı aparılır. Alıcı layihə üzrə konkret pay sahibi kimi reyestrə salınır. Belə halda eyni əmlakın təkrar satışı texniki olaraq mümkün olmur.

Bir sıra Avropa ölkələrində isə mərhələli ödəniş sisteminə üstünlük verilir. Məsələn, Almaniyada alıcı tikinti başa çatmadan bütün məbləği ödəyə bilməz. Ödənişlər tikintinin mərhələlərinə uyğun şəkildə həyata keçirilir və notarius tərəfindən nəzarət edilir. Bundan əlavə, tikinti şirkətləri məcburi sığorta mexanizminə tabe olunur. Eyni zamanda, şirkətin maliyyə sabitliyi yoxlanılmadan layihəyə icazə verilmir. Estoniyada isə bütün daşınmaz əmlak əməliyyatları rəqəmsal platforma üzərindən aparılır. Hər bir vətəndaş onlayn qaydada mənzilin hüquqi statusunu, mövcud ipoteka və ya məhkəmə mübahisələrini, sahiblərin tarixçəsini öyrənə bilir. Bütün bunların nəticəsində şəffaflıq alıcını qoruyan əsas mexanizmə çevrilir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*

**Əkrəm HƏSƏNOV,**
**iqtisadçı-hüquqşünas**

Tikinti şirkətinin dürüst olması satdığı mənzilə mülkiyyət hüququnun qabaqcadan qeydiyyatını həyata keçirməyə hazır olması ilə müəyyən edilir. Belə ki, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunun 17-ci maddəsinə əsasən, tikintisi başa çatdırılmamış daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqları dövlət reyestrində tikintiyə icazə sənədləri və plan-cizgi əsasında qabaqcadan qeydiyyata alına bilər.

Yəni bütün sənədlər qaydasındadırsa, tikinti şirkətinin bina tikilməmiş də vətəndaşa çıxarış (“kupça”) verməsi qanunun tələblərinə uyğun gəlir. Əks təqdirdə, deməli, ya sənədləri qaydasında deyil (tikinti pozuntularla icra olunur), ya da dələduzdur. Sonuncu halda bu, o deməkdir ki, mənzil bir neçə şəxsə satıla bilər, yaxud artıq satılıb. Başqa sözlə, qanun açıq şəkildə imkan verdiyi halda tikinti şirkəti qabaqcadan qeydiyyatdan yayınırsa, bu, artıq texniki məsələ deyil, təhlükə siqnalıdır.

Əgər tikinti sənədləri qaydasındadırsa, layihə təsdiqlənibsə, torpaq və icazələr hüquqi müstəvidədirsə, şirkətin alıcıya mülkiyyət hüququnu əvvəlcədən rəsmiləşdirməməsi üçün heç bir əsas yoxdur. Bu addım həm alıcını qoruyur, həm də eyni mənzilin bir neçə şəxsə satılması riskini aradan qaldırır. Əks halda isə alıcı sadəcə “sözə inanmış” tərəf kimi qalır. Bu gün mənzilini ala bilməyən, illərlə çıxarış gözləyən, məhkəmələrdə süründürülən insanların sayının minlərlə hesablanması təsadüfi deyil. Onların əksəriyyəti eyni səhvi edib, yəni qanuna yox, vədə inanıb.

Ona görə də tikinti şirkətindən mənzil alarkən diqqət ediləsi əsas meyar budur: şirkət sizə tikinti bitməmiş mülkiyyət hüququnun qabaqcadan qeydiyyatını təklif edirmi? Əgər cavab “yox”dursa, deməli, artıq ucuz qiymətin, gözəl mənzərənin və parlaq broşürlərin heç bir əhəmiyyəti qalmır. Çünki hüquqi təminat olmayan yerdə ev yox, yalnız risk alınır.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 34** **2 fevral 2026-cı il, Bakı şəhəri**

**“İcra məmurları haqqında”, “İcra haqqında” və “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “İcra məmurları haqqında”, “İcra haqqında” və “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 avqust tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 534 (Cild I) ilə təsdiq edilmiş “İcra sənədinin verilməsi üçün əsas olan qərarın, habelə qanuna əsasən icra sənədi sayılan sənədin ləğv edilməsi ilə əlaqədar icraata xitam verildikdə, icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin dövlət büdcəsi hesabına ödənilməsi Qaydaları”nın 1-ci və 5-ci hissələrində “icra xidməti icra məmurlarının müvafiq xüsusi Fondlarına” sözləri “ədliyyə orqanlarının xüsusi xəzinə hesabına” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 11, maddə 1084; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 357 nömrəli, 10 dekabr tarixli 385 nömrəli və 25 dekabr tarixli 412 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.4.2.5.8.0-cı yarımbənddə “Məqsədli büdcə fondlarının büdcədənkənar daxilolmaları” sözləri “Ədliyyə orqanlarının xüsusi xəzinə hesabına daxilolmalar” sözləri ilə əvəz edilsin;

2.2. 1.4.2.5.8.6-cı yarımbənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 35** **2 fevral 2026-cı il, Bakı şəhəri**

**“Xüsusi icra məmurunun vahid geyim formasının və nişanının, habelə xüsusi icra məmurunun köməkçisinin nişanının təsvirləri”nin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Xüsusi icra məmurunun vahid geyim formasının və nişanının, habelə xüsusi icra məmurunun köməkçisinin nişanının təsvirləri” təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 37** **3 fevral 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiya edilən informasiya sistemlərindən (ehtiyatlarından) əldə olunan məlumatların dairəsinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyul tarixli 360 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin “Şübhəli əməliyyatların monitorinqi” informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 436 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiya edilən informasiya sistemlərindən (ehtiyatlarından) əldə olunan məlumatların dairəsinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyul tarixli 360 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 921) adına, 1-ci və 3-cü hissələrinə “Maliyyə Monitorinqi Xidmətinin” sözlərindən sonra “Şübhəli əməliyyatların monitorinqi” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 38** **5 fevral 2026-cı il, Bakı şəhəri**

**“Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının Azərbaycan Respublikasının ərazisində tətbiqi Qaydaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının Azərbaycan Respublikasının ərazisində tətbiqi Qaydaları” təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 41** **9 fevral 2026-cı il, Bakı şəhəri**

**Qusar şəhər Uşaq İncəsənət Məktəbinə Azərbaycanın Xalq artisti Elza İbrahimovanın adının verilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycanın Xalq artisti Elza İbrahimovanın xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Qusar şəhər Uşaq İncəsənət Məktəbinə Azərbaycanın Xalq artisti Elza İbrahimovanın adı verilsin.

**2.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Qusar Rayon İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 36** **3 fevral 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasının ərazisində təyinatından asılı olmayaraq yerinə yetirilən bütün növ geodeziya, qravimetriya, topoqrafiya, kartoqrafiya və kadastr işlərində yeni koordinat sisteminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 iyul tarixli 668 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının ərazisində təyinatından asılı olmayaraq yerinə yetirilən bütün növ geodeziya, qravimetriya, topoqrafiya, kartoqrafiya və kadastr işlərində yeni koordinat sisteminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 iyul tarixli 668 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 17 oktyabr tarixli 209 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 630 (Cild I) ilə təsdiq edilmiş “Geodeziya, topoqrafiya və kartoqrafiya məlumatlarının Dövlət Kadastrının aparılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2-ci bəndin birinci abzasında “müxtəlif koordinat sistemləri” sözləri “UTM-ə (xəritə proyeksiyasına) əsaslanan WGS-84 (beynəlxalq koordinat sistemi)” sözləri ilə əvəz edilsin;

1.2. 3.3-cü bəndin üçüncü abzası ləğv edilsin;

1.3. 3.6-cı bənddə “sahəvi və milli koordinat sistemlərində aparılmaqla, beynəlxalq koordinat sistemlərinə uyğunlaşdırılır” sözləri “UTM-ə (xəritə proyeksiyasına) əsaslanan WGS-84-də (beynəlxalq koordinat sistemində) aparılır” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 7 dekabr tarixli 232 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 801 (Cild I) ilə təsdiq edilmiş “Geodeziya və kartoqrafiya materiallarından istifadəyə görə ödəmə dərəcələri”nin “İstehlakçının birdəfəlik sifarişi (tələbnaməsi) əsasında materialların seçilməsi, ayrılması ilə əlaqədar xidmətlər və işlər” bölməsinin 9-cu hissəsinin üçüncü abzasının sonunda nöqtəli vergül işarəsi qoyulsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

“• obyektlərin UTM-ə (xəritə proyeksiyasına) əsaslanan WGS-84-də (beynəlxalq koordinat sistemində) olan coğrafi və geodezik koordinatları”.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 oktyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 639 (Cild I); 2024, № 1, maddə 116) ilə təsdiq edilmiş “Geodeziya və kartoqrafiya fəaliyyətinə dövlət nəzarəti haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 10.14-cü bənddə “istənilən koordinat sistemlərindəki” sözləri “UTM-ə (xəritə proyeksiyasına) əsaslanan WGS-84-dəki (beynəlxalq koordinat sistemindəki)” sözləri ilə əvəz edilsin;

3.2. 10.15-ci bənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 40** **6 fevral 2026-cı il, Bakı şəhəri**

**“Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinə və onun şərtlərinin gözlənilməsinə nəzarət Qaydaları”nın və “Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Dövlət rüsumu haqqında”, “Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında”, “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında”, “Gömrük tarifi haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1192-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 17 avqust tarixli 183 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinə və onun şərtlərinin gözlənilməsinə nəzarət Qaydaları”nın və “Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 464 (Cild I); 2024, № 3, maddə 349) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-1-ci hissə aşağıdakı redaksiyada verilsin:

“2-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.”.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər”də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissənin birinci abzasında, 1.1-ci, 1.2-ci və 1.5-ci bəndlərdə “sursat istehsal etmək” sözləri “sursatın layihələndirilməsi və istehsalı” sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

“1-1. Döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatının dövriyyəsinə (satışına, idxalına və ixracına münasibətdə) tələb olunan əlavə şərtlər:

1-1.1. satışına (idxal edilən döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatı istisna olmaqla):

1-1.1.1. istehsal prosesinin məmulatın texnoloji sənədlərinə uyğun qurulması;

1-1.1.2. texnoloji və konstruktor sənədlərinin normativ hüquqi aktların tələblərinə və standartlara uyğun olması;

1-1.1.3. texniki şərtlərin normativ hüquqi aktların tələblərinə və standartlara uyğun olması;

1-1.1.4. istehsal prosesinin ərizəçi tərəfindən həyata keçirilən mərhələlərinin adı və təsviri barədə məlumat.”;

2.3. 2-ci hissənin birinci abzasında, 2.1–2.3-cü bəndlərdə “texnikanı istehsal etmək” sözləri “texnikanın layihələndirilməsi və istehsalı” sözləri ilə əvəz edilsin;

2.4. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

“2-1. Döyüş təyinatlı hərbi texnika, hərbi silah və sursatın ehtiyat hissələrinin dövriyyəsinə tələb olunan əlavə şərtlər:

2-1.1. satışına (döyüş təyinatlı hərbi texnika, hərbi silah və sursatın idxal edilən ehtiyat hissələri istisna olmaqla):

2-1.1.1. istehsal prosesinin məmulatın texnoloji sənədlərinə uyğun qurulması;

2-1.1.2. texnoloji və konstruktor sənədlərinin normativ hüquqi aktların tələblərinə və standartlara uyğun olması;

2-1.1.3. texniki şərtlərin normativ hüquqi aktların tələblərinə və standartlara uyğun olması;

2-1.1.4. istehsal prosesinin ərizəçi tərəfindən həyata keçirilən mərhələlərinin adı və təsviri barədə məlumat.”;

2.5. “Qeydlər”in 5-ci hissəsində “9-cu (partlayıcı maddələrin və partlayıcı qurğuların istehsalı və satışı) hissəsində göstərilən mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi isə həmin Fərmanın 3-cü hissəsinin ikinci abzasına uyğun olaraq dövlət müəssisələri və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətləri, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə dövlət müəssisələrinin iştirak etdiyi birgə müəssisələr” sözləri “1-1-ci hissəsində göstərilən mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların Azərbaycan Respublikasının ərazisində satın alınması isə həmin Fərmanın 3-1-ci hissəsinə uyğun olaraq yalnız Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanları, həmçinin müdafiə təyinatlı məhsulların istehsalını və təmirini tamamlamaq məqsədilə müvafiq fəaliyyət növləri üçün lisenziya almış və ya lisenziya alınması tələbinin şamil olunmadığı hüquqi şəxslər” sözləri ilə əvəz edilsin;

2.6. “Qeydlər”ə aşağıdakı məzmunda 7–9-cu hissələr əlavə edilsin:

“7. Əlavə Şərtlərin 1-ci, 1-1-ci, 2-ci və 2-1-ci hissələri həmin hissələrdə nəzərdə tutulan əşyaların hər növünə xüsusi icazə verilməsində ayrılıqda tətbiq olunur.

8. Əlavə Şərtlərin 1-1-ci və 2-1-ci hissələrində nəzərdə tutulan əşyaların satışına xüsusi icazə alındıqdan sonra istehsal prosesinin ərizəçi tərəfindən həyata keçirilən mərhələlərində dəyişiklik baş verdikdə ərizəçi 3 (üç) iş günü ərzində Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinə məlumat verməlidir.

9. Adına və texniki parametrlərinə görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevraI tarixli 42 nömrəli Qərarı ilə təsdiq edilmiş “İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı”na aid edilən mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların idxal, ixrac və tranzit əməliyyatları “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarına əsasən aparılır.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 42** **9 fevral 2026-cı il, Bakı şəhəri**

**Ağdaş rayonu Kotanarx kənd tam orta ümumtəhsil məktəbinə Azərbaycanın Xalq şairi Fikrət Qocanın adının verilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycanın Xalq şairi Fikrət Qocanın xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Ağdaş rayonu Kotanarx kənd tam orta ümumtəhsil məktəbinə Azərbaycanın Xalq şairi Fikrət Qocanın adı verilsin.

**2.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Ağdaş Rayon İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 43** **9 fevral 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarı ilə təsdiq edilmiş “Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 252-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1233 (Cild I); 2024, № 1, maddə 111, № 2, maddə 197; 2025, № 9, maddələr 858, 876) ilə təsdiq edilmiş 1 nömrəli əlavə –“Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1** Aşağıdakı məzmunda 3.7-1-ci bənd əlavə edilsin:

“3.7-1. Hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərlə torpağın kateqoriyası (məqsədli təyinatı) dövlət torpaq kadastrında saxlanılan məlumatlara uyğun gəlmədikdə qeydiyyat orqanının vəzifəli şəxsləri tərəfindən 15 (on beş) iş günü müddətində yerquruluşu sənədlərinin təhlili yolu ilə araşdırma aparılır. Araşdırmanın nəticəsinə əsasən təqdim edilən sənədlərdə göstərilən məlumatların doğruluğu təsdiq edildikdə, əmlak üzərində hüquqlar dövlət qeydiyyatına alınır və dövlət torpaq kadastrında müvafiq düzəlişlər edilir.”.

**2.** 6.1-ci bənddə “15.1.1-15.1.6-cı” sözləri “15.1.1-15.1.7-ci” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Leyla Əliyeva və Alena Əliyeva Gəncədə STEAM mərkəzində və 37 nömrəli tam orta məktəbdə







**Leyla Əliyeva və Alena Əliyeva Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü liseydə fəaliyyət göstərən STEAM mərkəzində və Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə olublar.**

Mərkəzlə tanışlıq zamanı Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan məktəblərində STEAM (Science, Technology, Engineering, Art, Mathematics) layihəsinin geniş icrasına başlanıldığı barədə məlumat verilib.

Bildirilib ki, STEAM mərkəzi liseyin tərkibində 2021-ci ildən etibarən fəaliyyət göstərir. Mərkəz bütün yaş qruplarının istifadəsi üçün nəzərdə tutulub. Burada "Robotics", "Art", "Science", "STEAM Kids", CNC və 3D çap, mexatronika, dron istiqamətləri üzrə sahələr fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, Mərkəzdə yaradılmış imkanlardan sözügedən məktəblə yanaşı, regionun digər məktəblərinin şagird və müəllimləri də istifadə edir. Hər tədris ili 1000-dən çox şagird Mərkəzdə müxtəlif modullar üzrə təlimlərdə iştirak edir.

Qeyd edək ki, 2019-cu ildən tətbiqinə başlanılan STEAM layihəsinin əsas məqsədi təhsilalanlara tənqidi, yaradıcı düşünmə, əməkdaşlıq etmə və digər bacarıqları formalaşdırmaq, yaradıcı proses vasitəsilə öyrənmə imkanı yaratmaq, fənləri ayrılıqda öyrətmək deyil, onları real dünyadakı tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirməkdir.





Daha sonra Leyla Əliyeva və Alena Əliyeva Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilmiş Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə yaradılmış şəraitlə tanış olublar.

Bildirilib ki, 1969-cu ildə inşa olunmuş Gəncə şəhəri, Kəpəz rayonu 37 nömrəli orta məktəbin binası ötən müddət ərzində köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşüb. 2024-cü ilin noyabrından Heydər Əliyev Fondu tərəfindən 724 şagirdlik məktəbin əsaslı təmir işlərinə başlanılıb.

Təhsil ocağı 3 mərtəbəli 1 korpusdan və 2 mərtəbəli 3 korpusdan ibarətdir. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəb binasında sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, musiqi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası var.

Təhsil müəssisəsinin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, əraziyə asfalt örtüyü döşənib, dekorativ kol və ağaclar əkilib.

Ziyarət zamanı müxtəlif yaş qruplarına aid 50 uşağa velosiped, eləcə də təhlükəsizlik ləvazimatı hədiyyə edilib. Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi ilə keçirilən sosial aksiyanın əsas məqsədi regionlarda yaşayan uşaqların asudə vaxtlarını daha səmərəli şəkildə keçirmələrinə şərait yaratmaq, onların idmana və sağlam həyat tərzinə marağını artırmaq, məktəbliləri fiziki fəallığa həvəsləndirmək, habelə ekoloji nəqliyyat vasitəsi kimi velosiped istifadəsini təşviq etməkdir.

# Gəncə Memorial Kompleksini və Milli Qəhrəman Natiq Qasımovun ailəsini ziyarət




**Leyla Əliyeva və Alena Əliyeva Gəncə Memorial Kompleksi ilə tanış olublar.**

Prezident İlham Əliyev tərəfindən 2025-ci il sentyabrın 27-də – Anım Günündə açılışı həyata keçirilən bu kompleks İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş günahsız insanların əziz xatirəsini əbədiləşdirmək və müharibənin acı reallıqlarını gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır.

Kompleksin birinci mərtəbəsində muzey ekspozisiyası, ikinci mərtəbədə isə müxtəlif tədbirlərin keçirilməsi üçün zal yerləşir.

Leyla Əliyeva və Alena Əliyeva, həmçinin Gəncədə Milli Qəhrəman Natiq Qasımovun ailəsini ziyarət edib.

Görüş zamanı qəhrəmanımızın xatirəsi dərin hörmətlə yad edilib, ailə üzvləri ilə səmimi söhbət aparılıb.

Natiq Qasımov Birinci Qarabağ müharibəsi zamanı Ağdam-Xankəndi istiqamətində döyüşlərdə misilsiz igidlik göstərib. O, müharibə zamanı beş gün təkbaşına mühasirədə qalsa da erməni işğalçılarına sonadək müqavimət göstərib.

Görüş zamanı şəhidin şərəfli ömür və döyüş yolu bir daha xatırlanıb.









# Gəncədə uşaq evində









**Leyla Əliyeva və Alena Əliyeva Gəncədə 4 nömrəli uşaq evində olublar.**

Ziyarət zamanı uşaq evinin fəaliyyəti barədə ətraflı məlumat verilib. Bildirilib ki, 4 nömrəli uşaq evi valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 3-18 yaşarası uşaqlara xidmət göstərir. Hazırda uşaq evinin 64 sakini var. Onlara sosial-məişət, sosial-psixoloji, tibbi-sosial, sosial-pedaqoji və sosial-hüquqi xidmətlər göstərilir.

Qeyd olunub ki, müəssisə 2012-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə təmir olunub. Fond uşaq evinin sakinlərini daim diqqətdə saxlayır, burada mütəmadi olaraq şənliklər, əyləncəli tədbirlər təşkil edilir.

# Gəncənin Şah Abbas məscidini ziyarət



**Leyla Əliyeva və Alena Əliyeva Gəncədə Şah Abbas məscidini ziyarət ediblər.**

Məscid 1606-cı ildə Səfəvi hökmdarı I Şah Abbasın əmri ilə memar Şeyx Bahəddin Məhəmməd Amilin layihəsi əsasında inşa edilib. Gəncənin mərkəzində yerləşən bu abidə orta əsr Azərbaycan memarlığının portal-günbəz ənənələrini, lakonik və ifadəli bədii-konstruktiv xüsusiyyətlərini özündə birləşdirir.

Sonda Leyla Əliyeva və Alena Əliyevaya "Qurani-Kərim" hədiyyə olunub.

Qeyd edək ki, məscid 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə bərpa olunub.



# Gəncə Dövlət Milli Dram Teatrında "İsi və Piti" animasiya serialının təqdimatı








**Gəncə Dövlət Milli Dram Teatrında "İsi və Piti" animasiya serialının premyerası keçirilib.**

Leyla Əliyeva və Alena Əliyeva tədbirdə iştirak ediblər. Premyera Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə "ANİMAFİLM Gəncədə" festivalı çərçivəsində keçirilib.

Festivalda tamaşaçılara maarifləndirici uşaq animasiya serialı - "İsi və Piti" serialının iki bölümünün premyerası ilə yanaşı, "Bum-bum" və "Yer və Ay" qısametrajlı animasiya filmləri təqdim olunub. Gəncə şəhərinin məktəbəqədər təhsil müəssisələrində çalışan müəllimlər və burada təhsil alan uşaqlar animasiya filmlərini böyük maraq və yüksək əhvali-ruhiyyə ilə izləyiblər.

Festivalda, həmçinin uşaqlara insan və təbiət vəhdətini, ekoloji problemlərin planetimizə təsirini izah edən, hamını Vətəni, ana təbiəti və Yer kürəsini qorumağa səsləyən Azərbaycan və Özbəkistan animasiya mütəxəssislərinin birgə istehsalı olan "Yer və Ay" qısametrajlı animasiya filmi nümayiş olunub.

# Gəncədə qadın sahibkarın sağlam qida brendi ilə tanışlıq



**Leyla Əliyeva və Alena Əliyeva Gəncədə fəaliyyət göstərən qadın sahibkar Fidan Zari tərəfindən yaradılmış "Zarif Natural" brendi ilə tanış olublar.**

Onlar sahibkarla səmimi söhbət edib, ideyanın formalaşması, brendin yaranma hekayəsi və məhsulların hazırlanma prosesi ilə maraqlanıblar. Daha sonra müəssisədə soyuq sıxım üsulu ilə müxtəlif yağlar və digər məhsullar birgə hazırlanıb. Leyla Əliyeva və Alena Əliyeva qadın sahibkara fəaliyyətində uğurlar arzulayıb, onun təşəbbüskarlığını və zəhmətkeşliyini yüksək qiymətləndirib, xatirə şəkilləri çəkdiriblər.

Qeyd edək ki, "Zarif Natural" brendi sağlam və balanslı qidalanma prinsiplərinə əsaslanaraq soyuq sıxım yağların, qatqısız çərəz əzmələrinin və qlütensiz unların istehsalı və istehlakçılara təqdim olunması istiqamətində fəaliyyət göstərir.




# Gəncə 45 nömrəli xüsusi məktəbində görüş





**Leyla Əliyeva və Alena Əliyeva Gəncə şəhər 45 nömrəli xüsusi ümumtəhsil məktəbində olublar.**

Onlar bu təhsil ocağında yaradılmış şəraitlə yaxından tanış olub, şagirdlərin tədris prosesi və reabilitasiya imkanları ilə maraqlanıblar.

Diqqətə çatdırılıb ki, Gəncə şəhər 45 nömrəli xüsusi ümumtəhsil məktəbində 297 şagird təhsil alır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlardan 188-i məktəbdə, 109-u isə evdə təhsilə cəlb olunub.

Təhsil müəssisəsi informatika və texnologiya, loqopediya otaqları, ekoloji sinif, tibb kabineti, kitabxana, idman zalı və digər zəruri infrastrukturla təmin edilib.

Sonda Leyla Əliyeva və Alena Əliyeva uşaqlara hədiyyələr təqdim edib, onlarla xatirə şəkilləri çəkdiriblər.

# Leyla Əliyeva və Alena Əliyeva Gəncə Autizm Mərkəzində





**Leyla Əliyeva və Alena Əliyeva Gəncə Autizm Mərkəzi ilə tanış olublar.**

Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Autizm Mərkəzi Gəncə ilə yanaşı, ətraf regionlardan - Şəmkir, Daşkəsən, Tovuz, Samux və digər rayonlardan müraciət edən ailələrə və onların övladlarına dəstək göstərir.

Bildirilib ki, burada həyata keçirilən proqramlar uşaqların cəmiyyətə və ailəyə inteqrasiyasında, eləcə də onların aktiv rol almasına töhfə verir. Mərkəz vasitəsilə regionda reabilitasiya ilə yanaşı, autizm, neyromüxtəliflik və inklüzivlik mövzularında maarifləndirmə kampaniyaları həyata keçirilir.

*AZƏRTAC*

*Naxçıvan xəbərləri*

# Muxtar respublikanın Baş naziri kollektivə təqdim edilib





**Fevralın 9-da Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarı ilə Cabbar Musayev Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin olunub.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov ölkə Prezidentin təqdimatına uyğun olaraq Cabbar Musayevi Nazirlər Kabinetinin kollektivinə təqdim edib.

Baş nazir Cabbar Musayev çıxışında göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını vurğulayıb. Baş nazir ölkə başçısının müəyyən etdiyi strateji xətta uyğun verilmiş tapşırıq və göstərişlərin vaxtında icra edilməsini, müəyyən edilmiş məsuliyyəti, dürüstlük, şəffaflıq və peşəkarlıqla yerinə yetirəcəyini bildirib.

Səlahiyyətli nümayəndə Ceyhun Cəlilov çıxış edərək Prezident İlham Əliyevin tapşırıqlarını diqqətə çatdırıb. O Cabbar Musayevi təbrik edərək, Prezidentin muxtar respublikanın inkişafı ilə bağlı tapşırıqlarının vaxtında və layiqincə yerinə yetiriləcəyinə əminliyini ifadə edib.

# Ali Məclisin yaz sessiyasının növbəti iclası





**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının növbəti iclası keçirilib.**

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əsasən, Ali Məclisin sədri Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Ali Məclisə təqdim edir.

Təqdimat oxunub, namizəd haqqında məlumat verildikdən sonra "C.H.Musayevin Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı səsə qoyularaq qəbul edilib.

Prezident İlham Əliyevin yüksək etimad göstərərək onu Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təqdim etdiyinə görə minnətdarlığını bildirən Cabbar Musayev qarşıda duran vəzifələrin uğurla icra edilməsi, dövlət başçısının müəyyən etdiyi strateji hədəflərin layiqincə həyata keçirilməsi üçün bundan sonra da səylə çalışacağını söyləyib. Bəxtiyar Məmmədov Ali Məclis adından Prezident İlham Əliyevin yüksək etimadı ilə yeni vəzifəyə təyin olunması münasibətilə Cabbar Musayevi təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

İclasda "Normativ hüquqi aktlar haqqında" və "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra hər iki qanun səsə qoyularaq qəbul edilib.

Bununla da Ali Məclisin növbəti iclası başa çatıb.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"nin Naxçıvan müxbiri***

# Azərbaycan–Türkiyə prokurorluq orqanlarının əməkdaşlığı genişlənir

**İstanbulun Çağlayan Ədliyyə Sarayında Azərbaycanın Baş prokuroru Kamran Əliyev və Türkiyənin İstanbul şəhərinin Baş prokuroru Akın Gürlek arasında görüş olub. Görüş Akın Gürlekin dəvəti ilə Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin İstanbula səfəri çərçivəsində keçirilib.**




Toplantıda Baş prokuror Kamran Əliyev qarşı tərəfə dəvətə və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək, Türkiyə-Azərbaycan birliyinə və qardaşlığına diqqət çəkib.

Akın Gürlek qurumlararası tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluğunu ifadə edib və daha əvvəl ölkəmizə etdiyi işgüzar səfərin xüsusi yaddaqalan olduğunu deyib.

Görüşdə iki ölkənin prokurorluq orqanları arasında cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə, o cümlədən cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahələrində praktiki əməkdaşlıq məsələləri, həmçinin hüquqi və institusional əməkdaşlığın genişləndirilməsi perspektivləri, eləcə də qarşılıqlı təlim səfərlərinin təşkili və təcrübə mübadiləsi ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Müdafiə naziri "World Defense Show" sərgisində




**Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbər heyəti Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən "World Defense Show 2026" beynəlxalq müdafiə sənayesi sərgisində iştirak edib.**

Dünyanın tanınmış və aparıcı şirkətlərinin iştirak etdiyi sərgidə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin stendində şirkətin və ölkəmizdən olan digər özəl şirkətlərin məhsulları təqdim olunub.

Müdafiə Nazirliyindən verilən məlumata görə, nazirliyin rəhbər heyəti stendlərdə nümayiş olunan müasir silah, texnika, aviasiya və uçuş vasitələrinin nümunələri, eləcə də süni intellekt və kibertəhlükəsizlik sahələrində ən son yeniliklər ilə tanış olub.

Səfər zamanı müdafiə naziri general-polkovnik Zakir Həsənov Səudiyyə Ərəbistanının müdafiə naziri Xalid bin Salman və bir sıra şirkət rəhbərləri ilə görüşüb. Görüşlərdə hərbi-texniki əməkdaşlıq istiqamətində qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, müdafiə sənayesi üzrə mühüm platforma hesab olunan "World Defense Show" sərgisi dünyanın qabaqcıl şirkətlərini bir araya gətirir, innovativ texnologiyalar üzrə təqdimatlar, strateji əməkdaşlıq və işgüzar görüşlər ev sahibliyi edir.

***XQ***

***Sadiq Gözəlov – 70***

**Ömürlərinin 30 ilinə Qarabağ bəlasının ağrı-acıları hopmuş 40 – 45 il əvvəlin gəncliyi bu gün 65 – 70 yaşlı bir nəslili təmsil edir. O vaxtın gəncliyinin keçdiyi sınaqların, çəkdiyi əziyyətlərin ən yüksək əvəzi olaraq 1991-ci ildə Azərbaycan müstəqillik qazandı. 2020-ci ildə isə Qarabağ savaşı tarixə qovuşdu.**

1978 – 1983-cü illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin 1004-cü qrupunda oxumuş 26 gəncin ən böyük amalı sovet cəmiyyəti daxilində nüfuzlu söz sahibi olmaq, ulu ustadımız Həsən bəy Zərdabinin məzarı üstündə içdiyimiz milli varlığımıza xidmət andına sadiq qalmaq idi. O zaman milli jurnalistikamızın ənənələrinə sadiqlik andını qəbul etmiş tələbə yoldaşlarımızın birinin adı elə Sadiq idi.

# Jurnalist andına sadiqlik



Sadiq Gözəlov 1956-cı il fevralın 11-də Ordubad rayonunun Üstüpü kəndində anadan olub. 8 illik təhsilini kənd məktəbində, orta təhsilini Bakıdakı 1 nömrəli fizika-riyaziyyat təmayüllü orta məktəbdə bitirib. Sovet ordusu sıralarında qulluq edib. Onu jurnalistikaya heç nə ilə əvəz edilməyən sevgi, yetərli orta təhsil biliyi, görüb-götürmək, bilib-öyrənmək təşnəliyi gətirib. Sumqayıtda böyük bir müəssisənin çoxtirajlı qəzetində keçdiyi təcrübə məktəbi onu seçdiyi peşədə xeyli püxtələşdirib. Respublika mətbuatındakı çıxışları da mövzu və yetkinlik baxımından seçilirdi.

Onun ən gənc yoldaşlarımızdan 4–5 yaş böyük olmağı təhsildə də, ictimai işlərdə, məişət və əyləncə məsələlərində də özünü göstərirdi. Həyat məktəbi keçmişdi. Davranışlarında oturuşmuş, münasibətlərində təcrübəli bir yoldaşımız, "gənc ağsaqqalımız" idi. Yuxarı kurslarda fakültənin gənclər təşkilatına, təbii olaraq, onu seçmişdik. Müəllimlərimiz də onu özlərinə bir köynək yaxın bilir, qrupumuzla bağlı yaxşı-pisi bizə onun dilindən çatdırırdılar. Biz isə özümüzdən qabaqkı nəsillərin, xüsusən "Əkinçi" yolunu davam etdirmiş qələm sahiblərinin böyük irsini söz-söz, cümlə-cümlə mənimsəməyə çalışır, nüfuzlu qələm sahiblərimizin sırasında yer almağa can atırdıq.

Sadiq universiteti bitirənədək əlaçılıq estafetini əldən vermədi, qırmızı diplom aldı. Həm də köhnə kişilər kimi ağır-batman idi. Ona söz deməkdən, onunla ünsiyyət qurmaqdan çəkinərdik bəzən. Az danışan, çox iş görən idi. İllər keçdikcə onun da xarakteri özünü bütün çalarları ilə açıb göstərdi. Ürəyiyumşaqlıq onun xeyirxahlığına geniş meydan açdı. Tələbəlik illərində də, sonralar da ondan kömək istəyənlərə heç vaxt yox demədi.

Belə bir mühitdə yaranan tələbə yoldaşlığımız həyatda dostluğa, tale qardaş-bacılığına çevrilməklə bugündək davam edir. Universitetdən sonra ayrılan yollarımızda məşhur imzalar da oldu, mötəbər mövqelər də, başqa sahələrdə çalışanlar da, evdar xanımlar da, dünyasını tez dəyişənlər də...

1983-cü ildə ali təhsilli jurnalist Sadiq Gözəlovun təyinatı doğulub böyüdüyü Naxçıvana verilmişdi. İxtisası üzrə boş yer olmadığından və tələbəlik illərindəki təcrübəsini nəzərə alaraq onu muxtar respublikanın Komsomol Komitəsində işə götürmüşdülər. 4 il burada müxtəlif vəzifələrdə çalışmasına baxmayaraq, jurnalistikadan uzaq düşməmişdi, teleradio və mətbuatda çıxışların da davam etdirmişdi.

1987-ci ilin martında Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin Naxçıvan üzrə xüsusi müxbiri postu boşalanda bir neçə namizədin arasında təcrübəli və perspektivli jurnalist kimi onun təmsilçiliyinə üstünlük verilmişdi. 1995-ci ilə kimi bu vəzifədə uğurla çalışmışdı.

1988-ci ilin may ayında, erməni quldurları Vedi rayonunun Şirazlı kəndində azərbaycanlı əhalinin evlərini daş-qalaq edərək yandırdıqdan, onları dədə-baba yurdlarını tərk etməyə məcbur etdikdən bir neçə gün sonra, o zaman muxtar respublikanın daxili işlər naziri olmuş Ramil Usubovun köməyi ilə, teleoperatoru Ənvər Rəhimovla birlikdə gizli yollarla həmin kənddə olub.

Taleyin ümidinə buraxılaraq qardaş Türkiyə ilə sərhədə - Araz qırağına sığınmış, azərbaycanlıların yaşadıqları Şiddi və Xəlisə kəndlərinə pənah aparmış sakinlərlə görüşüb. Onların acınacaqlı vəziyyətindən 45 dəqiqəlik çox mühüm əhəmiyyətli süjet hazırlayıb və bu çəkiliş sayəsində ölkə rəhbərliyi ermənilərin orada yaşayan günahsız əhaliyə, soydaşlarımıza qarşı necə amansızcasına rəftar etdiklərinin, bütün vəhşiliklərinin real mənzərəsinin şahidi olublar.

Erməni quldurlarının muxtar respublikanın Sədərək, Şərur, Şahbuz, Ordubad, Babək rayonlarına hücumları zamanı dəfələrlə həmin qaynar nöqtələrdə olub. Mərd naxçıvanlıların düşmən hücumlarının qarşısını necə qətiyyətlə, canları bahasına aldıqlarını lentin yaddaşına köçürərək Azərbaycan Televiziyasına göndərib...

1991-ci ilin avqust ayında Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları sonuncu kəndin - Mehri rayonunun Nüvədi kəndinin rus hərbçilərinin köməyi ilə zorla evlərindən qovulmuş, Zəngilanın Vejnəli kəndinə və dəmiryol stansiyasına sığınmış sakinləri ilə görüşərək onlardan müsahibələr alıb. Zəngilan və Cəbrayıl rayonlarından, habelə son hadisələrin pik həddinə çatdığı Mehri ərazisindən xüsusi reportajlar hazırlayıb.

Çəkilişlər zamanı operator Ənvər Rəhimovla birlikdə dəfələrlə ölüm təhlükəsi ilə üzləşiblər. Blokada şəraitində yaşayanan muxtar respublika ilə bağlı xəbərlərin Azərbaycan tamaşaçısına operativ çatdırılmasındakı xidmətlərinə görə Naxçıvan MR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunub.

Həmin illərdə Bakıdan Naxçıvana gedən sərnişin və yük qatarları tez-tez Mehri rayonu ərazisində dayandırılır, dəmiryol relsləri partladılır, bəzən sərnişinlər girov götürülürdü. Ərzaq və yanacaq çatışmazlığı, həftələrlə elektrik enerjisinin verilməməsi, qazın ümumiyyətlə olmaması naxçıvanlıları olumla ölüm arasında qoymuşdu...

Belə bir vaxtda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin blokada şəraitində yaşayan Naxçıvana gəlişi adamların qəlbində ümid işığı yandırdı, onların gələcəyə olan inamını özünə qaytardı. Sonradan baş verən hadisələr, Ulu öndərin Azərbaycan Respublikası Ali Məclisinin Sədri seçilməsi, orada qəbul olunan qərarlar bütövlükdə respublikamızın müstəqilliyinin və milli azadlığının əldə olunmasında mühüm rol oynadı. Heydər Əliyev Naxçıvanın və bütün Azərbaycanın xilaskarı oldu.

1990 – 95-ci illərdə Muxtar Respublika Ali Məclisinin deputatı olmaq şərəfi Azərbaycan Televiziyasının xüsusi müxbiri Sadiq Gözəlova da nəsib olur. Ulu öndərin Naxçıvanda yaşayıb işlədiyi dövrdə müxtəlif görüşlərində, səfərlərində və tədbirlərində iştirakı onun həyatında silinməz izlər buraxıb.

O illərdə respublika rəhbərliyinin dahi Heydər Əliyevin şəxsiyyətinə olan qısqanc münasibətinə, televiziya rəhbərliyinin Naxçıvan Ali Məclisi Sədrinin muxtar respublikanın ayaqda qalması və blokadadan çıxarılması istiqamətində gördüyü böyük işlərin ölkə tamaşaçısına çatdırılmasına mane olmaq istəyinə baxmayaraq, Sadiq Gözəlov çətinliklə də olsa, televiziyadakı Heydər Əliyev sevərlərin köməyi ilə hazırladığı bir çox xəbərlərin, çəkdiyi verilişlərin və süjetlərin yayılmasına nail olur...

Məhz dahi rəhbərin tövsiyəsi ilə Azərbaycan Teleradiosunun Naxçıvan müxbiri Sadiq Gözəlov 39 yaşında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi vəzifəsinə gətirilib. 22 il həmin vəzifədə peşəkarcasına, şərəflə çalışıb. 1998–2003-cü illərdə Polis Akademiyasında ikinci ali təhsil alaraq hüquqşünas ixtisasına da yiyələnib.

Polis polkovniki Sadiq Gözəlov ölkə mediasında daxili işlər orqanlarının fəaliyyətinin peşəkarlıqla işıqlandırılmasına görə "Əməkdar jurnalist" fəxri adına layiq görülüb və "İgidliyə görə" medalı ilə təltif edilib. Jurnalistikamıza xidmətlərinə görə isə "Qızıl qələm" və Həsən bəy Zərdabi mükafatçısı adı qazanıb.

Xidmət illərində 32 dəfə müxtəlif həvəsləndirmə tədbirləri ilə, o cümlədən 13 dəfə Daxili İşlər Nazirliyinin Fəxri fərmanları ilə, Azərbaycan Polisinin 95 illiyi və 100 illiyi yubiley medalları ilə, "Əla xidmətlərə görə" döş nişanı, "Qüsursuz xidmətə görə" medalının hər 3 dərəcəsi və s. ilə mükafatlandırılıb.

Təqaüdə çıxdıqdan sonra yeni vəzifəyə – Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə yaradılmış "Daxili İşlər Orqanlarının maddi-texniki və sosial bazasının möhkəmləndirilməsi Fondu"nun icraçı direktoru vəzifəsinə təyin olunub və burada da vicdanla, şərəflə çalışır.

Keçmiş tələbə yoldaşımız, əziz dost və sirdaşımız Sadiq Gözəlov ömrünün ən müdrik, kamil dövrünə qədəm qoyub. Bu yaş insan ömrünün zəngin həyat təcrübəsinin toplandığı, ölçülü, düzgün qərarlar verə bildiyi, çəkili sözə sahib olduğu bir dövrüdür. Bu yaş həm də gənc nəslə yol göstərən, keçilən yollar, öz-özünə hesabat verən, şərəfli keçmişinə görə şükranlıq edən, vicdanla yaşadığı illərin çiynində yük deyil, həyatında böyük dəyər yaradan zaman olduğunu anladan ömür zirvəsidir.

Yarım əsrlik sadiq dostumuz, nüfuzlu həmkarımız Sadiq Gözəlovu ömrünün 7-ci onilliyinin tamamında ən səmimi duyğularla yada salır, bir daha cəmiyyətə təqdim edir, ona ən xoş arzularımızı təbrik və hədiyyə olaraq ünvanlayırıq.

***Əntiqə QONAQ,***
***Əməkdar jurnalist***

**Bir çoxlarına məlumdur ki, Aİ-nin Vaşinqtona münasibəti heç vaxt monolit olmayıb. Şimali və Şərqi Avropanın təhlükəsizlik prioritetləri ilə Cənubi və Qərbi Avropanın strateji muxtariyyət axtarışları uzun illər eyni masa arxasında uzlaşdırılıb. Son dövrlər isə bu uzlaşma prosesi daha çətin mərhələyə daxil olub. ABŞ-la təhlükəsizlik sahəsində əməkdaşlıq davam etsə də, iqtisadi rəqabət, texnoloji suverenlik və regional münaqişələrə yanaşma fərqləri Aİ daxilində “öz yolumuzu tapmalıyıq” fikrini gücləndirib.**

# Transatlantik gərginliyin yeni mərhələsi

## *Qış Olimpiya Oyunları ətrafında siyasi gedişlər*



Bu baxımdan, Aİ-nin qəbul etdiyi sənədlər və səsləndirdiyi bəyanatlar xüsusi diqqət çəkir. “Strateji muxtariyyət”, “Avropa maraqları”, “Avropanın öz səsi” kimi anlayışlar artıq siyasi liderlərin çıxışlarında da tez-tez yer alır. Məqsəd Avropanın özünü tənzimləyən aktor kimi mövqelənməsidir. Belə olan halda, Vaşinqtona məsafəli yanaşma ön plana çıxır. Müasir beynəlxalq münasibətlərdə simvolik siyasətin də çəkisinin artdığı müşahidə olunur. Dövlət başçılarının jestləri, tədbirlərin protokolu, tribunadakı söz sırası, hətta zalın reaksiyası belə siyasi məna daşıyır. Aİ məkanında ABŞ-a münasibətdə dəyişən ton məhz bu kontekstdə daha aydın görünür. Qərbi Avropada keçirilən “YouGov” sorğularına görə ABŞ-a qarşı xoş münasibətin azalması bu mənada təsadüfi deyil. Sorğular kütləvi rəyin artıq transatlantik münasibətlərə əvvəlki romantik prizma ilə baxmadığını göstərir. Başqa sözlə desək, Vaşinqton hələ də mühüm tərəfdaş kimi qəbul olunur, lakin onun qlobal siyasətdəki yeri yenidən təhlil edilir. Bu da öz növbəsində, Aİ-nin siyasi elitasının ritorikasına dolayı yolla təsir göstərir.

Məsələ orasındadır ki, transatlantik münasibətlərdəki gərginlik müxtəlif sahələrdə, o cümlədən idman sahəsində də özünü büruzə verir. Milano–Kortina Qış Olimpiya Oyunları ətrafında formalaşan müzakirələr də bunun nümunəsi kimi yadda qalıb. Protokol çərçivəsində iştirak edən ABŞ rəsmiləri və müxtəlif siyasi simvolların görünməsi zamanı baş verən hadisələr, eləcə də zaldakıların reaksiyaları diqqətçəkən məqamlar arasında idi. Mərasim zamanı bir sıra xarici nümayəndələrə qarşı etiraz səslərinin eşidilməsi, xüsusən də ABŞ-ın vitse-prezidenti J.D. Vensin izdiham tərəfindən pislənməsi ictimai rəyin simvolik ifadəsi kimi dəyərləndirilir. Həmin epizod Aİ məkanında Vaşinqtona münasibətdə formalaşan emosional fonu da açıq şəkildə göstərdi. Digər bir vacib məqam ondan ibarətdir ki, etirazlar ABŞ-a qarşı sistemli düşmənçilikdən yox, siyasi narazılığın spontan ifadəsindən irəli gəlirdi. Aİ institutları və üzv dövlətlər rəsmi səviyyədə balanslı mövqe saxlasalar da kütləvi rəyin mesajı diqqətdən kənarda qalmadı.

**ARAYIŞ:** *Qış Olimpiya Oyunları ilk dəfə 1924-cü ildə keçirilib. Fransanın Şamon (Chamonix) şəhərində təşkil olunan və ilk vaxtlar “Qış İdmanları Həftəsi” adlandırılan yarışlar sonradan Beynəlxalq Olimpiya Komitəsi tərəfindən I Qış Olimpiya Oyunları kimi tanınıb. Bu il fevralın 6-da başlayan Milano–Kortina 2026 Qış Olimpiya Oyunları isə bir neçə regionu əhatə edən model üzrə təşkil olunub. 22 fevrala qədər davam edəcək yarışlar həm iqtisadi, həm də ekoloji baxımdan daha rasional yanaşma kimi dəyərləndirilir. Oyunlar çərçivəsində buz və qar üzərində keçirilən klassik qış idman növləri ilə yanaşı, müasir və dinamik idman növləri də yer alır. Alp xizəyi, biatlon, xizək yürüşü, snoubord, freestyle xizək növləri, fiqurlu konkisürmə, sürətli konkisürmə, buz xokkeyi və körlinq kimi yarışlar Olimpiya proqramının əsasını təşkil edəcək. Xüsusilə gənclər arasında populyarlığı artan snoubord və akrobatik xizək növləri bu Olimpiadada daha geniş şəkildə təmsil olunacaq ki, bu da Qış Olimpiya Oyunlarının yenilənən ruhunu əks etdirir. Milano–Kortina 2026, eyni zamanda, gender bərabərliyinin təmin olunması baxımından diqqət çəkir.*

Yazımızın əvvəlində “YouGov” portalının sorğusunun nəticələrindən bəhs etdik. Amma kütləvi rəy səviyyəsində müşahidə olunan dəyişiklikləri yalnız konkret siyasi qərarlarla izah etmək düzgün olmaz. Prosesdə psixoloji faktor da mühüm rol oynayır. Qərbi Avropa cəmiyyətində uzun illər davam edən böhranlar, pandemiya, enerji qiymətlərinin artması, inflyasiya və sosial narahatlıqlar xarici siyasətə baxışı daha praqmatik edib. ABŞ bu mənzərədə nə düşmən, nə də xilaskar obrazında görünür. Vaşinqton sadəcə Avropanın sosial modelini hər zaman nəzərə almayan aktor kimi qəbul edilir. “YouGov” sorğularında əks olunan ABŞ-a qarşı müsbət münasibətin azalması da məhz bu psixoloji yorğunluğun göstəricisidir. Aİ institutları bu emosional fonu diqqətlə izləyir və rəsmi ritorikanı kütləvi rəyin dalğalarına uyğun şəkildə saxlamağa çalışırlar.

Sonda qeyd edək ki, transatlantik münasibətlərdə müşahidə olunan gərginliklər böhran əlaməti kimi dəyərləndirilə bilər. Məlumdur ki, ABŞ və Aİ arasında maraqlar heç vaxt tam üst-üstə düşməyib. Hazırda da mövcud fərqlər gizlədilmir. Milano–Kortina Qış Olimpiya Oyunları fonunda yaşananlar göstərir ki, Avropa ictimaiyyəti artıq qlobal siyasətin passiv müşahidəçisi olmaqdan yorulub. Bu istək hələ tam formalaşmış siyasi strategiyaya çevrilməsə də, Aİ-nin gələcək kursuna təsir edəcək mühüm siqnaldır.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*

**Xəyal BƏŞİROV,**
**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq**



ABŞ-Aİ arasında uzun müddət davam edən siyasi gərginlik Milano-Kortina Qış Olimpiya Oyunlarının açılış mərasimində də özünü büruzə verdi. İdman və siyasətin ayrılığı prinsipi qorunmalı olsa da, mərasim zamanı bəzi siyasi fiqurların iştirakı və protokol detalları zalda narazılıq doğurdu. Mövcud gərginliyin səbəbini daha yaxşı anlamaq üçün problemin tarixi köklərinə nəzər salmaq lazımdır. Məlumdur ki, Birinci və İkinci Dünya müharibələrində ABŞ qalib tərəf kimi qənimətlərin bölünməsində ən çox fayda əldə edən ölkələrdən biri oldu. Faktiki olaraq müharibələrdə aktiv iştirak etməsə də, Vaşinqtonun İkinci Dünya müharibəsində itkiləri də Avropa və Sovet İttifaqı ilə müqayisədə az idi. Postmüharibə dövründə də ABŞ yarım əsr sonra üstünlüyü təmin etdi. Həmin dövrdə Marshall proqramı ilə Avropanın iqtisadiyyatı bərpa olundu və ABŞ-ın təsiri gücləndi. 1949-cu ildə NATO-nun yaradılması ilə ABŞ Avropanın təhlükəsizliyinin qarantı rolunu aldı. Beləliklə, Avropa təhlükəsizliyini əsasən ABŞ-a etibar etdi, çünki Sovet İttifaqının qarşısında durmaq gücü yox idi. Şərqi Avropa ölkələri isə ardıcıllıqla Sovet nüfuzu altına keçdi.

Avropa iqtisadiyyatını, turizmi və mədəniyyətini inkişaf etdirsə də, ordu quruculuğu zəif qaldı, bir çox ölkələrdə məcburi hərbi xidmət ləğv edildi. NATO üzv dövlətləri müdafiə xərclərinin ümumi daxili məhsulun 2 faizi səviyyəsinə əməl etmirdilər. 2019-cu ildə Brexit ilə Böyük Britaniya Aİ-dən çıxdı və proses NATO ilə Avropa İttifaqı arasında bəzi fikir ayrılıqlarına səbəb oldu. Rusiya-Ukrayna müharibəsi başlayandan sonra NATO-nun şərqə doğru genişlənməsi davam etdi. Lakin Ukrayna məsələsi yeni fikir ayrılıqları yaratdı. ABŞ Avropanın müdafiə imkanlarını artırmaq tələblərinə qarşı çıxdı. Bu fikir ayrılıqları gündən-günə artdı və NATO-da uzun müddət müttəfiq olan ABŞ Avropaya bəzi strateji məsələlərdə iddialar irəli sürdü. Bütün bu proseslər göstərir ki, Avropa artıq ABŞ-a tam etibar edə bilmir. Gələcəkdə, silahlanma və ordu quruculuğu indiki canlı qüvvə imkanları çərçivəsində həyata keçiriləcək. Məcburi hərbi xidmət bərpa ediləcək, ehtiyac olarsa, əlavə qüvvələrdən istifadə olunacaq. Avropa müdafiə təhlükəsizliyini təmin etmək məcburiyyətindədir. Bu yaxın 10 il ərzində Avropa bu istiqamətdə mühüm addımlar atacaq.

# Azərbaycan QHT nümayəndələrinin ABŞ-ın Vitse-prezidentinə açıq məktubu

**Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey Di Vensə açıq məktub ünvanlayıblar. Məktubda deyilir:**

“Hörmətli cənab Vitse-prezident,

Əsrlər boyu sivilizasiyalar arasında körpü rolunu oynayan bir xalqın nümayəndələri olaraq Sizə məktub yazırıq. Bura azan səsinin və kilsə zənglərinin əsl birgəyaşayış ruhunda ahəngdar şəkildə bir-birinə qarışdığı diyardır. Azərbaycan istənilən sabit cəmiyyətin təməlini təşkil edən mənəvi və ənənəvi dəyərlərə - ailənin müqəddəsliyinə, irsin mühafizəsinə və dini azadlığın qorunmasına sadiqdir.

ABŞ-ın hazırkı administrasiyasının din azadlığına və dinlərarası dialoqa güclü sadiqliyini nəzərə alaraq, biz Azərbaycanın davamlı irsini dinlərarası harmoniya və tolerantlıq nümunəsi kimi qürurla vurğulayırıq.

Ölkəmizin xristian dünyası ilə münasibətləri təkcə diplomatik deyil, həm də dərin mədəni xarakter daşıyır. Azərbaycan tarixən müxtəlif dini irsin qorunmasına, o cümlədən Vatikanda xristian kilsələrinin və müqəddəs yerlərin genişmiqyaslı təmirinə sərmayə qoyub. Müqəddəs Taxt-Tacla möhkəmlənən əlaqələrimizdən və ərazimizdə müxtəlif xristian məzhəblərinin artan mövcudluğundan son dərəcə qürur duyuruq. Azərbaycan çiçəklənən katolik icmasından tutmuş bu yaxınlarda Bakıda İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin təsis edilməsinə qədər dinlərin çiçəklənməsi üçün şərait yaratmağa davam edir. Paytaxtımızda ikinci Katolik kilsəsinin inşasının davam etdirilməsi bizim bu məsələyə sadiqliyimizi bir daha sübut edir ki, bu da cəmiyyətin öz dini müxtəlifliyi ilə gücləndiyinə inamımızın göstəricisidir.

Lakin hazırkı sülhə qədər keçdiyimiz yol dərin itkilərlə yadda qalıb. Biz 1987-ci ildən bəri Ermənistandakı dədə-baba torpaqlarından zorla çıxarılan Qərbi azərbaycanlıların üzləşdiyi tarixi ədalətsizliyi xatırlamalıyıq.

Yüzlərlə kənd viran qoyulmuş, evlər talanmış, İrəvandakı tarixi Göy Məscid də daxil olmaqla müqəddəs yerlər təhqir edilmiş və ya tarixi izləri silinmişdir.

Onilliklər ərzində Azərbaycan cəmiyyətinə inteqrasiya olmasına baxmayaraq, əcdadlarımızın məzarlarını ziyarət etmək və dağıdılmış evləri bərpa etmək arzusu xalqımızda dinc və humanitar bir ürək döyüntüsü olaraq qalır.

Qərbi azərbaycanlılar heç bir ərazi iddiası irəli sürmürlər. Onların məqsədi Ermənistanın suverenliyini təhdid etmək deyil, sülh və ləyaqət şəraitində öz yurd yerlərinə qayıtmaq kimi fundamental insan hüququnu həyata keçirməkdir. Biz tarixi bir yolayrıcındayıq. 2025-ci il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamə ümid işığı rolunu oynayır. Biz onilliklər boyu davam edən fikir ayrılıqlarını Prezident İlham Əliyevin və ABŞ Prezidenti Donald Trampın ticarət, təhlükəsizlik və qarşılıqlı hörmətlə müəyyənləşdirilmiş gələcəklə əvəzləmək barədə ortaq baxışlarını tam şəkildə dəstəkləyirik.

Cənab Vitse-prezident, biz 1990-cı illərin əvvəllərində Ermənistan Respublikasından qovulmuş azərbaycanlıların qayıtmaq hüququnun müdafiəsi və mədəni irsinin qorunması üçün Sizdən dəstək istəyirik.

Qərbi Azərbaycanlıların tarixi yurdlarına dinc yolla qayıtmalarına və Ermənistanda Azərbaycan xalqına məxsus dağıdılmış dini və mədəni irs yerlərinin bərpasına dəstəyiniz düzgün istiqamətdə atılmış mühüm bir addım ola bilər.

Bundan əlavə, biz inanırıq ki, əcdadlarının Ermənistandakı torpaqlarından zorla qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququ məsələsi real və hərtərəfli sülh yolu ilə həll olunmalıdır. Qərbi Azərbaycan İcması dinc qayıdışla bağlı konstruktiv dialoq çağırışı etsə də, bu çağırışlar cavabsız qalmışdır. Ədalətli və davamlı sülh bu icmanın öz doğma evlərinə sülh və təhlükəsiz şəraitdə qayıtmasını əhatə etməlidir.

Sizin liderliyiniz və mənəvi dürüstlüyünüz "2025-ci il sülhü"nün Qafqazdakı hər bir ailə üçün daimi gerçəkliyə çevrilməsini təmin edə bilər.

***Hörmət və ehtiramla,***
***Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri***

Ramil İskəndərli, Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri

Oğuz Məmmədov, “Zəngi - Tarixi İrsin Öyrənilməsi” İctimai Birliyinin sədri

Fuad Məmmədov, “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının Rəyasət Heyətinin sədri

Xatirə Vəliyeva, Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü

Rizvan Nəbiyev, “Hüquqi Təhlil və Araşdırmalar” İctimai Birliyinin İdarə Heyətinin üzvü

Tənzilə Rüstəmxanlı, “Azəri-Türk Qadınlar Birliyi"nin sədri

Novella Cəfərova, “D.Əliyeva adına Azərbaycan Qadın Hüquqlarının Cəmiyyətinin Müdafiə Cəmiyyəti” İctimai Birliyinin sədri

Səadət Bənənyarlı, “Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsi” İctimai Birliyinin sədri

Səltənət Qocamanlı, “İnsan Hüquqlarının və Qanunçuluğun Müdafiəsi” İctimai Birliyinin sədri

Sevinc Əlizadə, “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri

Əmir Əliyev, “İnsan Hüquqlarının Təşviqi Mərkəzi” İctimai Birliyinin sədri

Əliməmməd Nuriyev, Konstitusiya Araşdırmalar Fondunun rəhbəri

Zaur Məmmədov, “Bakı Politoloqlar Klubu” İctimai Birliyinin sədri

Rey Qasımov, “Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası” İctimai Birliyinin sədri

Hafiz Səfixanov, “Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyinin sədri

Zaur İbrahimli, “Prioritet” Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri

Xətai Ələsgərov, “Dədə Ələsgər Ocağı” İctimai Birliyinin sədri

Könül Behbudova, “Qarabağ İtkin Ailələri” İctimai Birliyinin sədri

Ayaz Mirzəyev, “Azərbaycan Jurnalistlər Şəbəkəsi” İctimai Birliyinin sədri

Dilqəm Əhməd, “Çapar” Milli İrsin Tədqiqi Mərkəzi İctimai Birliyinin sədri

Hacı Abdulla, “Zəngəzur” Cəmiyyətləri İctimai Birliyinin sədri

Fariz Xəlilli, “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri

Umud Rəhimoğlu, “Beynəlxalq Avrasiya Mətbuat Fondu”nun sədri

Mübariz Əsgərov, “Obyektiv” Milli Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyinin sədri

Şəhla Nağıyeva, “Sönməz Məşəl” Mədəni Əlaqələr İctimai Birliyinin sədri

Tünzalə Abdullalimova, “Vətən Naminə” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri

Ceyran Həsənova, “Şəhid Analarına Dəstək” İctimai Birliyinin sədri

Aqil Camal, “Ortaq Dəyərlər” İctimai Birliyinin sədri

Vüqar Qədirov, “Qayıdış və Dirçəliş Naminə Gənclər Təşkilatı” İctimai Birliyinin sədri

Xalid Kazımov, “Regional İnsan Hüquqları və Media Mərkəzi” İctimai Birliyinin sədri

Əhməd Abbasbəyli, “Cəmiyyətin İnkişafı Mərkəzi” İctimai Birliyinin sədri

İradə Rzazadə, “Vətəndaşların Sosial Rifahı Naminə” İctimai Birliyinin sədri

Kəramət İsmayılov, "İqtisadi və Sosial İnkişaf Mərkəzi” İctimai Birliyinin sədri

Fikrət Yusifov, “Ekonomiks” Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri

Şəlalə Həsənova, “İctimaiyyətlə əlaqələrin inkişafına dəstək” İctimai Birliyinin sədri

Zərifə Quliyeva, “Modern İnkişaf və Ailə” İctimai Birliyinin sədri

Məhluqə Rəhimova, “Əlil Qadınlar Cəmiyyəti” İctimai Birliyinin sədri

Vüsalə Hüseynova, İslahatçı qadınlar və innovasiyalar İctimai Birliyinin sədri

İlqar Hüseynli, Sosial-strateji tədqiqatlar və analitik araşdırmalar İctimai Birliyinin sədri

Varis Yolçiyev, Azərbaycan Ədəbiyyat Fondunun Baş direktoru

Səməd Vəkilov, “Müvəkkil Hüquq Mərkəzi” İctimai Birliyinin sədri

Cəsarət Hüseynzadə, “İnformasiya və Sosial Təşəbbüslərə Dəstək” İctimai Birliyinin sədri

Elşad Eyvazov, Tərəfsiz Jurnalistlər İctimai Birliyinin sədri

Fəridə Mirişova, “İz” Mədəniyyətin İnkişafına Dəstək İctimai Birliyinin sədri

Lalə Sərdarlı, “Tətbiqi Sənət Nümunələrinin Qorunmasına və Təbliğinə Yardım” İctimai Birliyinin sədri”.

**Cəmi: 45 imza.**

# Qərbi Azərbaycan İcması sülh prosesinə qarşı addımları pisləyib

**Qərbi Azərbaycan İcması son vaxtlar Ermənistanda və bir sıra digər ölkələrdə Azərbaycan-Ermənistan normallaşma prosesinə qarşı yönəlmiş təxribatçı addımları kəskin şəkildə pisləyir.**

İcmanın bununla bağlı yaydığı bəyanatda deyilir: “Bu günlərdə - Azərbaycan və Ermənistan liderlərinin Əbu-Dabidə müsbət ruhda keçirilmiş görüşü günü Fransa Senatının Azərbaycan xalqına qarşı dəhşətli cinayətlər törətmiş müharibə canilərinin azad olunmasına çağıran qətnamə qəbul etməsi, İsveçrə parlamentinin üzvünün Ermənistanda özlərini hansısa qondarma qurumun “rəhbərləri” kimi qələmə verən şəxslərlə görüşməsi, “Qarabağ məsələsi hələ bağlanmamışdır” kimi təxribatçı açıqlamalar verməsi bu qəbildən olan təxribatçı hərəkətlərdir.

Qərbi Azərbaycan İcması hesab edir ki, ilk növbədə, Ermənistan dövləti öz ərazisində artıq keçmişdə qalmış qondarma rejimin bütün “təsisatları”nı ləğv etməli, bundan başqa, regiondankənar aktorların sülhə maneə törədən əməllərini pisləyən açıqlamalar verməlidir”.

***XQ***

# Erməni idmançıların təxribatının qarşısı alınıb

**Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) “Milan-Kortina-2026” Qış Olimpiya Oyunlarında Ermənistanı təmsil edən idmançılar Karina Akopova və Nikita Raxmaninin fiqurlu konkisürmə üzrə qısa proqramda “Arsax” adlı musiqidən istifadə etməsinə qarşı ciddi etirazı ilə bağlı tədbir görülüb.**

Komitədən “Xalq qəzeti”nə verilən məlumata görə, MOK-un haqlı narazılığına Beynəlxalq Olimpiya Komitəsi (IOC) və Beynəlxalq Konkisürmə Birliyinin (ISU) rəsmi nümayəndələri münasibət bildiriblər.

Erməni idmançıların bu seçiminin Olimpiya Xartiyasının siyasi neytrallıq prinsiplərinə zidd olduğu nəzərə çatdırılıb və yarış vaxtı onların istifadə edəcəyi musiqinin adının dəyişdirilməsi barədə məlumat verilib.

Qeyd edək ki, XXV Qış Olimpiya Oyunlarına fevralın 22-də yekun vurulacaq.

***XQ***

*Qırmızı işıq*

**Müasir dünyada təhsil ocaqları mənəvi dəyərlərin formalaşdığı müqəddəs məkan sayılır. Lakin bir neçə gün əvvəl "İdrak" liseyində yaşanan gözlənilməz hadisə medianın və ictimaiyyətin diqqətini bu ali missiya ilə bağlı olmayan kriminal düşüncələrə – gənclər arasında artan aqressiya və mənəvi aşınmanın qaynaqlarına yönəltdi. Bir şagirdin müəlliminə silahlı hücum etməsi müəllim-şagird münasibətlərinin ağlasığmaz bir duruma çatdığını göstərir. Bu, bir təsadüfdürmü? Son vaxtlar məktəblərdə baş verən arzuolunmaz hadisələr göstərir ki, bu silsilə istisna və ötəri halı aşıb. Hadisənin təfərrüatları hüquqi baxımdan araşdırılsa da ortada olan pedoqoji-etik mənzərə budur: deyəsən, sinif otağı elm və irfan ocağı olmaqdan çıxıb.**

# Orta məktəbdə qəfil atəş səsləri...

## *Yeniyetmələri böyük cinayətlərə aparan yol niyə nəzarətsizdir?*

Bu hadisə milli təhsil sisteminə və müəllim nüfuzuna ağır zərbədir. Baş verənlər, sadəcə, məktəbdaxili münaqişə deyil, ailə tərbiyəsindən sosial mühitə qədər uzanan zəncirvari böhranın təzahürüdür. Xüsusilə, yüksək maddi imkanlara malik ailələrin övladlarında rast gəlinən, cəmiyyətdə bəzən "harınlıq" kimi qəbul edilən davranış formaları, maddi zənginliyin mənəvi böhranla əvəzlənməsi çılğın, qeyri-insani hərəkətlər üçün münbit zəmin hazırlayır.

Orta məktəblərdə şagirdlərin bir-birinə, həm də müəllimlərinə qarşı zorakılıq hallarının artması ciddi narahatlıq doğurur. Belə ki, ötən günlərdə Abşeron rayonu, Xırdalan şəhərində 1 nömrəli məktəbdə bir qrup şagirdin 17 yaşlı yeniyetməni döyməsi faktı ilə bağlı polisə məlumat daxil olub. Bundan əlavə, Sumqayıt şəhərində yerləşən 33 nömrəli tam orta məktəbdə 14 yaşlı şagirdin sinif yoldaşı tərəfindən fiziki zorakılığa məruz qalması ilə bağlı Daxili İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, fakt üzrə müvafiq ekspertiza təyin edilib və hazırda ərazi polis orqanında araşdırma aparılır.

Ən ciddi və ictimai rezonans doğuran hadisə isə fevralın 6-da baş verib. Səhər saatlarında Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə Binəqədi rayonu ərazisində fəaliyyət göstərən "İdrak" liseyindən çağırış daxil olub. Odlu silahdan açılan atəş nəticəsində xəsarət alan şəxsə ilkin tibbi yardım göstərilib, zəruri laborator və instrumental müayinələr aparılıb. Hadisəni törətməkdə şübhəli bilinən X sinif şagirdi Ə.Ş. prokurorluq tərəfindən saxlanılıb. Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb, ibtidai istintaq aparılır.

Baş verən hadisələr göstərir ki, məktəblərdə zorakılıq təkcə fərdi davranış problemi deyil, eyni zamanda cəmiyyətin ümumi psixoloji və sosial vəziyyətinin göstəricisidir. Bu tendensiyanın qarşısını almaq üçün yalnız cəza tədbirləri deyil, kompleks, sistemli və uzunmüddətli yanaşma tələb olunur.

Hadisənin işıqlandırılmasında media mənsublarının yol verdikləri etik xətalar Mətbuat Şurası tərəfindən haqlı olaraq tənqid edilsə də, mövzu sadəcə bununla məhdudlaşmır. Problemin kökündə dayanan uşaq aqressiyası, yeniyetmə özbaşınalığı və dəyərlər sisteminin aşınması məsələsi daha fundamental və dərindən analiz tələb edir.

**Şəmsəddin ƏLİYEV, istefada olan polis polkovniki, "Polisə dəstək" İctimai Birliyinin sədri, hüquqşünas:**

– Son bir il ərzində, eləcə də bu ilin əvvəlində orta məktəblərdə, xüsusilə azyaşlılar arasında baş verən ağır cinayətlər, bıçaqlanma halları açıq şəkildə göstərir



ki, problem artıq təsadüfi xarakter daşımır. Uzunluğu 5, hətta 10–15 santimetr olan kəsici-deşici alətlərin azyaşlıların sərbəst şəkildə əldə edə biləcəyi vəziyyətdə olması cəmiyyətdə ciddi narazılıq yaradır.

Bu məsələ Milli Məclisdə də müzakirə mövzusu olub və deputatlardan biri soyuq silahların azyaşlılara satışının qadağan edilməsi ilə bağlı normativ hüquqi aktın qəbul olunmasını təklif edib. Şəxsi mövqeyim ondan ibarətdir ki, bu təşəbbüs dəstəklənməlidir. Lakin hesab edirəm ki, burada əsas məsuliyyət yalnız qanunvericiliklə məhdudlaşmır. Valideyn nəzarətinin zəifliyi, valideynlərin övladları ilə və məktəblə təmasının kifayət qədər olmaması problemin əsas səbəblərindən biridir.

Hadisəyə hüquqi aspektdən yanaşsaq, cinayət törədən şəxsin yaşı Azərbaycan qanunvericiliyinə əsasən həlledici amildir. Cinayət Məcəlləsinin 19–20-ci maddələrinə görə, 16 yaşı tamam olmuş şəxs əgər əməlinin mahiyyətini dərk edirsə, cinayət məsuliyyətinə cəlb olunur. 14 yaşı tamam olmuş şəxslər isə yalnız qəsdən adam öldürmə, sağlamlığa ağır və ya az ağır zərər vurma, adam oğurluğu, təcavüz xarakterli zorakılıq hərəkətləri, soyğunçuluq, quldurluq və digər ağır cinayətlərə görə məsuliyyət daşıyırlar.

Mövcud məlumata əsasən, sözügedən hadisədə azyaşlı artıq 14 yaşını tamam etdiyindən törətdiyi ağır cinayətə görə mütləq qaydada cinayət məsuliyyətinə cəlb olunacaq. Lakin əgər istintaq zamanı onun əməli törədərkən anlaqsız vəziyyətdə olduğu, yəni xroniki psixi xəstəliyinin və ya psixi fəaliyyətinin müvəqqəti pozulmasının mövcudluğu sübuta yetirilərsə, bu halda məhkəmə-psixiatriya ekspertizasının rəyinə əsasən məsuliyyətdən azad edilə bilər. Bununla belə, müalicədən sonra məsuliyyət məsələsi yenidən gündəmə gələcək.

Digər mühüm məsələ hadisənin gizlədilməsi ilə bağlıdır. Cinayət Məcəlləsinin 307-ci maddəsinə əsasən, ağır və ya xüsusilə ağır cinayətin törədilməsi barədə bilə-bilə müvafiq dövlət orqanlarına məlumat verməmək cinayət məsuliyyəti yaradır. Bu maddəyə görə cərimə, 2 ilədək islah işləri və ya 2 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Əgər məktəb rəhbərliyi və ya digər şəxslər ağır cinayəti əvvəlcədən vəd etmədən gizlədiblərsə, bu, artıq hüquqi məsuliyyət doğurur.

Təəssüf ki, bəzi hallarda məktəb rəhbərliyinin əsas diqqəti təhlükəsizlik tədbirlərinə deyil, valideynlərdən toplanan ödənişlərə yönəlir. Bəzən bu məbləğlər illik 10-12 min, hətta 15 min manat civarında olur. Nəticədə, ümumi təhlükəsizlik maraqları, pedaqoji heyətin və şagirdlərin qorunması məsələləri kölgədə qalır. Silahın azyaşlının əlinə keçməsi məsələsi də son dərəcə ciddi faktdır. Cinayət Məcəlləsində odlu silahın diqqətsiz saxlanılmasına görə məsuliyyət nəzərdə tutulur. Odlu silahın sahibi, adətən, valideyndir və bu silah yalnız müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə əldə edilir. İcazə verilməzdən əvvəl həmin şəxsin evində yoxlama aparılır və silahın uşaqlar üçün əlçatmaz şəraitdə saxlanılması tələb olunur.

Əgər bütün bu tələblərə baxmayaraq, silah diqqətsiz saxlanılıbsa və nəticədə başqa bir şəxs həmin silahdan istifadə edərək ağır nəticələrə səbəb olan hadisə törədibsə, bu artıq cinayət tərkibi yaradır. Bu hal Cinayət Məcəlləsinin 230-cu maddəsi ilə tənzimlənir və silah sahibinin də məsuliyyətə cəlb olunmasını nəzərdə tutur. Həmin maddəyə əsasən, şəxs 2 ilədək islah işləri və ya 2 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırıla bilər. Yəni vətəndaş odlu silahı əldə edərkən onun üzərinə bir sıra hüquqi öhdəliklər qoyulur. Silahın saxlanma şəraiti, istifadə qaydası, təhlükəsizliyi təmin edən mexanizmlər, xüsusilə də himayəsində azyaşlı uşaqlar varsa, onların silaha çıxışının tam məhdudlaşdırılması əsas şərtlərdən biridir.

Digər tərəfdən, təhsil müəssisələrində təhlükəsizlik tədbirlərinin yetərli olmaması da ciddi hüquqi və sosial problemdir. Təxminən 17 il öncə Azərbaycan Dövlət Neft və Kimya Sənayesi Universitetində baş vermiş silahlı hücum hadisəsini xatırlatmaq kifayətdir. Həmin hadisə zamanı bir şəxs avtomat silahla universitet binasına daxil olmuş, pillə-pillə irəliləyərək qarşısına çıxan müəllimləri və tələbələri güllələmişdi. Hətta mühafizəçi belə bu hücuma müqavimət göstərə bilməmişdi və səhv etmirəmsə, o da qətlə yetirilmişdi. Hadisə zamanı auditoriyalar bağlanmış, böyük vahimə yaranmışdı.

Bu faciədən sonra bütün ali və orta təhsil müəssisələrində təhlükəsizliyin təmin olunması üçün təxirəsalınmaz tədbirlərin görülməsi zəruri idi. Lakin təəssüf ki, Elm və Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsi bu istiqamətdə sistemli və təsirli addımlar atmayıb. Cəzasızlıq və nəzarətsizlik mühiti, arxayınçılıq isə təhlükəsizlik boşluqlarını daha da dərinləşdirir bu boşluqlardan sui-istifadəyə şərait yaradır.

**Müsahibimiz açıqlamasının davamında qeyd etdi ki, hüquqi baxımdan da normativ bazada nəzarət mexanizmlərinin boşluqları açıq şəkildə görünür:**

– Soyuq və ov silahlarının gənclər tərəfindən nisbətən asan əldə olunması, məktəblərə giriş-çıxışa nəzarətin zəifliyi və ya ümumiyyətlə olmaması təhlükəni daha da artırır. Bu səbəbdən erkən xəbərdarlıq mexanizmlərinin qurulması, riskli davranışların vaxtında müəyyən edilməsi və azyaşlılarla məktəb daxilində məqsədyönlü psixoloji-tərbiyəvi işlərin aparılması son dərəcə vacibdir. Əks halda, bu problemlərin qarşısını almaq getdikcə daha çətin olacaq.

Bu prosesdə məktəb, ailə, polis orqanları, Elm və Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, ərazi polis idarələri və vətəndaş cəmiyyəti institutları birlikdə fəaliyyət göstərməlidir.

Mən dəfələrlə vurğulamışam ki, təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün Daxili İşlər Nazirliyi ilə Elm və Təhsil Nazirliyi arasında rəsmi əməkdaşlıq mexanizmi qurulmalıdır, konkret müqavilə imzalanmalıdır. Bu müqaviləyə əsasən, orta məktəblərdə, eləcə də ali və orta ixtisas təhsil müəssisələrində təhlükəsizliyin təmin olunması Daxili İşlər Nazirliyinin üzərinə öhdəlik kimi götürülə bilər. Bir neçə qurumun koordinasiyalı şəkildə hərəkət etməsi bu cür hadisələrin nəzarət altına alınmasına real imkan yarada bilər.

Dünya ölkələrində məktəblərdə təhlükəsizlik və zorakılığın qarşısının alınması ayrı-ayrı qurumların deyil, vahid sistemin işi kimi təşkil olunur. Əsas model erkən xəbərdarlıq mexanizminə əsaslanır. Müəllim və sinif rəhbəri riskli davranış göstərən 2–3 şagirdi vaxtında müəyyən edir və məktəbdaxili psixoloji xidmətə yönləndirir. Məktəb–polis əməkdaşlığı institusional xarakter daşıyır. Bir çox ölkədə polis əməkdaşı məktəbdə daimi və ya mütəmadi şəkildə fəaliyyət göstərir, məqsəd cəza yox, profilaktika və təhlükəsizlikdir.

Eyni zamanda, bu sahədə milli fəaliyyət planının qəbul olunmasını çox vacib hesab edirəm. Orta məktəblərdə tərbiyə, vətəndaşlıq və hüquqi şüurun formalaşdırılması məqsədilə vahid və sistemli yanaşma olmalıdır. Çünki vətəndaş olmaq həm də müəyyən vəzifələri dərk etmək və onları yerinə yetirməkdir.

Məktəb bu həssas və kövrək davranışlı uşaqlar üçün elə bir mühit yaratmalıdır ki, onlar gələcəkdə cəmiyyətə və dövlətə bağlı, məsuliyyətli və sağlam düşüncəli vətəndaşlara çevrilsinlər. Əgər təhlükəsizliyin təmin olunması ilə bağlı milli fəaliyyət planı qəbul edilərsə, burada vətəndaş cəmiyyətinin üzərinə konkret vəzifələr qoyulacaq, mərkəzi icra hakimiyyəti orqanlarının öhdəlikləri müəyyənləşdiriləcək və bu sənəd müvafiq dövlət aktı ilə təsdiq olunacaq.

**Nadir İSMAYILOV, Azərbaycan Psixiatriya Assosiasiyasının prezidenti, professor:**

– Təhsil sahəsində keçmişlə bu günü müqayisə etdikdə ciddi fərqlərin mövcud olduğu aydın görünür. Bu fərqlər, ilk növbədə, ölkənin bazar iqtisadiyyatına keçidi, yəni kapitalist sistemə qədəm qoyması ilə bağlıdır. Sosializm dövründə tamamilə



fərqli qanunlar hökm sürürdüsə, bu gün artıq başqa qaydalar keçərlidir. Lakin qeyd etmək lazımdır ki, biz hələ klassik kapitalizm mərhələsinə çatmamışıq, daha çox "vəhşi kapitalizm" şəraitində yaşayırıq. Bu isə cəmiyyətdə müəyyən uyğunsuzluqların və kobudluqların ortaya çıxmasına səbəb olur. Məktəbdə şagirdin müəllimə qarşı silahlı zorakılıq göstərməsi kimi hallar da məhz bu proseslərin nəticəsidir. Bu cür fərqlər təsadüfi deyil, əksinə, əvvəlcədən proqnozlaşdırıla bilən və gözlənilən proseslərdir. Çıxış yolu isə genişmiqyaslı və sistemli tərbiyəvi işlərin aparılmasından keçir.

Əvvəllər orta məktəbi bitirən şagird əlavə hazırlıq keçmədən ali məktəbə daxil ola bilirdi. Bu gün isə vəziyyət tamamilə fərqlidir. Şagird repetitor yanına getmədən, illərlə əlavə hazırlıq keçmədən, valideyn müəyyən maliyyə vəsaiti xərcləmədən universitetə hazırlaşa bilmir. Bu fakt özü göstərir ki, orta məktəb öz əsas funksiyasını lazımi səviyyədə yerinə yetirmir.

Hadisələr göstərir ki, bəzi valideynlərin öz övladları ilə tərbiyəvi söhbətlər etməsi kimi hallar mümkün deyil. Bəzi valideynlərin vaxtı çatmır, bəzilərinin maddi imkanları məhdududur, digərləri isə sadəcə olaraq tərbiyə vermə bacarığına malik deyil. Bu fərqlər kifayət qədər çoxdur və onların hər biri uşağın davranışına birbaşa təsir göstərir. Ailə daxilində aqressiv münasibətə məruz qalan uşaqların bu davranışları məktəb mühitində də əks etdirməsi də tamamilə təbiidir.

Belə uşaqların psixoloji gərginliyi dərs prosesinə, sinifdaxili münasibətlərə və ümumi tədris mühitinə mənfi təsir göstərir. Bu hal həm akademik göstəricilərin aşağı düşməsinə, həm də kollektivdə konfliktlərin artmasına səbəb olur. Bu da, uzunmüddətli emosional zorakılığa məruz qalan uşaqlarda diqqət pozuntusu, aqressiyanın idarə olunmaması və empatiya çatışmazlığı olaraq müşahidə edilir.

Mövcud vəziyyətdə məktəblərdə tətbiq edilən yeniliklərin böyük hissəsi gözlənilən nəticəni vermir. Əksinə, bəzən bu dəyişikliklər mövcud problemləri daha da dərinləşdirir. Bu baxımdan, təhsil sistemində müəyyən mənada köhnə, sınaqdan çıxmış qaydalara qayıdış zərurəti yaranır.

* * *

**Professor qeyd etdi ki, bu mövzu ilə bağlı ilk növbədə tərbiyə işi gücləndirilməli, maarifləndirmə və təbliğat sistemli şəkildə aparılmalıdır:**

– Müəllimlər şagirdlərlə daha ciddi və fərdi şəkildə məşğul olmalı, onların psixoloji vəziyyətinə biganə qalmamalıdır. Hər bir məktəbdə peşəkar psixoloqun fəaliyyəti zəruri hesab olunur. Eyni zamanda televiziya proqramlarında, qəzet və jurnallarda bu mövzuda maarifləndirici çıxışlara, sağlam tərbiyə modellərinin təbliğinə geniş yer ayrılmalıdır.

Nəzərə almaq lazımdır ki, xasiyyət baxımından insanlar nə qədər fərqlidirsə, davranış modelləri də bir o qədər müxtəlifdir. Bu, uşaqlara, yeniyetmələrə və böyüklərə eyni dərəcədə aiddir. Psixiatrların qənaətinə görə, bu davranışlara təsir göstərmək üçün uzunmüddətli, ardıcıl və peşəkar yanaşma tələb olunur; səthi və epizodik tədbirlər isə real nəticə vermir.

Bu cür halların qarşısını almaq bir-iki cümlə ilə mümkün deyil. Burada kompleks və sistemli yanaşma tələb olunur. Məktəblərdə ən müasir tərbiyə üsullarından istifadə edilməli, şagirdlərlə mütəmadi maarifləndirici söhbətlər aparılmalıdır. Xüsusilə risk qrupuna daxil olan uşaqlarla fərdi, individual psixoloji iş qurulmalıdır, kollektiv yanaşma ilə bərabər, fərdi psixokorreksiya tədbirləri də olduqca vacibdir.

Əgər uşaqda davranış pozuntuları, emosional qeyri-sabitlik və ya xasiyyətində patoloji əlamətlər müşahidə olunursa, bu zaman müdaxilə gecikdirilməməlidir. Belə hallarda uşağın vaxtında mütəxəssisə — psixoloq və psixiatra yönləndirilməsi vacibdir. Həkim klinik qiymətləndirmə apararaq diaqnostik tədbirlər görməli və zəruri hallarda psixoterapevtik və ya tibbi müdaxilə planı müəyyən etməlidir.

Ən çox rast gəlinən hallar xasiyyət pozuntuları, davranış pozuntusu (conduct disorder), emosional-iradi sahənin pozulması və psixopatiya kimi tanınan şəxsiyyət patologiyalarıdır. Bu cür patologiyalar uşaqlarda müxtəlif formalarda özünü büruzə verir. Uşaq tez-tez qaydalara əməl etmir, aqressiv davranış nümayiş etdirir, siqaret çəkməyə meyil göstərir, davaya qarışır və ətraf mühitlə konfliktə girir. Psixiatrik praktikada bu hallar impulsivlik, affektiv partlayışlar, empati çatışmazlığı və antisosial davranış meylləri kimi xarakterizə olunur. Belə uşaqlarla mütləq şəkildə davamlı psixoloji və pedaqoji iş aparılmalıdır.

"İdrak" liseyində baş vermiş silahlı insidentdən sonra isə həm həmin məktəbin şagirdləri, həm də ümumilikdə məktəb mühiti üçün xüsusi psixoloji yanaşma vacibdir. Bu cür hadisələrdən sonra uşaqlarda posttravmatik stress reaksiyaları, qorxu, təşviş və güvənsizlik hissi yarana bilər. Buna görə də şagirdlərlə ciddi və ardıcıl söhbətlər aparılmalı, baş verən hadisənin mahiyyəti onların yaş səviyyəsinə uyğun şəkildə izah edilməlidir.

Bu işi təkcə müəllimlər deyil, məktəb psixoloqları və kənardan dəvət olunan ixtisaslaşmış mütəxəssislər də həyata keçirməlidir. Çünki böhran sonrası dövrdə düzgün aparılan psixoloji dəstək gələcək zorakı davranış riskini əhəmiyyətli dərəcədə azaldır.

Bu kimi hallarda isə yeniyetmələrdə silaha və zorakılığa maraq yaranmasının əsas səbəblərindən biri nəzarətsiz mühit və daxili aqressivliyin idarə olunmamasıdır. Bəzi hallarda bu marağın arxasında psixopatiya adlandırılan xasiyyət patologiyası və ya davranış pozuntuları dayanır. Bunu vaxtında aşkar etmək mümkündür və erkən müdaxilə ilə bu cür meyllərin qarşısını almaq olar.

**Yeganə HACIYEVA, Mətbuat Şurası İdarə Heyətinin üzvü, politoloq:**

– "İdrak" liseyində yaşanan insident zamanı bəzi media mənsublarının davranışı "Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları"nın tələblərinə tamamilə ziddir. Media və jurnalistlər ictimai maraq doğuran mövzuları işıqlandırarkən uşaqların hüquqlarına hörmət prinsipini müzakirə predmeti deyil, dəyişməz peşə borcu kimi qəbul etməlidirlər.

Uşaqların hüquqları hər hansı informativ məqsədin, reytinq marağının və ya ictimai maraq adı altında təqdim olunan sensasiyanın fövqündə dayanır. Heç bir halda "ictimai maraq" anlayışı uşağın hüquq, ləyaqət, şəxsi həyat, təhlükəsiz və psixoloji bütövlüyünün pozulmasına bəraət qazandıra bilməz. Jurnalist fəaliyyəti zamanı uşaqlara bağlı məlumatların toplanması və yayımı xüsusi məsuliyyət və maksimum ehtiyat tələb edir.

Valideynlərin və ya qanuni nümayəndələrin açıq razılığı olmadan uşaqlarla ünsiyyət qurulması, onların görüntülərinin və şəxsi məlumatlarının dərc edilməsi yalnız müstəsna və ciddi ictimai əhəmiyyət kəsb edən hallarda, uşağın ali



mənafeyi təmin olunmaqla mümkün ola bilər. Xüsusilə zorakılıq, cinayət, faciə və sosial risklərlə bağlı hallarda uşaqların kimliyinin açıqlanması jurnalist etikasının kobud pozuntusu olmaqla yanaşı, onların gələcək həyatına geridönməz zərər vurmaq potensialı da daşıyır. Media subyektləri uşaqların hüquqlarına hörmət etməməyi sadəcə peşə səhvi deyil, ictimai məsuliyyətin inkarı kimi dəyərləndirməlidirlər.

Jurnalistlər fəaliyyətlərində uşaqların məsumluğundan və onlara xas olan inamdan sui-istifadəyə yol verməməli, valideynlərinin və ya qanuni nümayəndələrinin razılığı olmadan azyaşlılarla müsahibə aparmaqdan çəkinməlidirlər. Etik prinsiplərin 3.9-cu bəndinə əsasən, müstəsna ictimai maraq daşıyan hallar istisna olmaqla, uşaqların şəxsi həyatına dair məlumatların və görüntülərin dərc edilməsi yolverilməz hesab olunur. Xüsusilə faciəvi və ya cinayət xarakterli hadisələrə cəlb edilmiş uşaqların şəxsiyyətinin açıqlanması qəti şəkildə qadağandır və onların kimliyinin qorunması jurnalistin birbaşa peşəkar məsuliyyəti kimi qiymətləndirilməlidir.

Media təmsilçilərinin şagirdlə ünsiyyət forması jurnalist peşəsinin etik normalarına və reputasiyanın qorunması prinsipinə ziddir. Bu kontekstdə "ictimai əhəmiyyət" anlayışı "ictimaiyyət üçün maraq doğuran" informasiya ilə yanlış şəkildə eyniləşdirilmişdir. Halbuki ictimai maraq jurnalistin müdaxilə formasını və istifadə etdiyi dili legitimləşdirmir. Sözügedən davranışlar faktların obyektiv şəkildə üzə çıxarılmasına xidmət etmir, əksinə, jurnalistikanın məsuliyyət, həssaslıq və peşəkarlıq prinsiplərinin pozulması kimi qiymətləndirilməlidir və peşəkar davranış nümunəsi hesab edilə bilməz.

Ekspert qismində müzakirəyə dəvət etdiyimiz müsahiblərimizin açıqlamalarından da göründüyü kimi, həssaslıq peşəkarlığın əsas və dəyişməz meyarlarından biridir. Xüsusilə ictimai məzmun istehsalında bu anlayış sadəcə etik prinsip deyil, həm də cəmiyyət qarşısında məsuliyyətin göstəricisidir. Həssaslıq qorunmadıqda hazırlanan materiallar yanlış anlaşılmalara, ayrı-seçkiliyin dərinləşməsinə və sosial gərginliyə səbəb ola bilər. Buna qarşılıq olaraq, yalnız bu kriteriyaya riayət edilərək hazırlanan məzmunlar maarifləndirici rol oynayır, sağlam ictimai rəyin formalaşmasına töhfə verir və cəmiyyətə real fayda gətirir. Əks yanaşmalar isə qısa müddətli diqqət çəksə belə, uzunmüddətli perspektivdə etimadı zədələyir və ictimai dəyərlərə ziyan vurur. Yanan "qırmızı işıq" hamını həssaslığa və qətiyyətə səsləyir. Qələm tutan uşaq və yeniyetmə əlləri bıçaqdan, tətikdən, yumruq davasından uzaq olmalıdır.

***Hazırladılar:***
***Ləman TƏHMƏZ***
***Fidan ƏLİYEVA***
***Elenora HƏSƏNOVA***
***XQ***

*(əvvəli 6 fevral 2026-cı il tarixli sayımızda)*

*2026 – Şəhərsalma və Memarlıq ili*

# Memarlıq və şəhər sosiologiyası

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə keçirilən ilk Azərbaycan Milli Şəhərsalma Forumu tədbirlər çərçivəsində xüsusi əhəmiyyət kəsb etdi.**

Məlum olduğu kimi, 2015-ci ildə BMT-yə üzv dövlətlər tərəfindən Dayanıqlı İnkişaf Məqsədləri (DİM) qəbul edilmişdir. Azərbaycan da bu məqsədlərə qoşulmuşdur və “Şəhərlərin inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı olmasını təmin etmək” üzrə 11-ci məqsəd qlobal hədəflərdən biridir.

2016-cı ildə “Mənzil Təminatı və Dayanıqlı Şəhər İnkişafı”na dair keçirilmiş III HABITAT konfransında BMT Baş Assambleyasının qətnaməsi ilə DİM-lər nəzərə alınmaqla “2030-cu ilədək Dayanıqlı Şəhərlər və Yaşayış Məskənlərinə dair Kioto Bəyannaməsi” və “Yeni Şəhər Gündəliyi” (“New Urban Agenda”) qəbul edilmişdir. Hər iki sənəd şəhərlərin qurulması, idarə olunması və komfortlu yaşayış üçün şəhər mühitinin yaxşılaşdırılmasını nəzərdə tutan fəaliyyət yönümlü olmaqla bərabər, həm də 11-ci DİM-ə nail olmaq üçün zəruri indikatorları müəyyən edir.

İlk Azərbaycan Milli Şəhərsalma Forumu - Ağdam Forumu hökumətimizin UN-HABITAT ilə birgə təşəbbüsü idi. Ağdam Forumu şəhərsalma sahəsində təcrübə mübadiləsi və dayanıqlı inkişafın təmin edilməsi üçün beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından daha səmərəli bir platforma rolunu oynadı. Ağdam Forumunun başlıca mövzusu BMT-nin müəyyən etdiyi əsas alətlər olaraq DİM-in və “Yeni Şəhər Gündəliyi”nin postmünaqişə dövründə bərpa və yenidənqurma layihələrində aparıcı qüvvə roluna həsr olunmuşdu. Forumun ilk günü işğaldan azad olunmuş Ağdam şəhərində, ikinci günü isə ADA Universitetinin dəstəyi ilə Bakıda baş tutdu. Tədbirdə 45 ölkədən yerli və xarici hökumət rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri, akademik dairələr, mütəxəssislər və digər



maraqlı tərəflər iştirak etdi. İlk Azərbaycan Milli Şəhərsalma Forumunun ümumilikdə 400-dən çox iştirakçısından 130-u xarici ölkələri təmsil edirdi.

Dövrümüzün acı reallığı ondan ibarətdir ki, dünyanın bir sıra ölkələri hərbi münaqişələr nəticəsində yaşayış məntəqələrinin postmünaqişə reabilitasiyası ilə üz-üzədir. Azərbaycan ərazisinin 20 faizi uzun illər işğala məruz qalmış, 900-ə yaxın yaşayış məntəqəsi tamamilə dağıdılmış, 1 milyon hektardan çox torpaq sahəsi kənd təsərrüfatı dövriyyəsindən çıxarılmış, yüzlərlə mədəni irs obyekti məhv edilmişdir.

Təəssüf ki, azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin çox geniş şəkildə aparılmasına böyük maneçilik törədən həmin yerlərin minalardan və partlamamış sursatlardan hələ də təmizlənməməsi məsələsidir. Faktiki olaraq bərpa-quruculuq işlərinin tempi və məcburi köçkün əhalinin repatriasiyası məhz bu faktordan asılıdır.

Ağdam “Qafqazın Xirosiması” adlandırılır. Forum iştirakçılarına, xarici qonaqlara Ağdamın işğalı zamanı burada törədilmiş urbisid, ekosid, kulturasidin acı nəticələrini və dövlətimiz tərəfindən hazırda aparılan genişmiqyaslı quruculuq işlərini canlı göstərmək də çox önəmli idi.

İnnovasiya və texnologiyalar sahəsində beynəlxalq ekspert Alexandro de Leon Moreno yaxın 5–10 il perspektivində Azərbaycan üçün xüsusilə mühüm rol oynayacaq iki əsas tendensiyanı qeyd edir. O, birinci əsas tendensiya kimi rəqəmsal inklüzivliyi göstərib. Vurğulayıb ki, məhz bu prinsip əsasında “Microwd” şirkətinin mikromaliyyələşdirmə və sosial təsir sahəsində fəaliyyət göstərən beynəlxalq fintex platforması qurulub və məhz rəqəmsal inklüzivlik şirkətin böyüməsinə və real



sosial təsir yaratmasına imkan verib. Onun fikrincə, texnologiyalar ənənəvi olaraq bu proseslərdən kənarda qalmış əhali qruplarına – kənd sakinlərinə, girovu olmayan və ya maliyyə imkanları məhdud olan insanlara maliyyə və rəqəmsal xidmətlərə çıxış təmin edə bilər. Rəqəmsal alətlər bu cür xidmətləri sürətli, münasib qiymətə və təhlükəsiz edir. Onun fikrincə, dövlətlər erkən yaşlardan rəqəmsal savadlılığı və texnoloji təhsili inteqrasiya etməli, eyni zamanda, dəyişikliklərə uyğunlaşması daha çətin olan insanlara – yaşlılara və həssas əhali qruplarına xüsusi diqqət göstərməlidir. Onun sözlərinə görə, heç kimin geridə qalmamasına zəmanət vermək təkcə texniki vəzifə deyil, həm də mənəvi çağırışdır.

Ağıllı şəhərlərin yaradılmasının fəlsəfi və etik aspektləri, xüsusilə Bakıda həyata keçirilən layihələr kontekstində Alexandro de Leon Morenonun təbirincə desək, əsas prinsip insanın texnoloji inkişafın mərkəzinə qoyulmasıdır. Texnologiya məqsəd yox, vasitə olaraq qalmalıdır. Leon Moreno insan mərkəzli yanaşmanın vacibliyini önə çəkir. İstənilən milli rəqəmsal inkişaf strategiyası əhalinin bütün müxtəlifliyini, o cümlədən kənd regionlarının sakinlərini, internetə çıxışı məhdud olan və rəqəmsal savadlılıq səviyyəsi aşağı olan insanları nəzərə almalıdır. Həllər mahiyyət etibarilə inklüziv olmalıdır, əks halda, mövcud sosial və iqtisadi bərabərsizliyin daha da dərinləşməsi riski yaranır.



Şəhər getdikcə inklüziv və davamlılıq üçün mərkəz kimi tanınır. Yeni Urban Agenda bu elementləri planlaşdırma və idarəetmə proseslərinə daxil etməklə, şəhər ərazilərinin sosial birliyi, dayanıqlılığı və canlılığı təşviq etməsi ehtiyacını vurğulayır.

Şəhər məkanları sosial birliyi və icma iştirakı gücləndirmək üçün vacibdir . İctimai yerlərin planlaşdırılması və dizaynı zamanı əlilliyi olan şəxslər nəzərə alınmalıdır. Şəhərsalanlar yerli icmalar və dizayn mütəxəssisləri arasında əməkdaşlıq uğurlu inklüziv məkanlar yaratmaq üçün çox vacibdir.

Dizaynda inklüzivlik hamı üçün qonaqpərvər olan şəhərlərin yaradılması, sosial qarşılıqlı əlaqənin təşviq edilməsi və təhlükəsizliyin artırılması üçün çox vacibdir. İnklüziv şəhər məkanları müxtəlif icmaların ehtiyaclarına cavab verən ictimai sahələrdir. Ədalətli yerləşdirmə və inklüziv urbanizm məkanları qonaqpərvər və əlçatan olmağı hədəfləyir, bütün mənşəli insanlara təklif etdikləri imkanlardan sərbəst istifadə etməyə və həzz almağa imkan verir. Sakinlərin müxtəlif ehtiyaclarını və üstünlüklərini nəzərə alaraq, dizaynerlər sosial birliyi gücləndirən, kənarlaşmanı azaldan və aidiyyət hissini təşviq edən məkanlar yarada bilərlər. İnklüziv şəhər məkanları təkcə əlçatanlıq deyil, həm də cəmiyyətin bütün üzvləri üçün həqiqi qarşılıqlı əlaqə və aidiyyət hissini inkişaf etdirməkdir. İnklüziv dizayn maneələri aradan qaldırmağa və hər kəs üçün xoş bir mühit yaratmağa yönəlmiş vahid yanaşmadır.



İştirakçı planlaşdırma inklüziv şəhər məkanlarının yaradılması üçün vacibdir. İstifadəçi araşdırması və yerli icmalardan, o cümlədən əlilliyi müdafiə edənlərdən rəylər dizaynerlərə müxtəlif istifadəçi qruplarının üzləşdiyi xüsusi problemləri anlamağa kömək edir. Məsələn, Londonun Temza yolunun yenidən qurulması daha geniş, hamar yollara və əlçatan işarələrə səbəb olan icma üzvlərinin rəyini birləşdirdi. İstifadəçi sınağı və rəyi vasitəsilə davamlı təkmilləşdirmələr bütün şəhər sakinlərinin ehtiyaclarını ödəmək üçün ictimai yerləri zərifləşdirmək üçün çox vacibdir.

İnklüziv dizayn yerli kimliyin, mədəni irsin qorunmasını nəzərdə tutur. Rəssamlar, dizaynerlər və ekspertlər şəhərsalma prosesinə cəlb etməlidir. İnklüziv şəhər məkanları şəhərləri dəyişdirmək gücünə malikdir. Yaşama uyğun mühitlər, cəmiyyətin müxtəlif ehtiyaclarına cavab verən mühitlər yaratmaqla bu məkanlar sosial birliyi gücləndirir. İnklüziv şəhər məkanları müxtəlif mənşəli insanlar üçün qarşılıqlı əlaqə yaratmaq, icma hissini inkişaf etdirmək üçün platformalar təqdim edir. Valuable 500-ün sorğusu, Amsterdam, London və Sinqapur da daxil olmaqla 10 şəhərin 3,500 əlil insan tərəfindən “ən əlçatan” seçildiyini və müxtəlif giriş ehtiyacları olan şəxslərə cavab verən məkanların dizaynının vacibliyini vurğuladı. Əlçatanlıq fiziki xüsusiyyətlərdən kənara çıxır, həmçinin görmə və ya eşitmə qüsurları olanlara dəstək olmaq üçün audio siqnallar, brayl işarələri və toxunma xəritələri kimi xüsusiyyətlərlə sensor inklüzivliyi də əhatə edir. Bundan əlavə, asanlıqla əldə edilə bilən ictimai xidmətlər, nəqliyyat cədvəlləri və hadisələr haqqında məlumat vasitəsilə məlumatın əlçatanlığının təmin edilməsi inklüziv şəhərin inkişafı üçün açardır.



Şəhərlərdə əlçatanlığın faydaları uşaq arabası olan valideynlər, yaşlı şəxslər və dil maneəsi olan turistlər kimi müxtəlif şəxslərə şamil edilir və bu, inklüziv şəhər məkanlarının daha geniş təsirini göstərir. İnklüziv şəhər məkanları həm də sakinlərin ümumi sağlamlığına və rifahına töhfə verir. Etibarlı, mənalı münasibətlər insanın ömrünü 50 faiz artıra bilər və Alyaskada Gənclik 360 kimi təşəbbüslər marjinal icmalar üçün nəqliyyat, ictimai yerlər və kommunikasiya kanallarına çıxışı artıraraq, sosial təcridi azaldır və bu problemi həll etmək üçün yerli imkanları təkmilləşdirir. Əlçatan istirahət zonaları təmin etməklə və aktiv həyat tərzini təşviq etməklə, inklüziv şəhərlər hamı üçün daha canlı və yaşana bilən olur.



Şəhər inkişafı ilə mədəni irsin və yerli kimliyin qorunub saxlanması arasında tarazlığın yaradılması çox həssas işdir. Bakıda, İçərişəhərdə biz maksimum çalışmalıyıq ki, elə bu elan olunmuş il çərçivəsində yad elementləri oradan çıxaraq, şirkətlər və firmaların oradan köçürülməsinə nail olmaq, qədim şəhərin əvvəlki memarlıq, dizayn, arxitekturasını özünə qaytaraq, eyni zamanda, bundan daha əhəmiyyətli içəri şəhərli icmanın orada yaşamaqda davam etməsinə nail olaq, bu şəhərin əvvəlki reallıqlarını elə bərpa etməliyik ki, həmin icmanın şəhərin başqa yerlərinə köçmüş hissəsi belə geridönüşdə maraqlı və həvəsli olsun, beləliklə də İçərişəhərdə mövcud olmuş bəlli icma ruhunu sosial varisliyini gələcək nəsillərə ötürülməsinə müvəffəq olaq. İçərişəhər ancaq bu halda həm daha yüksək əyyarlı turistik qiymət alacaq, həm də ölkəmizin daha dəyərli sərvətinə çevrilə bilər.

Bakının köhnə məhəllələrindən “Papanin”, “Sovetski”, “Xutor” kimi məhəllələri yenidən dizayn edilərkən sosioloji baxımdan bir sıra həssas məsələlərə yanaşma zamanı daha ağlabatan həllər tapmaq məqsədəuyğun olardı. İlk növbədə, onu qeyd edək ki, sözügedən məhəllələrdə bəlli sosioekomühit, uzunmüddətli birgəyaşayış əsasında icma ruhu, adət-ənənələr, arxetiplər formalaşmışdı. Bu da həm şəhərimizin sosial panaramasına özünəməxsus rəng qatır, eyni zamanda, həmin məhəllə sakinlərinin icma qaydaları çərçivəsində özünütənzimləmə mexanizmini formalaşdıraraq paytaxtımıza məxsusi sosial xarakterli kalorit bəxş edirdi. Həmin məhəllələrdə küçələr, həyət-baca şəhərimizin digər məkanları ilə müqayisədə çağırışa cavab verməyən səviyyədə olsa da bu məkanda söküntü apardıqdan sonra yeni yaşayış binaları tikib məhz oranın sakinlərinə təqdim etmək olardı. Bununla da onlar hərəsi bir yerə düşməz, icma ruhu qorunar, doğma məkanlarından, uşaqlıq xatirələri ilə dolu məkanı çarəsiz tərk etməz, köhnə məkanda yeni mənzillərində sağlam bir ömür davam edə bilərdilər. Həmin məhəllə sakinlərinin telemüsahibələrində biz bu çarəsiz gileyləri hər daim eşitməkdə və görməkdəyik.

İnklüziv şəhər dizaynı xüsusi tələbləri olanlar da daxil olmaqla, bütün icma üzvlərinin müxtəlif təcrübələrini və ehtiyaclarını nəzərə almalıdır. Autizm spektr pozuqluğu (ASD) olan insanlar sosial ünsiyyət və qarşılıqlı əlaqə, təkrarlanan davranışlar, duyğu həssaslığı və ictimai yerlərdə sosial işarələri anlamaqda çətinliklərlə üzləşə bilərlər. Sensor stimulların dəyişdirilmiş qavrayışı və ətraf mühitdən məlumatların emalı ASD-də əsas problemdir və xüsusi səslərə və ya toxumalara mənfi reaksiyalara, həddindən artıq qoxuya və ya obyektlərə toxunmağa, işıqlar və ya hərəkətlərə heyran olmağa səbəb olur.

Səsuducu materiallar və ya təyin edilmiş sakit ərazilər kimi səs-küyün azaldılması strategiyalarının həyata keçirilməsi autizmli insanlar üçün həddən artıq yüklənməni minimuma endirməyə kömək edə bilər.

Şəhərin səs kirliliyi məsələsi də bu gün paytaxt Bakıda xüsusi aktuallıq kəsb edir. Nasaz avtomobillərin çıxardığı səs və havanı zəhərləyən tüstü, standart ölçüdən kənara çıxan mopet, motosiklet və digər nəqliyyat vasitələrinin yaratdığı akustik travmalar şəhəri dözülməz hala gətirir. Hesab edirik ki, qısa zaman kəsiyində, elə şəhərsalma və arxitektura ili çərçivəsində rasional müdaxilə ilə bu dözülməz vəziyyəti aradan qaldırmaq mümkündür.



Şəhərlər daha inklüziv olmağa çalışdıqca, şəhər dizaynına və icmanın cəlb edilməsinə innovativ yanaşmaları nümayiş etdirən bir neçə ruhlandırıcı nümunə var. Barselonada, İspaniyada, şəhər daha əlçatan və ədalətli şəhər mühiti yaradaraq, şəxsi avtomobillərdən daha çox piyadalar, velosipedçilər və ictimai nəqliyyata üstünlük verən hərtərəfli şəhər hərəkətliliyi planını həyata keçirib.

Kolumbiyanın Medellin şəhərində “kitabxana parkları” təşəbbüsü keçmiş narkotik ticarəti nöqtələrini canlı icma məkanlarına çevirərək təhsil resursları və sakinlər üçün təhlükəsiz toplaşma yerləri təklif edib. Bütün dünyada Danimarkanın Kopenhagen şəhərində yerləşən Superkilen Parkı 50-dən çox ölkədən elementləri özündə birləşdirib, qonşuluğunun mədəni müxtəlifliyini qeyd edir və inklüziv dizaynın gücünü nümayiş etdirir. Keçmiş sənaye sahəsini dəyişdirən Sietldəki Qaz İşləri Parkının uyğunlaşdırılmış şəkildə təkrar istifadəsindən tutmuş, hər il milyonlarla turisti cəlb edən Barselonadakı məşhur Park Güell-ə qədər bu nümunə araşdırmaları inklüziv şəhər məkanlarının yaradılması üçün müxtəlif və innovativ yanaşmaları nümayiş etdirir. Nyu-Yorkdakı High Line və Parisdəki Promenade Plantée, uğurlu inteqrasiyanın daha bir nümunəsidir. Texnologiya şəhər məkanlarında mədəni müxtəlifliyin və inklüzivliyin təşviqində mühüm rol oynayır. Yerli media və rəqəmsal platformalar həssas icmaların səslərini gücləndirən və onların hekayələrini və töhfələrini şəhər quruluşunda paylaşmağa imkan verən güclü alətlər kimi ortaya çıxdı. Sosial media sakinləri mədəni layihələr, şəhərsalma və ictimai məkanların canlandırılması ilə bağlı müzakirələrə cəlb edən dinamik interfeys rolunu oynayır.

Xatırladaq ki, “Ağıllı Şəhər” Həlləri bütün sakinlər üçün əlçatanlığı artırmaq və şəhər xidmətlərini yaxşılaşdırmaq potensialına malikdir. İnfrastruktur və xidmətlərin təkmilləşdirilməsi ilə yanaşı, texnologiya həm də şəhərsalma və dizayna daha inklüziv və iştirakçı yanaşmalara imkan verib. Yerli icmaların və təşkilatların cəlb edilməsi planlaşdırmanın müxtəlif ehtiyacları və istəkləri əks etdirməsini təmin edir, icma daxilində aidiyyət və sahiblik hissini gücləndirir. Memarlar və dizaynerlərlə əməkdaşlıq bütün istifadəçilərin ehtiyaclarına cavab verən funksional və estetik baxımdan inklüziv məkanların yaradılmasında zəngin təcrübə gətirir.

Yerli planlaşdırma görüşlərində fəal iştirak etmək fərdlər üçün inklüziv şəhər məkanlarını müdafiə etmək üçün güclü bir yoldur. Bu, təkcə sakinlərə dəyərli rəy bildirməsinə imkan vermir, həm də müxtəlif icmaların səslərinin eşidilməsinə kömək edir. Nəticədə şəhərsalama və arxitektura prosesində ictimai iştirakçılıq təmin olunur, şəhər korporativ sosial məsuliyyət altına alınaraq gələcək nəsillərə yadigar qalır.

*Üzeyir ŞƏFİYEV,*
*sosioloq*

*I Türkoloji Qurultay – 100*

# Türk dillərinin ədəbi dil məsələləri

*Ortaq ədəbi dil ideyasının müzakirəsi*

***(əvvəli 6 fevral 2026-cı il tarixli sayımızda)***

Berdyayev xalq dili və ədəbi dil arasında ciddi fərq qoyur. Xalq dili təbii, gündəlik danışıq dilidir, ədəbi dil isə xalq dilinin üzərində qurulan, lakin tam onunla eyni olmayan kultivə edilmiş formadır. "Ədəbi dil olmamalıdır" demək doğru deyildir, çünki xalq özü ədəbi dilə ehtiyac duyur. Amma, eyni zamanda, qeyd edir ki, bu, heç də ədəbi dilin xalqın gündəlik danışığı ilə tam eyni olacağı demək deyil.

Berdyayevə görə, türk xalqları iqtisadi və mədəni əlaqələrlə tədricən yaxınlaşır, yəni ədəbi birləşmə təbii, tarixi proses kimi mümkündür, "ümumi ədəbi türk dili mümkündür" fikrini qəbul edir; o, Çobanzadənin daha inteqrativ yanaşmasına nisbətən daha praqmatikdir, Suleyevin pessimizmini bir qədər yumşaldır, Manatovun radikal antipurizm mövqeyindən uzaqdır, Köprülüzadənin tarixi paralellərini nəzərə alsa da, amma "qəti qərar vermək hələ tezdir" deyir.

**Aleksandr Nikolayeviç Samoyloviç.** Əgər biz türklərin danışdığı dili "ümumtürk dili" adlandırmaq barədə razılığa gəlmişiksə, onda əvvəlcə etiraf etməliyik ki, bu dil bir neçə dialektə parçalanır. Bir tərəfdən biz çuvaş dilinin, digər tərəfdən isə yakut dilinin formalaşdığını görürük. Bu iki dili kənara qoysaq, qalan bütün türk dilləri ayrıca bir "dil" yox, yalnız dialekt və şivə kimi səciyyələndirilə bilər. Türk tayfalarının yaşadığı geniş ərazilərin böyük hissəsində bir-birinə olduqca yaxın olan müxtəlif dialekt və şivələr yayılmışdır. Digər dil ailələri ilə müqayisədə türk dilinin dialekt və şivələri bir-birinə o qədər yaxındır ki, belə bir yaxınlıq slavyan və german dilləri arasında belə müşahidə olunmur. Buna görə də, heç olmasa, ayrı-ayrı qruplar üzrə türk dialektlərinin birləşməsi üçün nəzəri zəmin, şübhəsiz ki, olduqca əlverişlidir. Təkcə ədəbi dilin deyil, həm də danışıq dilinin və dialektlərin bir-birinə yaxınlaşması prosesi faktiki olaraq artıq gedir. Əlbəttə, yalnız inzibati yolla, yəni əmrlə dərhal vahid ədəbi dil yaratmaq olmaz. Bir tərəfdən biz tarixi baxımdan bir-birinə yaxın olan dialektlərin, məsələn, Cənub-Qərb qrupu daxilində həm ədəbi, həm də danışıq səviyyəsində yaxınlaşmasını müşahidə edirik, digər tərəfdən isə Özbəkistanda, o biri yandan Volqaboyu bölgəsində həm ədəbi, həm də danışıq dilində yaxınlaşma meyilləri görünür. Buna görə ədəbi dilin formalaşdırılması məsələsinə bədbin yanaşmağa əsas yoxdur. Dil ünsiyyət vasitəsi, yəni sosial hadisə olduğuna görə, onun müəyyən dərəcədə birləşməsi tamamilə zəruri və arzuolunan prosesdir. Doğrudan da ayrı-ayrı türk xalqlarının bir-birinə yaxınlaşması iqtisadi zəminin genişlənməsi, ədəbiyyat mübadiləsinin güclənməsi nəticəsində heç bir fərdin zorakı müdaxiləsi olmadan baş verir; biz yalnız ədəbi dillərin deyil, həm də danışıq dillərinin yaxınlaşması və tədricən uyğunlaşması faktı ilə üz-üzə qalırıq.

* **

Samoyloviç məruzəsini dilçilik elmində çox mühüm olan "dil – dialekt sərhədi" konsepsiyası üzərindən qurur. Baza mövqeyi müəyyən edir: əgər "ümumtürk dili" anlayışını qəbul ediriksə, deməli, bu dil dialektlər sistemidir. Türk dillərinin əksəriyyəti ayrıca "dil" yox, dialektdir. O bildirir ki, çuvaş və yakut dilləri istisna olmaqla (onlar əsl müstəqil dillərdir – N.M.), qalan türk dilləri (tatar, qazax, özbək, Azərbaycan, türkmən və s.) bir dilin daxilində dialektlər kimi başa düşülə bilər. Bu fikir o dövr üçün elmi cəhətdən maraqlı idi, çünki siyasi baxımdan xalqlar ayrılmışdı, lakin dil baxımından vahid sistem qorunurdu. Bu yanaşma klassik dilçilikdə "dialekt kontinumu" anlayışına əsaslandırılır. Yəni bir coğrafi sahədə dillər sərt sərhədlərlə yox, keçid zolaqları ilə dəyişir. Bu xüsusiyyət roman və german dillərində də var, amma Samoyloviç deyir ki, türk dilləri arasında yaxınlıq slavyan və german dillərindən də güclüdür. Bu, ümumtürk birliyi üçün elmi zəmin kimi təqdim olunur. Samoyloviç qeyd edir ki, türk xalqları geniş ərazidə yaşayırlar, amma dilləri çox yaxındır və bu yaxınlıq leksik, fonetik və morfoloji səviyyədə müşahidə olunur, bu da dialektlərin təbii şəkildə birləşməsini mümkün edir. Empirik müşahidələrinə əsasən Cənub-Qərb qrupu (Azərbaycan – Anadolu – türkmən), özbək–uyğur sahəsi və Volqaboyu türk dilləri arasında ədəbi və danışıq səviyyəsində yaxınlaşma prosesi gedir. O, bunu süni siyasət yox, sosial-iqtisadi təmasların nəticəsi kimi izah edir. Samoyloviçin fikri belədir ki, inzibati qərarla vahid ədəbi dil yaratmaq olmaz, dil əmrlə yox, ünsiyyət, iqtisadi əlaqə, mədəni mübadilə ilə formalaşır. Dillərin yaxınlaşması tarixi zərurətdir və artıq faktiki olaraq baş verir.



Bu məruzə türk dillərinin struktur vahidliyini, elmi şəkildə müasir "ümumtürk linqvistikası"nın əsasını təsbit edir, "bir dil – çox dialekt" modelini irəli sürür.

**Nazir Tyurakuloviç Tyuryakulov** polemikaya girmir və çıxış edənlərin türk dialektlərinin köklərinin birliyi barədə göstərdiyi mövqeləri qəbul edir. Lakin yenə də düşünür ki, dil sosial bir fenomen, sosial-iqtisadi və bir sıra digər şərtlərin nəticəsi olaraq yaranan bir məhsul kimi laboratoriya şəraitində "hazırlana" bilməz. Əgər həyatda müəyyən bir qrupa daxil olanlarda dilin tədricən uyğunlaşması müşahidə olunursa, bu, tarixi prosesin və müasir vəziyyətin məhsuludur; burada ünsiyyət və əlaqə üsulları getdikcə daha da güclənir. Məruzəçilər haqlıdırlar: Azərbaycan, Anadolu və türkmən dialektlərinin birləşməsi mümkündür. Sonrakı mərhələdə bu qrupa Özbəkistan da əlavə oluna bilər, lakin bu, yalnız nəzəri bir mövqedir və indiki müşahidələrə əsaslanır.

***

N.T.Tyuryakulov digər məruzəçilər kimi emosional və ya prinsipial mübahisəyə qoşulmur. O, türk dialektlərinin ümumi kökə bağlılığı fikrini qəbul edir, çıxış edənlərin bu istiqamətdə irəli sürdüyü tezislərlə razılaşır, lakin məsələyə praktik-sosioloji prizmadan baxır. Məruzəsinin əsas ideyası budur ki, dil sosial-iqtisadi münasibətlərin məhsuludur və süni yolla yaradıla bilməz. Yəni dil ictimai həyatın nəticəsidir, kənardan inzibati müdaxilə ilə "hazırlanıb tətbiq edilə bilməz". Bu yanaşma Samoyloviçin mövqeyi ilə üst-üstə düşür, hər ikisi vahid ədəbi dili əmrlə yaratmağın mümkün olmadığını qeyd edir.

N.T.Tyuryakulov belə bir mexanizm təsvir edir: eyni sosial-iqtisadi həyat məkanında olan insanlar daha sıx ünsiyyətə girirlər və ünsiyyət vasitələri yayılır, dialektlər tədricən yaxınlaşır. Bu təbii prosesdir – dil iqtisadi inteqrasiya, mədəni əlaqə, sosial təmas sayəsində yavaş-yavaş harmoniyalaşır. O, konkret dil qruplarını qeyd edir: Azərbaycan, Anadolu və türkmən dialektlərinin birləşməsini mümkün və real hesab edir: fonetik yaxınlıq var, leksik baza oxşardır, tarixi-mədəni əlaqələr mövcuddur. Gələcəkdə bu birliyə Özbəkistan da qoşula bilər, amma bu hələlik yalnız nəzəri ehtimaldır.

Onun çıxışı üç sahəni birləşdirir: 1) sosiolinqvistika – dil sosial münasibətlərin məhsulu kimi təqdim olunur; 2) tarixilik – dil dəyişməsi tarixi prosesdir, tədricən baş verir; 3) elmi praqmatizm – dil mövcud faktlarla gələcək ehtimalları ayrı qoruyur.

**Həsən Səbri Ayvazov** qeyd edir ki, Türkiyə, Kazan və Özbəkistanda hər bir intellektual, mədəni türkün əlində Nəvainin əsərləri vardır və onu zövqlə oxuyur. Hesab edir ki, burada məsələlər qarışdırılmamalıdır. Birincisi, əgər Nəvai bizə, köhnə məktəblərin məzunlarına məlumdursa, bu, əsasən, klassik ədəbiyyatda mövcud olan ərəb-fars elementləri sayəsindədir. Müasir ədəbi dil və onun inkişafına dair müşahidələr isə hər yerdə müəyyən dərəcədə müstəqil şəkildə aparılır. Nümunə kimi göstərmək olar: bu gün Bakıda çıxan "Kommunist" qəzeti və "Molla Nəsrəddin" jurnalı xalq və intellektual kütlələr tərəfindən nə dərəcədə başa düşülür. Hər bir ədalətli müşahidəçi deyəcək ki, Azərbaycan fəhlə-kəndli kütləsi arasında "Molla Nəsrəddin" "Kommunist" qəzetindən on dəfə daha anlaşıqlıdır. Dil inzibati metodların yox, tarixi proseslərin məhsuludur.

***

**Ayvazovun** mövqeyi belədir: "Dil inzibati deyil, tarixi bir prosesdir". Türkiyədə, Kazanda, Özbəkistanda hər bir mədəni, intellektual türk Nəvainin əsərlərini zövqlə oxuyur. Səbəb olaraq klassik ədəbiyyatda işlədilən ərəb və fars elementlərinin çoxluq təşkil etməyini göstərir və qeyd edir ki, təhsil almış yaşlı nəsil ziyalılar bu elementlər vasitəsilə dili başa düşürlər. Yəni Nəvainin oxunaqlılığı türkcənin birliyi yox, klassik ədəbi ənənənin ortaq ərəb və fars leksik bazasına söykənir. Pratik həyatda "Molla Nəsrəddin" daha anlaşıqlı,"Kommunist" qəzetinin isə çətin başa düşüldüyünü qeyd edir. Nəticə çıxarır ki, dilin real daşıyıcısı kütlədir və dil inzibati qərarlarla deyil, tarixi proseslə formalaşır. Bununla dilin yuxarıdan qurulan sistem deyil, aşağıdan formalaşan canlı struktur olduğunu vurğulayır.

**Həbib Cəbiyev** (1899-1937) bu fikrə etiraz edir. Bildirir ki, "Kommunist" qəzetini "Molla Nəsrəddin"lə müqayisə etmək çox gülüncdür. Yumoristik-satirik jurnalın dili ciddi qəzetin dili ilə müqayisə oluna bilməz. "Molla Nəsrəddin"in dilində jarqon çoxdur, jurnalın bütün səhifələrində molla, axund, qəssablar, kiçik burjuaziya, dükan sahibləri və s. hədəfə alınır. Bu ifadələrlə onlar tənqid olunur. Əlbəttə, bu dil ədəbi dil ola bilməz. Hətta rus mətbuatında da "Pravda" qəzeti ilə "Krokodil" jurnalının dili müqayisə edilmir. Ədəbi dil məsələsində nəzərə almaq lazımdır ki, bütün prinsip və orfoqrafiya, terminologiya məsələlərində qəbul etdiyimiz qərarlar var. Bütün bu qərarlar ədəbi dil haqqında qəbul olunan qətnamədən çıxış edərək inkişaf etdirilməlidir.

Orfoqrafiya məsələsində fonetik meyil daha çox olmalıdır, yerli şərtlərə görə dəyişə bilər. Eyni yanaşma ədəbi dil üçün də tətbiq olunmalıdır: əsas olaraq xalq dili götürülməlidir, Azərbaycanda heç vaxt bundan imtina olunmayıb. Azərbaycanlıların vəziyyəti digər xalqlardan tam fərqlidir. Hələ də ən çox ərəb-fars dil və mədəniyyətinin təsiri altındadır. Digər türk xalqları üçün, məsələn, qazaxlar üçün, bu məsələ o qədər kəskin deyil, həmçinin bu əsrlər ərzində mədəni inkişaf, sosial-iqtisadi şərait nəticəsində, dilin üstquruluşu müəyyən terminlərlə tamamlanmışdır, xalq yaradıcılığı ilə zənginləşmişdir, bizdə bütün ərəb və fars terminləri mexaniki şəkildə qəbul olunub. Buna görə terminologiya məsələsində qəbul edilmiş əsas prinsiplər ədəbi dil məsələsini də həll etməlidir. Azərbaycanda terminlər ərəb və fars formasında istifadə olunurdu, indi isə türk forması götürülür, mümkün olmadıqda isə ilkin, mənbə forması istifadə olunur. Bunu nəzərə alaraq, gələcək müzakirələrdə belə müqayisələr aparılmamalıdır.

***

H.Cəbiyev bildirir ki, "Molla Nəsrəddin" satirik, karikatura xarakterli jurnaldır, xalq danışıq dilində formalaşıb. Fikrini möhkəmləndirmək üçün müqayisə aparır: "Pravda" qəzeti (rəsmi, publisistik üslub) və "Krokodil" satirik jurnal (satira, jarqon) sadələşdirilmiş, jarqonlardan istifadə olunmuşdur. Bu üslub ədəbi dil norması ola bilməz. Bunları dil baxımından müqayisə etmək yanlışdır. O, janr, funksiya, dil normaları arasındakı əlaqəni qorumaq istəyir. Ədəbi dil qərarları sistemli və ardıcıl olmalıdır, orfoqrafiya, terminologiya, ədəbi dil siyasəti bir-birindən ayrı aparıla bilməz. O, məruzəsi ilə planlı dil siyasətinin lehinə tutduğu mövqeyini göstərir.

Orfoqrafiya məsələsinə toxunaraq qeyd edir ki, fonetik prinsipə əsaslandırılmalıdır, yazı tələffüzə yaxın olmalıdır, lakin bu prinsip hər respublikada yerli şərtlərə görə müəyyən dərəcədə dəyişə bilər, yəni vahid doqmatik model yoxdur. Ədəbi dilin bazası xalq dili olsa da, tam xalq dili deyil, onun üzərində qurulmalıdır. Müqayisəsini yekunlaşdıraraq əlavə edir ki, Azərbaycanda xalq dilindən imtina edilməyib. Azərbaycan dilinin tarixi-sosial fərqindən danışaraq Cəbiyev deyir ki, bizim vəziyyət başqa türk xalqlarından fərqlidir: Azərbaycan dili əsrlərlə ərəb-fars təsirində qalıb, dilin "üstquruluşu" yad elementlərlə doldurulub və nəticədə, xalq dilinin təbii inkişafı ilə ziddiyyət yaranıb. Qazax və digər türk xalqlarında isə dilin öz daxili terminoloji inkişafı daha təbii olub, ərəb və fars təsiri bu qədər dərin olmayıb. Bu müqayisə Azərbaycan dilində dil islahatının niyə daha kəskin və qaçılmaz olduğunu izah edir.

O, terminoloji siyasəti ədəbi dilin əsası hesab edir: mümkün olduqca türk formasını qəbul edirik, bu uyğun gəlmirsə, Avropa forması götürülür, ərəb və fars forması isə artıq prioritet deyil – ədəbi dilin gələcəyi də bu prinsiplərlə həll olunmalıdır.

Omarov bildirir ki, daim demokratik yola qədəm qoyduğumuzu, dilin təmizlən-məsi məsələsini, ərəb-fars və digər yad sözlərdən azad etmək istədiyimizi vurğulamışıq. Ərəb sözlərini atmaq və ya onları türk dilinin qrammatikasına uyğunlaşdırmaq təxirəsalınmaz vəzifədir. Biz Bakıda çap olunan kitabı oxuya bilmək üçün yalnız ərəb dilini deyil, həm də fars dilini öyrənməliyik. Yad sözlər olmasa, bu ədəbiyyat bizim üçün əlçatan, bu isə böyük mədəni nailiyyət olardı. Biz azərbaycanca qəzet oxuya bilirik, amma yad sözlər mane olur. Türk dilində məruzələri dinləyərkən, ərəb sözləri az olduqda, tərcüməyə ehtiyac yoxdur, hər şeyi başa düşürük. Hesab edirdik ki, yad sözləri aradan qaldırmaq və düzgün yazmaq yolu ilə oxuya biləcəyik, amma azərbaycanlılar bizdən uzaqlaşır və təmizlənmiş dili əlçatan etmək istəmirlər. Biz də düşünmürük ki, latın əlifbası nəyisə poza bilər. Birləşmə tamamilə mümkündür, çünki bu ideya yuxarıdan deyil, aşağıdan – xalqdan gəlir. Hazırda birləşmə meyili mədəni baxımdan geri qalmış türklərdə mövcuddur.

Tarixdə süni ədəbi dilin yaradılması nümunələri mövcuddur. Yunan dili ümumi dil olmuşdur. Türk dillərinin birləşdirilməsində ilk addım ərəb və fars sözlərinin aradan qaldırılması və ümumi terminlərin yaradılmasıdır. Bizə yalnız terminlər mane olur. Və əgər mən qazax dilində danışsaydım, məni başa düşməyəcəkdilər, çünki bu dilə alışmamışlar.

***

**Omarovun** məruzəsinin qayəsində dilin "təmizlənməsi" ideyası dayanır. O, bunu yalnız texniki deyil, demokratik-mədəni proses kimi təqdim edir: ərəb və fars sözlərinin çıxarılması təxirəsalınmaz vəzifədir, əgər Azərbaycan kitabını oxumaq üçün həm ərəb, həm də fars dillərini bilməliyiksə – bu, səhvdir, dil sadələşsə, ədəbiyyat xalqa daha əlçatan olar, yad sözlər azaldıqca oxumaq asanlaşır, anlama dərinləşir, dil doğmalaşır. Reallıqda isə əks proses gedir, təmizlənmiş dilə müqavimət var, insanlar klassik ərəb və fars üslubuna bağlıdırlar, nəticədə Azərbaycan türkləri ilə digər türklər arasında uçurum yaranır. O, latın əlifbasını təhlükə hesab etmir, bildirir ki, latın qrafikası mədəniyyətə zərər vurmur, çünki dəyişiklik yuxarıdan yox, xalqdan gəlir.

Birləşmə ideyasını əsaslandıraraq, türk dillərinin yaxınlaşmasını mümkün hesab edir; birinci şərt ərəb və fars sözlərinin aradan qaldırılması və ümumtürk terminologiyasının yaradılmasıdır. Amma bir məsələni də etiraf edir: qazaxca danışsa, onu başa düşməzlər, çünki dilə vərdiş yoxdur. Deməli, "birləşmə" təkcə lüğət dəyişməklə olmur, danışıq təcrübəsi də lazımdır.

Onun fikrincə, dil demokratik mədəniyyət, yad sözləri atmaq – xalqı mədəniyyətə yaxınlaşdırmaqdır, terminoloji təmizlənmə isə milli özünüdərkdir. Ərəb və fars qatının qalmasına isə daha kəskin reaksiya verir: bu sözlər başqa mədəniyyətin hegemonluğunu saxlayır. Yad sözləri sadəcə "uyğunlaşdırmaq" yox, dildən tam çıxarmaq lazımdır və bu prosesi böyük mədəni islahat kimi təsvir edir. Omarov üçün dil islahatı milli mədəniyyətin azad edilməsi, türk xalqlarının yaxınlaşması deməkdir. O, türk dillərinin yaxınlaşmasını siyasi yox, mədəni proses kimi təqdim edir.

**(ardı var)**

***Nadir MƏMMƏDLİ,***
***AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

---

*Ekran qarşısında...*

**Hər bir insanın işdən sonra dincəlmək, əylənmək haqqı var. O, bunu müxtəlif vasitələrlə həyata keçirir. Məsələn, təbiətin qoynuna çəkilməklə, musiqi dinləməklə, restorana, əyləncə mərkəzlərinə getməklə, hansısa filmə baxmaqla və sair. Əksər insanlar smartfonlarda əyləncənin müxtəlif növlərini axtarıb tapır, öz maraq dairələrinə uyğun oyunlarla vaxt keçirir.**

# Gülüş yalnız əyləndirməkdirmi?

*Həm də düşünək, daşınaq, istehza hədəfi olmayaq*

Bir də var teatr. Qədim dövrlərdən bəri insanlar əylənmək üçün həm də teatra gedirlər. Teatrın faciədən komediyaya keçidi üçün bir neçə əsr lazım gəldi. XV və XIX əsrlər arasında teatr qərbdə komediya və melodrama da daxil olmaqla bir çox alternativ forma aldı. Ümumi meyl yunanların və renessansın poetik dramından və xüsusilə, sənaye inqilabından sonra daha təbii dialoq tərzinə doğru gedirdi. Bu prosesin pioneri fransız dramaturqu Molyer oldu. O, komediya və fransız musiqisini ən təsirli satirik komediyalarını yaratmaq üçün birləşdirərək komediyanın yazılması və göstərilmə formasını dəyişdirən ilk komediyanəvis kimi adını tarixə yazdı. Molyer ən yaxşı komediya yazarlarından biri idi. Bu təsir dalğası bütün Avropanı bürüdü, hətta Şərqə də gəlib çatdı. M. F. Axundzadə özünün komediyalarını yazmaqla Azərbaycan dramaturgiyasının əsasını qoydu.

XX əsrdə də komediya janrı bu ənənələr üzərində inkişaf etdi. Bəs bu gün komediya sənət olaraq hansı mərhələni yaşayır? Çox təəssüf ki, bu günün insanı yüngül, bayağı, efemer xarakterli, vulqar "səhnəcik"lərə meyl etməkdədir. Gülüş mədəniyyəti şit, bəzi hallarda biədəb lətifələrin təzyiqi altında öz mahiyyətini itirir. Sağlam komediya sənətin periferiyasına çəkilib.



***Kənan HACI,***
***yazıçı-dramaturq***

Bu gün ən çox baxılan "Komedixana" layihəsidir. Bu layihə haqda müsbət və mənfi fikirlər söyləmək mümkündür. Deyə bilərik ki, bəzi səhnəciklər bayağı, zövqsüz təsiri bağışlayır, lakin "Komedixana"nın böyük tamaşaçı kontingenti var. Bu, reallıqdır. Biz bu kontekstdə aktyorlardan ciddi sənət meyarları, keyfiyyət tələb edə bilərikmi? Əlbəttə, lakin bu tamaşanın öz dəst-xəttindən sapması heç şübhəsiz, reytinq axsamasına gətirib çıxaracaq. "Komedixana" gündəmə hesablanmış səhnəciklər hazırlayır. Tamaşaçı orda gündəlik həyatda rastlaşdığı tragikomik situasiyaları görür. "Komedixana"nın sevilməsinin əsas səbəblərindən biri də budur.

Bir növ, ortaq yaşam komediyası (aktyorlarla tamaşaçılar arasında) öz bəhrəsini verir. Müasir tamaşaçı əyləncənin interaktiv formalarını tərcih edir. Bu tələblərə cavab vermək lazım gəlir. Necə ki, kino kommersiv mühitin ayrılmaz elementinə çevrilib. Bu baxımdan, sırf sənət meyarları ilə işləmək sənətçiyə (ssenaristə, rejissora və aktyora) heç bir divident gətirmir. Acı reallıq budur. Bu gün sənətdə performativlik önə çıxıb. Yüksək planka tələb etmək üçün ciddi tamaşaçı kontingenti yetişməlidir. Əyləncə industriyası aktyorun maddi rifahının yaxşılaşmasına, populyarlığına xidmət edən bir mexanizmə çevrilib.

Lakin bu o demək deyil ki, tamaşaçı ancaq komediyaya baxır. Mən mütəmadi olaraq teatrlarımızda nümayiş olunan tamaşaları izləyirəm və tamaşaçı salonlarını həmişə dolu görmüşəm. Hər tamaşanın öz seyrçisi var. Ciddi, düşündürücü tamaşalara da insanlar gəlir. Amma sözsüz ki, "Komedixana"ya da ehtiyac var. Teatr müxtəlif kateqoriyalara bölünür ki, "Komedixana" onun tərkib hissəsidir. Əndazəni aşmamaq şərtilə toplumun nöqsanlarını yumorstik çalarlarla, yaradıcı formada təqdim etmək normal bir haldır.

Bəli, sənət insanı düşündürmürsə, insanda insanı oyatmırsa, katarsis yaratmırsa, o, sənət deyil. Əyləncə də ruhun qidasıdır, tamaşaçı da bayağılığa qarşı reflektiv münasibət sərgiləməlidir. Gülüşün bir tərbiyəvi xassəsi də var, teatr məhz bu nüansa üstünlük verməlidir. Duzsuz yumor, küçə ifadələri abırsızlığa rəvac verir. Buna yol vermək olmaz.

Nəhayət, bizi güldürən nədir, kimdir? Çevrəmizdəki əyriliklər və naqisliklərmi, yoxsa aktyorların məzəli oyun nümayişimi? Əsl sənət gülüşü hər ikisini özündə birləşdirir. Belə gülüş təkcə əyləndirmir, həm də düşündürür, dəyişdirir. Biz də TV kanallarının gülüş layihələrindən məhz belə təqdimatlar gözləyirik.

*Dünyadan gələn sorağımız*

# Əskişəhərdə Azərbaycan dünyası

## *Yunus Əmrənin vətəni soydaşlarımıza da doğma şəhərdir*

**Qədim türk şəhəri Əskişəhərə ayaq basan dəqiqələrdən bu yerlərin sehrinə düşməmək mümkün deyil. Türkiyənin şimal-qərbində yerləşən Əskişəhərdə Azərbaycandan olduğumuzu biləndə insanların çöhrələrinə təbəssüm qonurdu, bizim yerlərdən hal-əhval tuturdular.**



2013-cü ildə bu şəhər Türk dünyasının Mədəniyyət Mərkəzi seçilmişdir. Əskişəhər Qurtuluş Muzeyi, Böyükərşən Balmumu Heykəllər Muzeyi, Odunbazarı Modern Muzeyi, Anadolu Universiteti Cümhuriyyət Tarixi Muzeyi şəhərin mənəvi çəkisini daha da artırır. Təsadüfi deyil ki, Türk dünyasının məşhur Sazova Elm, Mədəniyyət və Sənət Parkı da bu şəhərdə salınmışdır. Böyük filosof, şair Yunus Əmrənin məzarı Əskişəhərin Sarıköy–indiki adıyla Yunus Əmrə kəndində tapılmışdır. Şairin adı Əskişəhərdəki bir çox mərkəzlərə, küçələrə verilmişdir. Əskişəhərin adı Yunus Əmrənin vətəni kimi Türk dünyasında hörmətlə, izzətlə qarşılanır, bura gələn qonaqlara öz sevgisini göstərən tarixi məkandır.

Şəhərdə 3 universitet var ki, bu ali təhsil ocaqları Türk dünyasında elmi kadrların və yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına görə məşhurdur. Anadolu, Osmanqazi və Texniki universitetləri. Şəhərin təmiz havası, tən ortasından axan Porsuq çayının füsunkarlığı, təmtəraqdan uzaq maşınsız küçələri, əsas nəqliyyat vasitəsi olan tramvaylar Əskişəhərə xüsusi bir yaraşıq verir. Şəhərin mərkəzi hissəsində minik maşınlarını görmək mümkün deyil. Tramvay xətlərinin yanından xüsusi bir xətt ayrılır ki, burada ancaq velosipedlə gəzən yaşlı və cavan nəslin nümayəndələrini görə bilərsən.

Əskişəhərə xüsusi fərqlilik verən qədimi, qırmızı kərpicli evləri və müasirliyin göstəricisi olan, fəqət, bu qədim şəhəri əndazədən çıxarmayan yaşayış binaları da diqqətimi cəlb etdi. Əskişəhərdə gördüyüm az sayda 9-10 mərtəbəli binadan başqa, bir dənə də olsun hündürmərtəbəli göydələn görmək mümkün deyil. Əskişəhərin baş planını daima diqqətdə saxlayan memarlara qibtə etdim ki, bu səlahiyyətlərini əldən verməyiblər.

Şəhərin mərkəzi küçələrindən tutmuş böyük bir hissəsində yerin örtüyü qədimi qəmbər daşları ilə örtülüb. Bu da küçələrin daş örtüyünə xüsusi fərqlilik verir. Burada adı ilə seçilən Hamamlı adlı əhatəsinə görə böyük bir küçə var ki, bizim dilimizdə prospekt anlamı təsiri bağışlayır. Bu adın mahiyyəti ilə maraqlandım və öyrəndim ki, şəhərin mərkəzində yeraltı qaynar, müalicəvi suların mənbəyi aşkar olunub. Həmin yeraltı sərvətin üzərində müalicəvi hamamlar tikilib və bu gün turistlərin Əskişəhərə axın etməsinin bir səbəbi də bu yerlərin şəfalı isti sularıdır.

Əskişəhəri möhtəşəm edən göstəricilərdən biri də Kıbrıs şəhidlərinin xatirəsinə ucaldılan abidələrin şəhərin mərkəzi yerlərində qoyulmasıdır. Hətta insanların Kıbrıs qəhrəmanlarının heykəlləri qarşısında fotolar çəkdirməsi nəzərimdən yayınmırdı. Yunus Əmrənin ölməz xatirəsinə böyük ehtiramı gördükcə Əskişəhərlilərin zəngin mənəviyyatına, milli təfəkkürünə heyran qalırdım. Xüsusilə Türk dünyasında, Avropada tanınmış elm, təhsil ocaqlarından biri olan Anadolu Universitetinə qədəm qoymaq istəyən hər kəsi Yunus Əmrənin heykəli, bu müdrik, türk-islam filosofunun varlığının rəmzi olan sənət əsərinin əzəmətli görüntüsü salamlayır. Təsadüfi deyil ki, 1991-ci ildə UNESCO Yunus Əmrənin 750 illik yubileyini keçirmişdir.

Əskişəhərdə yerləşən, dünyanın məşhur təhsil ocaqları sırasında seçilən və bu gün nəinki türk dünyasında, Avropada, Amerikada sayılıb-seçilən Anadolu Universitetinin girəcəyində yolun tən ortasında qoyulan Yunus Əmrənin heykəli sanki, Türk dünyasının gəncliyini Yunus Əmrə fəlsəfəsini dərk etməyə çağırır:

***Gəlin tanış olalım***
***İşi kolay qılalım***
***Sevəlim sevilələm***
***Dünya kimsəyə qalmaz!***

Anadolu Universitetinin ərazisində Yunus Əmrə İnstitutu və kampusu da yerləşir. Anadolu Universitetinin şəhərciyi son dərəcə böyükdür. Dünyanın bütün ölkələrindən burada təhsil alan gənclər var. Gördüyüm elə amillər var ki, ali məktəb kimi belə bir elm, tədris mərkəzinə ancaq qibtə etmək olar. Burada, birinci növbədə, tələbəyə və müəllimə dəyər verilir. Bu barədə geniş təhlilə ehtiyac olduğuna görə, daha müfəssəl məqalənin hazırlanması haqqında düşünürəm.

### "Əskişəhər Azərbaycanlılar Dərnəyi"

**Əskişəhəri gəzdikcə ona doğmalaşırsan, sanki sən illər əvvəl buralarda olmusan. "Əskişəhər Azərbaycanlılar Dərnəyi"nin rəhbəri, həmyerlimiz Cavid Aydın bizi ofislərinin yerləşdiyi ünvana gətirdi. O dedi ki, Əskişəhərə yolunuz düşəndə bilin ki, bu şəhərdə isti ocağınız var. Qapının üstündə belə yazılıb: "Əskişəhər Azərbaycanlılar Dərnəyi". Otaqlara nəzər salıram. Sanki Azərbaycandayam. Divardakı saatın əqrəbi belə Bakı vaxtını göstərir.**

Cavid Aydınla müsahib oluruq.

***– Siz 30 ilə yaxındır ki, Əskişəhərdə yaşayırsınız. İlk dəfə Dövlət proqramı ilə təhsil almağa gələn gənclərdən olmusunuz. Necə oldu ki, taleyinizi bu qədim türk yurduna bağladınız?***

– Mən Cavid Aydın 9 fevral 1980-ci ildə Azərbaycanın Bərdə şəhərində doğulmuşam. Əslim, dədə-babalarım 1948-ci ildə Qərbi Azərbaycandan deportasiya olunublar. Vedibasar mahalındanıq. Orta təhsilimi Bərdədə başa vurduqdan sonra, dövlət təqaüd proqramı ilə 1998-ci ildə Türkiyə Respublikasının Anadolu Universitetində əczaçılıq ixtisası üzrə təhsil qazanıb, Əskişəhərə gəlmişəm. İxtisasımı tamamladıqdan sonra təhsilimi magistratura pilləsində davam etdirmişəm.

Tale elə gətirdi ki, bu şəhərdə qalmaq istəyim yarandı. Azərbaycan sevgisi ilə yaşayan bir gənc olaraq burada Vətən adını yaşatmağa, həmvətənlərimi ətrafıma yığmağa çalışdım. Etiraf edim ki, bu fikir, sadəcə, tək mənim deyil, dostlarımın da Azərbaycan sevgisindən doğan bir istəyi idi. Yəni tək bu işi edə bilməzdim. Beləliklə, 2010-cu ildə bu dərnəyi təsis etdik. Arzularımız gerçək oldu. Xüsusilə, 1998-ci ildən əvvəl gələn tələbələr ətrafıma toplaşaraq müqəddəs bir evin işığını yandırdılar.

"Əskişəhər Azərbaycanlılar Dərnəyi" fəaliyyətə başladı. Bu təşkilatı yaratmamışdan əvvəl də tədbirlər keçirirdik. Sadəcə, görüşlərimizi, əlaqələrimizi rəsmiləşdirən bir rəsmi təşkilata ehtiyacımız var idi. 7 (yeddi) nəfər idarə heyətimizin üzvü var. Artıq 15 ildir ki, Əskişəhərdə tanınırıq. Azərbaycan adına uğurlarımız var.

***– Dərnəyinizin fəaliyyəti ilə bağlı oxucularımıza ətraflı məlumat verməyinizi xahiş edirəm.***

– Bilirsiniz ki, Əskişəhərdə - Türkiyə Respublikasında xüsusi olaraq tanınan üç ali təhsil ocağı var. Burada çoxlu azərbaycanlı tələbələr təhsil alır. Bu mənada önəmli bir güc sahibiyik. Sıralarımız hər il çoxalır və möhkəmlənirik. Tələbələrimizin, burada yaşayan azərbaycanlıların sosial və iş şəraitlərini diqqətdə saxlayırıq. Burada birisi işlə təmin olunmaq istəyəndə və yaxud bir evi kirayə edən zaman qarşı tərəf əmin olmaq üçün "Əskişəhər Azərbaycanlılar Dərnəyi" rəhbərini arayır, bir bilgi almaq istəyir.

Dövlət qurumları ilə birgə işləyirik. Əskişəhərdəki gənclərimizin sosial, təhsil problemləri daima diqqətimizdədir. 2016-cı ildən Dünya Azərbaycanlılarının Qurultayına qatılmışıq. Heydər Əliyev Mərkəzində Prezident İlham Əliyev çıxış edərək dedi ki, Azərbaycan elə bir gücə gəlib çatıb ki, biz xalq olaraq varlığımızı qapalı toplantı salonlarında deyil, mediada göstərməliyik. Çalışın ki, xarici dövlətlərdə sözünüzü media vasitəsilə deyəsiniz. Artıq kütləvi informasiya vasitələrinin təsiri vasitəsilə bədnam qonşularımıza cavab verməliyik. Xaricdəki fəaliyyətlərinizi medianın gücü ilə həyata keçirin.

***– Siz nədən başladınız?***

– 2017-ci il 1 yanvar tarixindən Əskişəhərdə "Üç cizgi" jurnalı çıxarmağa başladıq. Siz masamızın üstündə jurnalları görürsünüz. 2017-ci ildən bu istiqamətdə fəaliyyətimizi gücləndirdik. Hazırda elektron formatda jurnalımızı çıxarırıq. Qeyd etmək istəyirəm ki, nəşr məsələlərində Əskişəhər Anadolu Universitetinin qayğısı da çox olub. Hazırda Anadolu Universitetinin özü belə mətbuat orqanlarını onlayn formada idarə edir. Artıq dərnəyimiz 15 ildir ki, Əskişəhərdə tanınıb, məramını, məqsədini geniş ictimaiyyətə təqdim edib. Azərbaycan adına görəcəyimiz bütün işlərin mayasında, qayəsində Vətən sevgisi yaşanır. Dərnəyimiz Əskişəhər rəhbərliyinin inamını qazanıb. Şəhərin valisi, bələdiyyə başqanı hər hansı problemimiz olarsa, köməklərini əsirgəmirlər. İl-ildən təmaslarımız çoxalır. Hər zaman müsbət mənada fəaliyyətimizlə seçilmişik. Maddi cəhətdən imkanlarımız məhdud olsa da, "Üç cizgi" jurnalının 26-cı sayını da uğurla nəşr etdirdik. Ölkəmizin ictimai- siyasi, elm, təhsil, mədəniyyət sahəsindəki uğurları jurnalımızın səhifələrində işıqlandırılır. 2020-ci ildə pandemiya zamanı dar çərçivədə fəaliyyət göstərirdik.

2020-ci il Vətən müharibəsində xaricdə yaşayan bütün azərbaycanlılar kimi, biz də müsəlləh əsgər olub, ordumuzla, xalqımızla bir olduq. İlk növbədə, Əskişəhər ESTV televiziyasında 25 sentyabrdan başlayaraq verilişlərimizə başladıq. İlk proqramımızın qonağı Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım oldu. Onun xeyir-duasını aldıqdan sonra geniş şəkildə Azərbaycanla bağlı proqramlarımızı təqdim etməyə başladıq.

27 sentyabrdan başlayaraq Vətən müharibəsində qazandığımız Qələbəmizin hər günü haqqında tamaşaçılara ətraflı məlumat verirdik. Mən deyərdim ki, Zəfər tariximizin salnaməsinin yazılmasında bizim verilişlərimizin az da olsa, təsiri oldu. Bu mənada dərnəyimizin bütün üzvlərinə minnətdaram. Professor Toğrul İsmayıl televiziyada "Üç Cizgi" proqramımızda Zəfər günümüzlə bağlı geniş ictimaiyyətə, Türkiyədə yaşayan və işləyən insanlara ətraflı bilgilər verdi. Siyasi partiyalarla görüşdük, brifinqlər keçirdik. Xalqımızın halal haqqı olan tarixi torpaqlarımız haqqında geniş maarifləndirici çıxışlarımız oldu. Azərbaycana ordumuz üçün dərman ləvazimatı göndərməyi də unutmayaraq, bu işi özümüzə mənəvi borc bildik.

Üç cizgi.com saytında jurnalımızın elektron nəşri davam etdirilir. Doğrudur, yazılı mətbuat çox əhəmiyyətlidir. Çünki XXI əsrdə böyük bir tariximiz yazılır. Biz bu əsrdə 30 ildən çox düşmən tapdağında qalan Qarabağ torpaqlarımızı işğalçı erməni faşistlərindən xilas etdik. Ona görə də qismən də olsa, jurnalımızın yazılı mətbu formada nəşrini davam etdiririk. Amma geniş anlamda Əskişəhər ictimaiyyəti ilə əlaqələrimizi elektron media formasında həyata keçiririk.

***– "Əskişəhər Azərbaycanlılar Dərnəyi" artıq bu şəhərdə kifayət qədər tanınmış bir ictimai təşkilatdır.***

– Vətənimizdən təhsil almağa gələn gənclərin demək olar ki, böyük bir hissəsi ətrafımızda birləşib. Tarixi, milli bayramlarımızla bağlı bir yerə toplanırıq, söhbətləşirik, fikir mübadiləsi edirik və son qərarımızı veririk. İnanın ki, Azərbaycanın dəyərli ziyalıları ilə xarici ölkələrdə böyük işlər görmək mümkündür. Mən bunu öz dərnəyimizin simasında görmüşəm və görürəm də. Cənab Prezidentimizin xaricdə yaşayan bütün həmvətənlərimizə tövsiyə etdiyi kimi: "Birliyimizi, həmrəyliyimizi gücləndirməliyik".

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyində dünyada yaşayan 66 alimi – azərbaycanlıları, türkləri Beynəlxalq Elm Simpoziumuna dəvət etmişdik və onların "Əskişəhər Azərbaycanlılar Dərnəyi"nin təşkil etdiyi belə bir mötəbər elm tədbirində iştirakı bizi çox fərəhləndirdi. Çünki zəkalı adamlarımızı kəşf etdikcə onların xalqa, millətə və dövlətə xeyri çox dəyir. Üç gün davam edən elmi simpozium haqqında akademik məqalələr toplum halında nəşr olundu. Türkiyədə və Azərbaycanda yayımlandı. Bu elmi simpoziumun əsas təşkilatçısı Anadolu Universitetinin məzunu Rza Məmmədov idi. Hazırda o, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində tədris işləri üzrə prorektor vəzifəsində işləyir. Rza Məmmədov Əskişəhərdə təhsil alıb, Vətənə xidmət göstərən istedadlı Azərbaycan gənclərinin etibarlı, parlaq simalarından biridir.

***– Şəhərdəki azərbaycanlı tələbələrə necə dəstək göstərirsiniz?***

– Tələbələrimizə dəstək olmaq üçün təqaüd proqramı ilə bağlı dərnəyimizin komandasının geniş fikir mübadiləsi olub və qərara almışıq ki, Əskişəhərdə təhsil alan azərbaycanlı gənclərimizə maddi, mənəvi dayaq olmaq üçün ayda 2000 (iki min) türk telesi təqaüd təyin edək. Bu təqaüdün verilməsinin bütün xərcini vaxtilə burada təhsil alıb məzun olan, Azərbaycana dönən və xarici ölkələrdə çalışan, iş sahibi olan, dövlətin etibarını qazanan vətənpərvər, xalqımızı sevən həmvətənlərimiz ödəyir. Keçən il 32 tələbəyə təqaüd ayırmışıq.

***– Qarşınıza qoyduğunuz məqsəd və vəzifələri həyata keçirmək üçün işlərinizi necə planlaşdırmısınız?***

– Bizim fəaliyyətimiz ikişaxəlidir. Həm daxildə öz həmvətənlərimizlə, həm də xaricdə, yəni kənarda təbliğatımızın necə qurulmasını planlaşdırmışıq. Başlıca olaraq, ətrafımızda birləşən xalqımızın istedadlı, bacarıqlı gənclərini, bir sözlə, insan kapitalını elə istiqamətləndirmək istəyirik ki, onlar Azərbaycan naminə ən yüksək səviyyədə işləməyi qarşılarına məqsəd qoysunlar. Bu mənada seminar və toplantılarımız olur. Hər bir vətəndaşımız bilməlidir ki, o, yaşadığı şəhərdə Azərbaycanın mədəniyyətini, milli-mənəvi köklərini yaşadır. Bu şəhər mədəniyyət beşiyidir.

Mənim və "Əskişəhər Azərbaycanlılar Dərnəyi"nin üzvü olan hər bir həmvətənlimizin gücü – dövlətimizin gücüdür! Ona görə də hər il Əskişəhərə gələn gəncləri, vətəndaşlarımızı dərnəyimizə dəvət edirəm və çalışıram ki, onlar tək olduqlarını hiss etməsinlər. Bilsinlər ki, bu şəhərdə onların Azərbaycanlılar Dərnəyi Evi var.

***– Vətəndən uzaqlarda yaşayan soydaşlarımıza arzularınız, diləkləriniz?***

– Ümummilli lider Heydər Əliyevin Dünya Azərbaycanlılarına bəxş etdiyi 31 Dekabr Həmrəylik Günü əbədi olaraq tarixə yazılıb. Dünyanın istənilən ölkəsində yaşayan və işləyən azərbaycanlıların birliyi naminə belə bir günün dövlət səviyyəsində qeyd olunması ildən-ilə gücümüzü, birliyimizi və sayımızı artırır. Bu il də Həmrəylik Günü bayramımıza yüksək səviyyədə hazırlaşmışdıq. Əskişəhərdəki 3 ali məktəbdə təhsil alan azərbaycanlı gəncləri, bu şəhərdə yaşayan həmvətənlərimizi, güneyli qardaşlarımızı və Azərbaycanı sevən, dərnəyimizin üzvü olan türk vətəndaşlarını müqəddəs bayramımıza dəvət etmişdik. Tanrı birliyimizi qorusun!

***Söhbəti apardı:***
***Kəmalə ABDİNOVA***
***XQ***

*Giya Paçxataşvili – 65*

**Ədəbi camеədə şair-tərcüməçi Giya Paçxataşviliyə haqlı olaraq iki xalqın ortaq oğlu deyirlər. Dostlarının Givi deyə çağırdıqları istedadlı şair, tərcüməçi, həm də xalq dilimizin dərinliklərinə yaxından bələd olan ədəbiyyat adamıdır. Yeganə qələm sahibidir ki, Azərbaycan, Gürcüstan və Rusiya Yazıçılar birliklərinin üzvüdür.**

# "Ağ adam"ın işıqlı dünyası

## *Və ya Azərbaycanın gürcü yetirməsi*



Giya Paçxataşvili 1961-ci ilin bir qış günü Qax rayonunun Qax-Gürcü kəndində dünyaya göz açıb. Ədəbiyyata 15 yaşında ikən "Səni sevməyimi..." əsəri ilə gəlib. Sonra onun işıq üzü görən "Sükutun rəngləri", "Oğul ata itirdi", "Hə" dedim", "Son - əvvələ gedən yol", "Tut ağacı" və sair kitablarını, nəğmələr bəstələnən şeirlərini oxucular maraqla qarşılayıblar. Boz dünyanın ağ adamı müəllifi olduğu 10 kitabı, rus və gürcü dillərinə 65-ə yaxın tərcümə nəşri ilə imzasının üzünü ağ edə bilib. Onun son kitablarından olan "Doğum şəhadətnaməsi" ustad şairlik pasportu sayıla bilər.

Keçən il Natəvan klubunda ona həsr edilmiş "Azərbaycan ədəbiyyatında Giya Paçxataşvilinin yeri" adlı kitabının təqdimatını da xatırlayırıq. Məclisdə iştirak edən söz və sənət adamları – Giyanın həyat və yaradıcılığından, onun insani keyfiyyətlərindən, həyata baxışından söz açdılar, onun bədii portreti olan kitabın məziyyətlərini qeyd etdilər.

Dostu Famil Hacısoyun dediyinə görə, albinizmə düçar olsa da, fosfor kimi işıq saçan Givi hələ uşaqlıqdan ağa ağ, qaraya qara deməyi bacarıb, sırf beynəlmiləlçiliyi ilə ətrafındakılardan fərqlənərək bəzi məqamda zamanı qabaqlayıb: ağlı kəsəndən, pisi yaxşıdan, düzü əyridən seçməyi bacarandan bu yana özü də bilmədən multikulturalizmin yayıcısına və carçısına çevrilib, Givi – Giya Paçxataşvili azad söz deməyin, yeni fikir yürütməyin yöndəmini yaxşı bildiyindən sözünü zamanında deməyin öhdəsindən məharətlə gələrək bədii boyalarla bəzəməyi bacarandır.

Onun yaradıcılığını fərqləndirən digər bir cəhət bizim şair və yazıçılarımızın əsərlərini rus və gürcü dillərinə, ya da, əksinə, bu xalqların tanınmış, görkəmli simalarının əsərlərini Azərbaycan dilinə çevirməklə geniş çoxdilli oxucu auditoriyası qazanmasıdır. Məhz bunun sayəsində 3 xalqın ədəbiyyatsevərləri qarşılıqlı olaraq biri-birinin milli adət-ənənələrinə bələd olmaq imkanı əldə edirlər.

Giya cəfakeş ömür-gün yoldaşı, rəssam Xatirə Paçxataşvili ilə özünü çox xoşbəxt sayır. Ailənin qeyri-adi işıq sehrindən bütün dostlarına pay düşür. Şair "Xatirə" şeirində bəxtəvər izdivacı özünəxas şəkildə belə tərənnüm edir:

***Ey saf sevgi zirvəsi –***
***Qadınların qadını!***
***Gəlişin nurlandırdı***
***öləziyən həyatı,***
***Dodağımda nəğməsən,***
***ən təzə-tər bayatı.***
***Qeyrətinlə qorunur ailə səltənəti,***
***Ey əsərlər əsəri,***
***qəlbin incəsənəti!***

Bəzən Givi bəxtinə düşən ərzi-halını da ağ vərəqlərə köçürməkdən özünü saxlaya bilmir, amma bu zaman təsvir etdiyi ağrı-acılarla oxucuları yükləmir, çünki hiss və həyacanları inandırıcılığı və səmimiliyi ilə seçilir.

***Ey gözdən əlil bəxtim,***
***Əzazil, zəlil bəxtim.***
***Yar gözümün nuruydu,***
***Nura batdı mil, bəxtim...***

Təsadüfi deyil ki, onun yaradıcılığı Qiymət Məhərrəmlini, Qənbər Ağayevi, Nizami Tağısoyu və Zemfira Məhərrəmlini şairin haqqında "Dərviş", "Giya Paçxataşvilinin Azərbaycan ədəbiyyatında yeri", "Givinin Qarabağnaməsi", "Məhərrəmlilərin söz yükündə" adlı kitablar yazmağa vadar edib.

Əməkdar jurnalist Zemfira Məhərrəmli yazır ki, Givinin vətəndaş-şair kimi qəti sözünü dediyi şeirləri poeziyasevərlərin diləzbərindədir. Vətən müharibəsi ərəfəsində yazdığı misralar bunu aydın göstərir:

***Azadlıq deyə-deyə***
***Ruh olub qalxdıq göyə.***
***Yetər göz yaşı tökmək -***
***Haydı, millət, cəbhəyə!***

Göründüyü kimi, Givinin vətəndaş yanğısı və qeyrəti ilə qələmə aldığı şeirlərini hiss-həyəcansız oxumaq mümkünsüzdür. Müəllifin fikrincə, Zəfər yürüşündə şəhid də olarlar, çünki, hər şey Vətən adına, Vətən naminədir. Başqa bir şeirində şair Böyük Zəfəri fərəhlə müjdələyib:

***Dünya şahid olur möhtəşəm ana,***
***Muştuluq verərək Azərbaycana...***
***Şair misrasının coşqusu gəlir -***
***Havadan Qələbə qoxusu gəlir!***

Ədəbiyyatşünas-alimlər də G.Paçxataşvili yaradıcılığı, onun tərcümə fəaliyyəti, dilimizi mükəmməl bilməsi ilə bağlı maraqlı fikirlər söyləyiblər. Akademik Nizami Cəfərov bu barədə yazır: "Mən şairlərimizin çox kitabını oxumuşam. Bəzilərinin bir şeirində neçə səhv tapıramsa, Givinin hər hansı bir kitabında bir səhvə belə rast gəlmirəm. Azərbaycan dilini öyrənmək istəyənlər qoy Givinin əsərlərini oxusunlar".

Bu günlərdə M.F.Axundzadə adına Şəki Şəhər Mədəniyyət Mərkəzində Giya Paçxataşvilinin 65 illik yubileyi sevgilərlə qeyd olunub. Nakam adına Mərkəzi Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə keçirilən məclisdə şairin ailə üzvləri, yaxınları, mədəniyyət və təhsil işçiləri, ziyalılar və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Çıxışlar zamanı Giya Paçxataşvilinin həyat və yaradıcılıq yolu, çoxşaxəli ədəbi fəaliyyəti, müxtəlif xalqlar arasında ədəbi-mədəni əlaqələrin inkişafındakı rolu vurğulanıb, yubilyar 65 illik yubileyi münasibətilə təbrik edilib. Eyni zamanda, Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət Komitəsinin yubilyara ünvanladığı təbrik məktubu səsləndirilib.

Yeni yaradıcılıq uğurları diləyi ilə:

***Əli NƏCƏFXANLI***
***XQ***

# Ağdam Dövlət Dram Teatrı Türkiyədə

**Türkiyə Cümhuriyyəti Amasiya bələdiyyəsinin bu günlərdə təşkil etdiyi "Tiyatro günleri" teatr festivalında Ağdam Dövlət Dram Teatrı yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirlinin "Kişi və qadın" pyesi əsasında hazırladığı tamaşa ilə iştirak edir.**




İlk dəfə görkəmli rejissorumuz Hüseynağa Atakişiyevin quruluşunda tamaşaya qoyulmuş bu əsər mürəkkəb, həm də çox maraqlı kişi və qadın münasibətlərindən bəhs edən, dramatik süjet xətti olan komediyadır. Dəfələrlə ölkənin əksər teatrlarında tamaşaya qoyulmuş "Kişi və qadın" Ağdam teatrının da diqqətini çəkib və uğurlu alınıb. Amasiya festivalının təşkilatçıları teatrı məhz bu tamaşa ilə festivala dəvət ediblər. Türkiyənin 15 teatrının qatıldığı festivalda Ağdam truppasının çıxışı fevralın 14-də təqdim ediləcək.

Tamaşanın quruluşçu rejissoru Kərim Həsənov, rəssamı Qönçə Həşimzadə, musiqi tərtibatçısı Azər Şükürov, rejissor assistenti Ceyhun Yusifovdur.

***XQ***

# AHİK müstəqil dövlətçiliyimizin yetirməsidir




**Dövlət müstəqilliyinin ilk dövründə yaradılmış azad əmək qurumu olan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) 33 yaşı tamam olur. Bu münasibətlə keçirilən mərasimdə konfederasiya sədri Sahib Məmmədov AHİK-in tarixi və fəaliyyəti barədə məlumat verib, ötən bir qərinəlik yola nəzər salıb.**

Bildirilib ki, 1994-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "Həmkarlar ittifaqları haqqında" Qanunun müddəalarının ardıcıl gerçəkləşdirilməsi konfederasiyanın formalaşmasında və azad həmkarlar ittifaqlarının inkişafında, vətəndaş cəmiyyətində mövqeyinin möhkəmlənməsində mühüm rol oynayıb.

Vurğulanıb ki, Prezident İlham Əliyevin həmkarlar ittifaqlarına göstərdiyi davamlı diqqət və dəstək əmək hüquqlarının qorunmasına, sosial dialoqun gücləndirilməsinə və layiqli əmək şəraitinin təmin olunmasına mühüm töhfə verir. Bütün bunların nəticəsidir ki, təşkilat əmək münasibətlərinin tənzimlənməsində aparıcı qüvvəyə çevrilib.

Qeyd edilib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, həmkarlar ittifaqı üzvlərini də əhatə edən humanitar və sosial layihələr ölkəmizdə sivil əmək münasibətlərinin formalaşdırılmasına davamlı töhfələr verir. AHİK-in işçi hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, Baş Kollektiv Sazişdən irəli gələn öhdəliklərin icrası, eləcə də gender bərabərliyi, gənclər, idman və təhsil sahələrində gerçəkləşdirdiyi missiya cəmiyyətin demokratik inkişafına və ümumi yüksəliş prosesinə geniş dəstək qazandırır.

Son bir neçə ildə fəaliyyətin təkmilləşdirilməsi, rəqəmsal həllərin tətbiqi, sosial layihələrin genişləndirilməsi istiqamətində mühüm addımlar atıldığını vurğulayan AHİK sədri həyata keçirilən layihələrin həmkarlar ittifaqları üzvlərinin sosial müdafiəsinin gücləndirilməsinə və onların fəallığının artırılmasına müsbət təsir göstərdiyini diqqətə çatdırıb.

Sonra həmkarlar hərəkatının tarixini özündə əks etdirən, eləcə də AHİK-in fəaliyyətindən bəhs edən videoçarxlar nümayiş olunub.

Həmkarlar ittifaqlarının veteranı Leyla Acalova, Prezident mükafatçısı, Qarabağ Universitetinin əməkdaşı Lamiyə Məmmədova, Vətən müharibəsi iştirakçıları, həmkarlar ittifaqı üzvləri Ruslan Bağırov və Saleh Salahov konfederasiyanın 33 illik fəaliyyətinin zəngin bir irs, gələcəyə doğru inkişaf yolunda gərəkli təcrübə mənbəyi olduğunu qeyd ediblər.

Mərasimdə əldə olunan nailiyyətlərin davam etdirilməsinin, həmkarlar ittifaqı dəyərlərinin gələcək nəsillərə ötürülməsinin, birlik və həmrəyliyin daha da möhkəmləndirilməsinin vacibliyi qeyd edilib.

Sonda qurumun fəaliyyətində fərqlənən veteranlara, gənclərə və könüllülərə AHİK-in təşəkkürnamələri təqdim olunub.

Tədbir bədii hissə ilə davam edib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Maskat masası

## İran–ABŞ nüvə dialoqunda yeni mərhələ və geosiyasi hesablaşma

**Fevralın 6-da Omanın paytaxtı Maskatda ABŞ və İran arasında nüvə dosyesi üzrə bərpa edilən danışıqlar regional və qlobal təhlükəsizlik arxitekturası üçün mühüm siyasi siqnallar verdi. Danışıqlardan cəmi üç gün sonra – fevralın 9-da İran parlamentinin ABŞ-la aparılan məsləhətləşmələrin birinci mərhələsinin aralıq nəticələrini müzakirə etmək üçün iclas keçirməsi prosesin artıq daxili siyasi legitimlik mərhələsinə keçdiyini göstərir.**

Parlamentdə keçirilən qapalı müzakirədən sonra mətbuat katibi Abbas Qudərzi bildirib ki, toplantının məqsədi İranda "diplomatiya və yerlərdə iş"in tamamilə koordinasiya olunması, razılaşdırılması və bir-birini tamamlaması kimi vacib məqamları vurğulamaq idi. Qudərzi əlavə edib ki, görüşdə əvvəlki danışıqlar zamanı buraxılmış səhvləri təkrarlamaqdan çəkinmək xüsusi qeyd olunub: "Deputatlar vurğulayıblar ki, danışıqlar güc və nüfuz mövqeyindən aparılmalıdır. Ölkənin nüvə sənayesinin qorunması diplomatik qrupun gündəliyində qaçılmaz "qırmızı xətt" olmalıdır. Çünki bu sahə ölkənin gələcəyi üçün həyati əhəmiyyət daşıyır və milli borcudur".

Qayıdaq Maskat görüşünə. Omanın vasitəçiliyi ilə baş tutan və təxminən 5 saat davam edən dolayı danışıqlar İran tərəfindən "uğurlu başlanğıc" kimi qiymətləndirilib. Ölkənin xarici işlər naziri Abbas Əraqçi danışıqların mahiyyətini açıq şəkildə ifadə edərək dialoqun yalnız nüvə proqramı ilə məhdudlaşdığını, bununla belə İranın raket proqramı, regional təsir imkanları və ya SEPAH məsələsinin gündəlikdə olmadığını bildirib. Görünür, bu, Tehran üçün prinsipial məsələdir. Əraqçi açıq bəyan edib ki, uranın zənginləşdirilməsi İranın suveren hüququdur və "sıfır zənginləşdirmə" tələbi nə indi, nə də gələcəkdə qəbul edilə bilməz. Hətta potensial razılaşma çərçivəsində yüksək dərəcədə zənginləşdirilmiş uranın üçüncü ölkələrə çıxarılması ehtimalı da istisna edildi. Bu mövqe göstərir ki, İran 2015-ci il JCPOA modelindən daha sərt, amma hüquqi əsaslara söykənən yanaşma sərgiləyir.

ABŞ Prezidenti Donald Trampın açıqlamaları isə Maskat danışıqlarının Vaşinqton tərəfindən strateji səbir kontekstində dəyərləndirildiyini göstərir. Tramp açıq şəkildə hazırkı situasiyada İranın ABŞ-dan daha çox danışıqlara can atdığını bildirdi. Digər tərəfdən, onun "bizim kifayət qədər vaxtımız var" və "böyük donanmamız bu istiqamətdə hərəkət edir" mesajları diplomatiya ilə yanaşı, təzyiq alətlərinin saxlanıldığını da nümayiş etdirir. Vaşinqton üçün əsas və dəyişməz şərt isə birdir: İran nüvə silahına sahib olmamalıdır! Trampın sözlərindən belə çıxır ki, ABŞ Tehranın əvvəlki illərlə müqayisədə daha böyük güzəştlərə hazır olduğunu düşünür, lakin bu dəfə razılaşmanın şərtləri daha sərt olacaq.

Maskat prosesinin diqqətçəkən tərəflərindən biri də Çin və Rusiyanın paralel diplomatik aktivliyidir. İran XİN başçısının müavini Kazım Qəribabadinin Pekinə səfəri və Çinin İranın dinc nüvə proqramı hüququna açıq dəstəyi Tehranın Qərblə dialoqu alternativsiz görmədiyini göstərir. Rusiya da prosesdən kənarda qalmır. Ölkənin XİN başçısı Sergey Lavrov ilə Omanlı həmkarı arasında baş tutan telefon danışığı Moskvanın Maskat formatını regional sabitlik baxımından faydalı hesab etdiyini ortaya qoyur. Moskva və Pekin üçün əsas məqsəd İranın Qərblə qarşıdurma kursuna qayıtmaması və regionda nəzarətsiz eskalasiyanın qarşısının alınmasıdır.



***

Maskat danışıqları və ardınca İran parlamentində keçirilən iclas göstərir ki, Tehran və Vaşinqton hələ razılaşmadan uzaqdır, lakin toqquşma ssenarisindən də uzaqlaşmağa çalışırlar. İran üçün əsas xətt suverenlik və hüquqların qorunması, ABŞ üçün isə nüvə silahının qarşısının alınmasıdır. Bu mərhələdə prosesin taleyi bir-biri ilə sıx bağlı olan üç əsas amildən asılı olacaq. İlk növbədə, ABŞ-ın təzyiq və diplomatiya arasında hansı balansı qoruyacağı həlledici əhəmiyyət daşıyır. Vaşinqton bir tərəfdən İranı danışıqlar masasına əyləşdirməyə çalışır, digər tərəfdən isə hərbi-siyasi təzyiq rıçaqlarını gündəmdə saxlayaraq Tehrana alternativ ssenarilərin mövcudluğunu xatırladır. Bu balansın pozulması ya danışıqların dalana dirənməsinə, ya da eskalasiyanın yenidən gündəmə gəlməsinə yol aça bilər.

İkinci əsas faktor İran daxilində siyasi konsensusun incəliyi ilə bağlıdır. ABŞ-la mümkün razılaşmanın yalnız icraedici hakimiyyətin deyil, parlamentin, eləcə də siyasi və ideoloji mərkəzlərin razılığı ilə formalaşması Tehranın danışıqlarda manevr imkanlarını həm genişləndirir, həm də məhdudlaşdırır. Daxili konsensusun zəifliyi istənilən razılaşmanı kövrək və qısamüddətli edə, güclü konsensus isə İranın mövqelərini daha sərt və davamlı hala gətirə bilər.

Üçüncü və bəlkə də ən riskli amil İsrail faktorudur. Təl-Əvivin İranla bağlı təhlükəsizlik yanaşması danışıqların dar nüvə çərçivəsindən çıxarılaraq raket proqramı və regional təsir məsələləri ilə yüklənməsini tələb edir. Bu isə Maskat formatının məntiqinə zidd olmaqla yanaşı, ABŞ daxilində də mövqe fərqlərini dərinləşdirir. İsrailin siyasi və hərbi təsir imkanları danışıqların istiqamətini dəyişdirə, hətta prosesi pozucu amilə çevirə biləcək potensiala malikdir.

***

İran–ABŞ danışıqlarının yalnız Maskat–Vaşinqton–Tehran oxunda dəyərləndirilməsi prosesi yarımçıq göstərir. İİR Prezidenti Məsud Pezeşkianın "danışıqlar regionun dost hökumətlərinin dəstəyi ilə irəliyə doğru bir addım olub" fikri bunu deməyə əsas verir. Xarici işlər naziri Abbas Əraqçi də bildirib ki, Azərbaycan və regionun digər ölkələri danışıqların bərpasını təşviq ediblər: "Onlar cənab Pezeşkian ilə 7 dəfə məsləhətləşiblər. Mən də regiondakı həmkarlarımla ya görüşmüşəm, ya da telefonla danışmışam". Azərbaycanın bu prosesdəki rolu açıq mediatorluqdan çox sakit diplomatik təşviq formatında özünü göstərir. Bakı İran–ABŞ qarşıdurmasının regiona sıçramasında maraqlı deyil və dialoqu təhlükəsizlik baxımından daha məqbul alternativ hesab edir. Bu, Azərbaycanın uzun illər apardığı balanslaşdırılmış xarici siyasət xətti ilə tam uzlaşır.

Burada vacib məqam ondan ibarətdir ki, rəsmi Bakı İran–ABŞ danışıqlarına təhlükəsizlik və regional sabitlik prizmasından yanaşır. İran ətrafında mümkün hərbi eskalasiya Cənubi Qafqaz üçün əlavə risklər, enerji və nəqliyyat layihələri baxımından isə ciddi qeyri-müəyyənlik deməkdir. Bakı üçün bu arzuolunan ssenari deyil. Digər tərəfdən, Azərbaycanın qlobal arenada yürütdüyü balanslaşdırılmış və neytral xarici siyasət onu tərəfdaşları arasında uzlaşdırıcı rol oynaya bilən aktora çevirir. Bu baxımdan, pafossuz və realist yanaşsaq, Tehranla Vaşinqton arasında planlaşdırılan növbəti görüş üçün Bakı potensial məkanlardan biri kimi nəzərdən keçirilə bilər. Yəni Azərbaycanın adı bu danışıqlarda təsadüfi çəkilmir. Bu, Bakının regionda artan diplomatik çəkisinin, sabitlik yönümlü aktor kimi qəbul edilməsinin göstəricisidir. Maskat prosesi yalnız İran və ABŞ arasında münasibətlərin tənzimlənməsi deyil, eyni zamanda, Cənubi Qafqaz və Yaxın Şərqdə regional diplomatiyanın yeni rol bölgüsünün formalaşmasıdır.

Bir sözlə, Maskat diplomatiyası hələlik sakitləşdirici, amma qəti həlledici olmayan mərhələdir. Tehran və Vaşinqton irəliyə doğru addım atıblar, lakin bu yolun sonu hələ açıq qalır.

***Tacir SADIQOV***
***XQ***

*Beynəlxalq həyat*

# ABŞ–Rusiya–Ukrayna danışıqları "sıçrayış" yaradacaqmı?

**Üçtərəfli ABŞ-Rusiya-Ukrayna danışıqlarının növbəti mərhələsinin tezliklə baş tutacağı gözlənilir. Bu barədə Ukrayna Prezidenti Vladimir Zelenski bəyan edib. Onun sözlərinə görə, ABŞ Konqresə aralıq seçkilərindən əvvəl Ukraynada sülhə nail olmaq niyyətindədir. Buna görə də Vaşinqton münaqişənin hər iki tərəfinə təzyiq göstərməyə çalışır. Amma danışıqlarının növbəti raundunun yeri barədə hələ heç bir məlumat verilməyib.**



Vladimir Zelenski onu da bildirib ki, amerikalılar yayın əvvəlinə qədər hərbi əməliyyatların aktiv mərhələsinə son qoymaqda israrlıdırlar. Hətta müvafiq tədbirlər üçün cədvəl tələb edirlər. Doğrudur, hələ ki, cədvəldə nələrin nəzərdə tutulduğu məlum deyil, ancaq hesab etmək olar ki, sülhə keçid üçün bir növ "mərhələli plan"dan söhbət gedə bilər.

Ukrayna prezidenti Əbu-Dabidə keçirilmiş son görüşün məzmununu da qismən açıqlayıb. Xüsusilə, ABŞ-ın enerji obyektlərinə qarşı atəş açılmaması ilə bağlı müddətin uzadılmasını təklif etdiyi bildirilib. Zelenskinin dediyinə görə, bununla Kiyev razılaşıb, lakin Rusiya razılaşmayıb. Bundan əlavə, vasitəçilər əsir mübadiləsinin davam etdirilməsini təklif ediblər. Zelenski "olduğumuz yerdə qalaq" formulunda israr etdiyini və ərazi məsələsində heç bir güzəştə getmək niyyətində olmadığını təkrarlayıb. Digər vacib aspekt Zaporojye Atom Elektrik Stansiyasının mülkiyyəti məsələsidir. Burada da heç bir dəyişiklik olmayıb.

Ümumilikdə, ABŞ dövlət katibi Marko Rubionun təbirincə desək, danışıqlarda "sıçrayış" baş verməyib. Əldə olunmuş ən böyük "nailiyyət" əsir mübadiləsidir. Hazırda konkret, əsaslı müzakirələr aparılır. Ukrayna lideri əlaqələrin davam edəcəyini təsdiqləyib. Amma artıq Donald Tramp administrasiyası aralıq konqres seçkilərinə hazırlıqlara başlayıb. Respublikaçılar Partiyası seçkiləri uduzmamaq üçün var gücü ilə çalışır.

Hələlik məlum olan budur ki, fevralın 4-5-də Əbu-Dabidə baş tutmuş üçtərəfli danışıqların ikinci raundunda kompromis mümkün olmayıb. Danışıqların birinci raundu isə ABŞ tərəfindən müsbət qiymətləndirilmiş, Prezident Donald Tramp yaxşı nəticələr əldə olunduğunu bəyan etmişdi. İkinci görüşün nəticəsi ilə bağlı ABŞ-ın dövlət katibi bildirib ki, bu görüşə qədər Ukrayna böhranının tənzimlənməsi çərçivəsində mübahisəli məsələlərin sayı xeyli azalıb, lakin ən çətinləri hələ də qalmaqdadır. Söhbət ərazi məsələsi və Ukraynanın Qərbdən almaq istədiyi təhlükəsizlik təminatlarından gedir.

Danışıq iştirakçıları ikinci raundda "işgüzar ab-hava"dan danışsalar da, hələlik böyük bir "sıçrayış"a nail olunmadığını görmək çətin deyil. ABŞ prezidentinin xüsusi elçisi Stiv Uitkoffun öyünə biləcəyi yeganə nəticə 314 nəfər hərbi əsirin mübadiləsi haqqında əldə olunmuş razılaşmadır.

Təhlükəsizlik məsələləri üzrə işçi qrupunun məsləhətləşmələri fevralın 4-də üçtərəfli formatda başlayıb, daha sonra "mövqelərin sinxronlaşdırılması" mərhələsinə keçilib. Növbəti günün səhəri tərəflər yenidən bir araya gəliblər.

Danışıqlar nəticəsində irəliləyiş əldə olunduğu barədə Rusiya prezidentinin xüsusi nümayəndəsi Kirill Dmitriyev, Ukrayna tərəfindən isə nümayəndə heyətinin rəhbəri, Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov müsbət fikirlər səsləndiriblər. Umerov görülən işi "konkret addımlara və praktiki həllərə yönəlmiş məzmunlu və məhsuldar" adlandırıb.

Beləliklə, həllini tapmalı olan əsas prinsipial məsələlərə – Donbasın statusu və Ukraynanın təhlükəsizlik təminatlarına gəldikdə, bəyanatlar tezliklə "sıçrayış"ın olacağına ümid vermir. Ukraynanın mövqeyini açıqlayan XİN rəhbəri Andrey Sibiqa vurğulayıb ki, "dövlətin ərazi bütövlüyünü və ya suverenliyini şübhə altına alan heç bir formul qəbul edilə bilməz". Rusiyanın mövqeyi isə belədir ki, Moskva "böyük müqavilə"nin bir hissəsi kimi, Donbasın bütün ölkələr tərəfindən Rusiya ərazisi olaraq tanınmasını vacib hesab edir.

Marko Rubio sonda bildirib ki, vəziyyət ümidsiz görünə bilər, lakin Qəzzada olduğu kimi, gözlənilməz "sıçrayış" hər an baş verə bilər.

***Paşa ƏMİRCANOV***
***XQ***

**"SUMQAYIT SƏNAYETİKİNTİ AVTONƏQLİYYAT" ASC səhmdarlarının nəzərinə!**

27 mart 2026-cı il saat 11.00-da cəmiyyətin Sumqayıt şəhəri, İnşaatçılar qəsəbəsində yerləşən inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1. "Sumqayıt Sənayetikinti Avtonəqliyyat" ASC-nin idarə heyətinin 2025-ci ilin yekunları və 2026-cı ildə görüləcək işlər haqqında hesabatı.**

**2. Müşahidə şurasının hesabatı.**

**3. Maliyyə–təftiş komissiyasının hesabatı.**

**4. 2025-ci təsərrüfat ilinin balansının, hesabatların təsdiq edilməsi və xalis mənfəətin bölüşdürülməsi.**

**5. Təşkilati məsələlər.**

***İdarə heyəti***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

***ASCO-nun tabeliyindəki idarələrə tələb olunan taxta materiallarının satın alınması məqsədilə***

**Açıq Tender Elan Edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2026-cı il fevralın 13-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili: 1263.

**Ünvan:** Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 25 (30994) 10 fevral 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### “Sabah” inamla irəliləyir



**Dünən Misli Premyer Liqasında XIX turun iki oyunu keçirilib. Günün ilk matçında “Kəpəz” “İmişli”nin qonağı olub. Quba Olimpiya İdman Kompleksinin stadionunda baş tutan görüş heç-heçə başa çatıb – 0:0. Bu görüşdən sonra “İmişli” 19 xalla 9-cu, “Kəpəz” isə 13 xalla 11-ci pillədə qərarlaşıb.**

Günün ikinci qarşılaşmasında “Turan Tovuz” autsayder “Karvan-Yevlax”ı sınağa çəkib. Görüş qərb təmsilçisinin qələbəsi ilə başa çatıb – 1:0. Ehtiyatda daha bir matçı olan Tovuz təmsilçisi 33 xalla turnir cədvəlində 3-cü pilləyə yüksəlib, “Karvan-Yevlax” isə 6 xalla 12-cidir.

Xatırladaq ki, ilk oyun günü turnir cədvəlinə başçılıq edən “Sabah” “Araz-Naxçıvan”ı böyük hesabla məğlub edib – (4:1), “Zirə” “Sumqayıt” görüşü isə bakılıların xeyrinə başa çatıb – 3:2. Turnir cədvəlinə 46 xalla “Sabah” komandası başçılıq edir. Liderdən 1 oyun az keçirən “Qarabağ” 39 xalla 2-ci pillədə, “Zirə” klubu isə 32 xalla 4-cü mövqedə qərarlaşıb.

Tura bu gün keçiriləcək 2 oyunla yekun vurulacaq. “Şamaxı” doğma meydanda “Qarabağ”ı, “Neftçi” isə paytaxtda “Qəbələ”ni sınağa çəkəcək.

### Paris Böyük Dəbilqəsində 1 dəst medal



**Fransanın paytaxtı Parisdə keçirilən cüdo üzrə Böyük Dəbilqə turniri başa çatıb. Yarışın son günündə yığma komandamız daha bir medal qazanıb.**

81 kiloqram çəki dərəcəsində mübarizə aparan Zelim Tçkayev karyerasında ikinci dəfə analoji turnirdə gümüş medala layiq görülüb. 26 yaşlı cüdoçumuz iki il əvvəl də Paris tatamisində eyni nəticəni göstərmişdi.

Tçkayev finala gedən yolda Çin, Böyük Britaniya, Tacikistan və Qazaxıstan təmsilçilərinə qalib gəlib. Həlledici görüşdə isə yaponiyalı Yuhei Oinoya uduzaraq fəxri kürsünün ikinci pilləsində qərarlaşıb.

Qeyd edək ki, ötən gün Balabəy Ağayev (60 kq) qızıl, Ruslan Paşayev (66 kq) isə bürünc medal əldə etmişdi.

Beləliklə, Paris Böyük Dəbilqəsini bir dəst medalla başa vuran Azərbaycan millisi 78 ölkə arasında kişilərin mübarizəsində 2-ci, ümumi komanda hesabında isə 3-cü yeri tutub.

### Beynəlxalq yarışda 2 mükafat




**Stolüstü tennisçi Onur Quluzadə yeni mövsümə uğurla başlayıb. Tunisin paytaxtında keçirilən “WTT Youth Star Contender Tunis 2026” yarışında bacarığını göstərən istedadlı idmançı U 15 yaş dərəcəsində baş mükafata layiq görülüb. Seçmə komandanın üzvü turnirin qoşa yarışlarında almaniyalı həmkarı Vanq Lukasla birgə bütün oyunları qələbə ilə başa vuraraq 1-ci yeri tutub.**

Stolüstü tennisçimiz şəxsi mübarizədə də etimadı doğruldub. Finaladək bütün rəqiblərini üstələyən Onur yalnız finalda ispaniyalı Ladimir Mayorova uduzaraq ikinci yeri tutub. Beləliklə, tennisçimiz ilin ilk sınağını iki mükafatla başa vurub.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Beynəlxalq Musiqi Festivalı*

# Qəbələdə “Qış nağılı” başa çatdı






**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və “Gilan”ın dəstəyi ilə Qəbələdə keçirilən “Qış nağılı” II Beynəlxalq Musiqi Festivalı başa çatıb.**

2009-cu ildən ənənəvi olaraq keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalının davamı olaraq, artıq ikinci ildir təşkil edilən “Qış nağılı” festivalı bu il də musiqisevərləri bir araya gətirib. Soyuq qış günlərində reallaşan bu möhtəşəm sənət bayramı musiqi dünyasının diqqətini yenidən Qəbələyə yönəltməyi bacarıb.



Fevralın 5-də başlayan festival çərçivəsində Qəbələdəki Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə rəngarəng proqram təqdim edilib. Vokal, kamera instrumental musiqi axşamları, solo çıxışlar, autizmli pianoçunun konserti, Azərbaycanla İtaliya arasında dostluğu təcəssüm etdirən “Bakı-Neapol: Musiqi körpüsü” kamera musiqi axşamı izləyicilərin ürəyincə olub.

Fevralın 8-də axşam Heydər Əliyev Konqres Mərkəzində “Qış nağılı” II Beynəlxalq Musiqi Festivalının təntənəli bağlanış mərasimi və yekun konserti keçirilib. Mərasimdə Leyla Əliyeva, festivalın təşkilatçı qurumlarının təmsilçiləri, tanınmış musiqiçilər, musiqisevərlər və şəhərin qonaqları iştirak ediblər.

“Azərbaycan-İspaniya: iki ölkə, bir musiqi” adlı flamenko-caz musiqi gecəsində Azərbaycan xalq mahnıları, flamenko-caz və muğam improvizələri səsləndirilib, İspaniyadan dəvət alan ifaçı və rəqqaslar səhnəyə çıxıb.

Konsertə başlamazdan əvvəl ispan və Azərbaycan musiqiçilərinin yaradıcılığı barədə qısa məlumat verilib. Bildirilib ki, dünya şöhrətli flamenko pianoçusu və bəstəkar Andres Barrios klassik musiqi təhsili alıb. Caz musiqisi sahəsində dərin biliklərə yiyələnən sənətçi eklektik və yenilikçi yaradıcılıq üslubu ilə seçilir. Onun musiqisi XXI əsr flamenkosunun cəsarətli və müasir ifadəsi kimi, müxtəlif dünya musiqi üslublarını ustalıqla birləşdirir.

Diqqətə çatdırılıb ki, konsertdə iştirak edən azərbaycanlı musiqiçi, tarzən İbrahim Babayev hər zaman özünəməxsus eksperimentləri ilə seçilməyi bacarır. O, muğam ənənələrinə əsaslanaraq, onlara elektron və çağdaş musiqi elementlərini əlavə edir. Pianoçu Nicat Aslanov isə muğam, etnocaz və müasir cazın sintezinə əsaslanan bir yaradıcılığa sahibdir.

Konsertdə Andres Barriosun ifasında “Ecdysis”, “Meraki”, “Noche Andaluza”, “İsbilya”, “La Colombiana” və ispan xalq nəğmələri səsləndirilib. İspaniyalı rəqqasə Cristina Cazorla və rəqqas Javier Morenonun təqdim etdikləri flamenko rəqs kompozisiyaları, həmçinin tarzən İbrahim Babayevin pianoçu Andres Barriosla birgə ifa etdiyi muğam və flamenko improvizələr, xalq mahnısı “Yaylıq” tamaşaçılara böyük zövq verib.

Yekun konsertində, həmçinin tanınmış azərbaycanlı pianoçu və caz bəstəkarı Nicat Aslanovun və caz triosunun üzvləri Fuad Cəfər (bas gitara) və Həsən Bilalovun (zərb alətləri) ifasında solo performans və flamenko improvizələri təqdim olunub.

Beləliklə, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və “Gilan”ın dəstəyi ilə Qəbələdə keçirilən “Qış nağılı” II Beynəlxalq Musiqi Festivalı şən notlarla başa çatıb.

*XQ*

# “Asiman”ın ilk sərgisi



**Bakıda “Asiman” qalereyasının açılışı olub və azərbaycanlı rəssam İntiqam Ağayevin tematik rəsm silsiləsi təqdim edilib.**

“Susuzluq” adlanan silsilə rəssamın müasir dövrün ən aktual problemlərindən birinə – dünyada su ehtiyatlarının tükənməsinə həsr olunub. Bu ekoloji amil əsərlərdə itki, narahatlıq və dünyanın kövrəkliyi kimi anlayışların vizual metaforaları şəklində əksini tapıb.

Mərasimdə tanınmış mədəniyyət xadimləri, rəssamlar və sənətsevərlər iştirak ediblər. Qalereyanın direktoru İqbal Həsənəlizadə və layihənin art-meneceri Sofiya Frank, eləcə də qonaqlar ürək sözlərini söyləyiblər. Qeyd edilib ki, “Asiman” qalereyası paytaxtın mərkəzində – Azərbaycan Rəssamlar İttifaqına məxsus binada yaradılıb və hər ay burada maraqlı ekspozisiyalar təqdim olunacaq.

Yeni məkanda ilk sərgi maraqla qarşılanıb. “Susuzluq” silsiləsinin müəllifi – Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinin məzunu İntiqam Ağayev, əsasən impressionizm üslubunda çalışır və yağlı boya texnikasında əsərlər yaradır. Onun işləri həm Azərbaycanda, həm də xaricdə sərgilənib və şəxsi kolleksiyalarda saxlanılır. Gecəni xanəndə Qızılgül Babayevanın ifası daha da rövnəqləndirib. Onu udda həkim-rəssam Rəhim Həşimov müşayiət edib.

Sərgi fevralın sonunadək davam edəcək, növbəti sərgi isə Novruz bayramı mövzusuna həsr olunacaq.

*XQ*

# FHN hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib

**Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, fevralın 10-da 11-də ölkə ərazisində kəskin hava şəraitinin müşahidə olunacağı, güclü külək əsəcəyi, ayrı-ayrı yerlərdə intensiv yağıntılar, o cümlədən qar yağacağı, temperaturun xeyli enəcəyi proqnozlaşdırılır.**




Bununla bağlı Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, müvafiq təhlükəsizlik qaydalarına ciddi əməl etməyə çağırır: “Güclü külək zamanı yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Həmçinin güclü küləyin baş verən yanğınların söndürülməsi ilə əlaqədar yaratdığı çətinlikləri nəzərə alaraq, küləkli hava şəraitində yanğın təhlükəsizliyi qaydalarına xüsusilə ciddi riayət edilməlidir.

Eyni zamanda, soyuq hava şəraiti qaz və elektrik qızdırıcı cihazlarından istifadənin xeyli artmasına səbəb olduğundan bu cihazlardan istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməli, dəm qazı təhlükəsinə qarşı diqqətli davranılmalıdır”.

Bundan başqa, müraciətdə qeyd olunur ki, xüsusilə dağlıq ərazilərdə vətəndaşlar şaxtalı və qarlı havada mümkün qədər yaşayış məntəqəsini tərk etməməli, belə bir zərurət yarandıqda hərəkət istiqaməti barədə yaxınlarını əvvəlcədən məlumatlandırmalı, avtomobilin texniki göstəricilərinin fəslə uyğunluğunu və kifayət qədər yanacaq ehtiyatını təmin etməlidirlər: “Unutmayın: Qaydalara biganəlik həyatımıza təhlükədir! Təhlükə zamanı 112-yə zəng edin!”, – deyə müraciətdə vurğulanır.

*XQ*

## HAVA

# Qar yağacaq, dağlarda yollar buz bağlayacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, sulu qara, qara keçəcəyi proqnozlaşdırılır. Gün ərzində ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək.**



Havanın temperaturunun gecə və gündüz 1-4 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 756 millimetr civə sütunundan 767 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 80-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 0-5, gündüz 5-8 dərəcə isti, dağlarda gecə 3-8, gündüz 0-3 dərəcə şaxta olacağı bildirilir.

Gecə və səhər əsasən dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*

*✓ 2020-ci il mayın 22-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən “CMT GROUP” MMC-yə verilmiş EL-131/2020 nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır. (VÖEN-1001879941).*

*✓ 2024-cü ilin aprel ayında Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi İdman Sağlamlıq Klubunun baş inspektoru, baş leytenant Elnur Azad oğlu Məhərrəmovun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2884
SİFARİŞ 209
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV

Çapa imzalanmışdır 00:00